

# Azərbaycan Sevgi Poeziyası

## İkinci kitab

# Azərbaycan Sevgi Poeziyası

İkinci kitab

Tərtibçi: Hamlet İsaxanlı

Xəzər Universitəsi Nəşriyyatı

© Xəzər Universitəsi Nəşriyyatı, 2009
Bütün hüquqlar qorunur.

Tərtib və dizayn: Hamlet İsaxanlı

Kompüter işi: Zakir N. Yusifoğlu

Azərbaycan Sevgi Poeziyası, çoxcildli. İkinci cild

ISBN 978-9952-20-050-8

1. Azərbaycan sevgi poeziyası — Antologiya.
2. Poeziya. 3. 20-ci əsr Azərbaycan Poeziyası.
4. Sevgi və poeziya.

894.361108-dc22

Bakı. AZ1096. Məhsəti küçəsi 11.
Azərbaycan

# İçindəkilər


**Yaxşı sevgi şeirlərimiz (*tərtibçidən*)** ........ 1
**İkinci və üçüncü kitaba aid bir neçə söz** ........ 5

**Abbas Səhhət**

Getdinsə də, getməz ürəyimdən qəmi-eşqin ........ 7
Ruhim, mələkim, sevdiciyim, nazlı sürüşum ........ 7

**Səməd Mənsur**

Bir rəngli-boyalı qadına ........ 9
Naz et! ........ 10
Sən mənim olsan ........ 13

**Abdulla Şaiq**

Şikayətlərim ........ 17
O baxışlar ........ 18
Şərq gözəlinə ........ 20
Gəldikcə o qəmzən quşu cövlnə, gülümsər! ........ 21
Bir səhər dan yeri alarkən nəfəs ........ 22
Sevgi miniatürləri ........ 23

**Məhəmməd Hüseyn Şəhriyar**

Pərvanə və şəm ........ 25
Behcətabad xatirəsi ........ 26
Getmə, tərsa balası ........ 28
Əzizə ........ 30
Yar qasidi ........ 33
Bəlalı baş ........ 34
Bayatılar ........ 36

**Əhməd Cəmil**


Gecə dəniz qərq olar ........................................................ 37
Məni yada salırmı? ........................................................... 38
Sevgi miniatürləri ............................................................ 39


**Həmid Nutqi**


Sənsiz ............................................................................ 41
Fal ................................................................................. 42
Divan şeiri bağçalarında .................................................... 43
Əllərində ulduzlar .............................................................. 44
Sevda ............................................................................. 46
Sevgi miniatürləri ............................................................ 48


**Ənvər Əlibəyli**


Gəlmədin ......................................................................... 49
Qoşa vuracaqdır ürəklərimiz ............................................. 50
Yar incidi ........................................................................ 51
Demişdin yaz gəlsin... ....................................................... 52
Söz olmasaydı.................................................................. 53
Qızlar mahnısı.................................................................. 54
Bahar olsun ...................................................................... 55
Niyə sevdim mən səni? ...................................................... 56
Sevgi miniatürləri ............................................................ 57


**Zeynal Cabbarzadə**


Alagöz ............................................................................ 61
Axşam mahnısı ................................................................ 62
İntizar ............................................................................ 63
Göz görüb ....................................................................... 64
Əziz surət ....................................................................... 65
İlk bahar ......................................................................... 66
Lirik mahnı ..................................................................... 68
Nə olar? .......................................................................... 69
Sən mənim, mən sənin! ..................................................... 70
Dedim, dedi ..................................................................... 72
Neyləsin? ........................................................................ 74

Ay qız ........ 75
Tez gəl ........ 76
Gözəllər ........ 78
Sevgi miniatürləri ........ 80

**İslam Səfərli**

Dalğalar ........ 83
Üzmə yar ........ 84
Bir könül sındırmışam ........ 85
Nə vaxta qaldı? ........ 86
Arzu ........ 87
Yadıma düşdün ........ 88
Pıçıldaşın ləpələr ........ 89
Zərif gülüşlüm ........ 90
Həkim qız ........ 91
Bilmədin ........ 92
Gül bağçalar ........ 93
Sevgi valsı ........ 94
Səhər mahnısı ........ 95
Şəhla gözlüm ........ 96
Aylı gecələr ........ 97
Qonaq gəl bizə ........ 98

**Hüseyn Arif**

Sən mənimlə get ........ 101
Nə vecinə ........ 102
Sən dərsə gəlməyəndə ........ 103
Mən inanmadım ........ 104
Nə deyim? ........ 105
Söylə, yadındamı? ........ 106
Ay qız ........ 107
Dedim, dedi ........ 108
Xatırla məni ........ 109
Qonşu qız ........ 110
Dinə bilmədim ........ 111
Nə bəxtiyardıq! ........ 112
Sevəydin barı ........ 113
Malakan qızı ........ 114

Xətrinə dəymərəm ........ 116
Sevgi miniatürləri ........ 117

**Nəbi Xəzri**

Nə dedim? ........ 119
Ayrı sahillərin eyni dalğası ........ 120
Dəniz, göy, məhəbbət ........ 122
Axtar sən məni ........ 123
İkilikdə ........ 124
Nar-nar ........ 125
Mavidir... ........ 126
Külək ........ 128
Qəlbimdə qaldın ........ 129
Ərəb qızı ........ 130
Yadigar ........ 131
Yuxu ........ 132
Sənin üçün ........ 133
Qonşuda qız sevənin ........ 134
Ulduzlar və sən ........ 136
Səni sevən varsa... ........ 138
Sevgi miniatürləri ........ 139

**Bəxtiyar Vahabzadə**

Heyif ........ 141
Gəlir ........ 142
Kölgəm qədər yaxınsan ........ 143
Qüruru neyləyirsən?........ 144
Bir payız axşamı ........ 145
Odum, közüm, gəl... ........ 146
Ömrün payızında sevdim, sevildim ........ 147
Olurmuş ........ 148
Gecələr uzanaydı... ........ 149
Unudam gərək ........ 150
Sən hardan biləsən? ........ 152
Biri sənsən, biri mən ........ 155
Xatirələr ........ 156
İstəyirəm görəm səni ........ 157
Yağma, yağış ........ 158
Gül ........ 159

Bir salama dəymədi .......... 160
Nə məni anladın, nə məni duydun .......... 162
Səni gördüm .......... 164
Bu qədər saldı məni həsrət amandan-amana .......... 165
Yenə bağlar o bağlardır, fəqət bağda gülüm yoxdur .......... 166
Ən ülvi, təmiz duyğudur insanda məhəbbət .......... 167
Sənsiz qəhr edərdi bu cahan məni .......... 168
Sevgi miniatürləri .......... 170

**Əliağa Kürçaylı**

Məni sənə bağlayan .......... 175
İstərəm .......... 176
Əynindəki donun bəyaz, örpəyin bəyaz .......... 177
Dənizdə Ay çimirdi .......... 178
Sevirdim xurmayı hörüklərini .......... 179
Yadıma sən düşürsən .......... 180
Belə ola həmişə .......... 181
Ovçumusan, ovmusan? .......... 182
Heç xəbərin yoxdur sənin .......... 183
Səslə məni .......... 184
Başıma gəldi .......... 185
Taleyimin göylərində .......... 186
Xoşbəxtlik mahnısı .......... 187
Sevgi miniatürləri .......... 188

**Əli Kərim**

Özü duyaydı ki, ürəyimdədir .......... 191
Nə vaxt görüşmüşük? .......... 192
İki sevgi .......... 194
Nə xoşbəxt imişəm bir zaman, Allah .......... 196
Qayıt .......... 198
Yar gəldi .......... 199
Sevgi miniatürləri .......... 200

**Nəriman Həsənzadə**

Sən bağışladın .......... 201
Qoru .......... 202

Nağıl ........ 203
Yaşamaq üçün ........ 204
Yanına gəlmişəm ........ 206
Deyirlər tanış ol... ........ 207
Biz ki, istəyirik ........ 208
Fikir eləmə ........ 210
Tələsmə ........ 211
Bu da bir zarafat ........ 212
Bəxtəvər oldu ........ 214
Gül bir az ........ 215
Lirik parça ........ 216
Yaşa dünyada ........ 217
Mənə elə gəlir ........ 218
Dözüm ........ 219
Ay yaşıl söyüd ........ 220
Kaş... ........ 222
Niyə getdin? ........ 223
Ömrümün yazısan ........ 224
Gəzəyən qız ........ 225
Sənsən həyatım ........ 226
Sağ canımda ağrıyan yerim ........ 228
Qadına məktub ........ 230
Nərdivan ........ 232
Düşüb ........ 233
Sevgi miniatürləri ........ 234

**Xəlil Rza Ulutürk**

Yadındamı? ........ 239
Əlini mənə ver ........ 240
Açmaram bu sirri ........ 242
Yağışlar yağanda... ........ 244
Səadət qorxusu ........ 246
Eşitsəm gəlirsən ........ 250
Tut mənim əlimdən, buraxma, gülüm ........ 252
Saçları şəlalə qız ........ 254
Mən bilirdim bu günüm bir yeni dövran olacaq ........ 255
Sevgi miniatürləri ........ 256

**Cabir Novruz**

Səni gördüm ........ 259
Bir gül kimi ........ 260
Yetər hicran ........ 261
Öyrənmişəm sənə, gülüm... ........ 262
Məhəbbət bu dünyanın əzəli... ........ 263
Məhəbbət yaşa baxmır ........ 264
O qız sakit ömr edərdi bir zaman ........ 265
Görüşdük Tanrının elə var günü ........ 266
Əvvəl sevənləri qoru a dünya ........ 268
Sən elə bir vaxtda rast gəldin mənə ........ 270
Taleyim mənim ........ 272
Ayrılıq nəğməsi ........ 274
Məhəbbət ........ 276
Həyat sən nə qəribəsən?! ........ 277
Sevgi miniatürləri ........ 278

**İndeks** (əlifba sırasına görə şeirlər)........ 279

**The Azerbaijani Love Poerty (From Compiler)**........ 285

# Yaxşı sevgi şeirlərimiz...

Azərbaycan poeziyasının zəngin tarixində sevgi aparıcı mövzulardan biridir və şübhəsiz ki, sevgiyə həsr olunan şeirlər ən çox əzbərlənən və sevilən poetik nümunələr arasındadır. Böyük-kiçik hökmdarların, müxtəlif dini, siyasi ideologiyaların hakim olduğu zamanlarda yazıb-yaradan, sarayla dil tapan, ona xidmət edən və ya saraylarla əlaqəsi olmayan şairlərimiz könlünü eşq aləminə vermiş, ədəbiyyatımızı yaşadan şah əsərlər qoyub getmişlər. Klassiklərimizlə yanaşı bir çox orta əsr və çağdaş dövr şairlərimiz də ağızda gəzən, ürəkləri oynadan, musiqiyə dönən gözəl sevgi şeirləri yazmışlar. Bu şeirləri seçib, bir yerə toplayıb bütöv şəkildə oxuculara təqdim etmək çoxdankı arzum idi.

Əvvəlcə, bircildlik üzərində düşünürdüm (mümkündür ki, qalın, iri həcmli); lakin düşüncələrim nizama düşdükcə, məsələyə yaxın gedib ona daha dərindən nüfuz etdikcə, bircildlik fikrindən vaz keçməli oldum. Şairlərimizin *ən yaxşı* sevgi şeirlərinin hamısını, *yaxşı* sevgi şeirlərinin isə çox böyük qismini kitaba daxil etmək istədim. Adətən ən yaxşı şeirlərin seçimi poeziya həvəskarları və biliciləri, şeir yazan və şeir sevənlər arasında böyük fikir ayrılığı doğurmur, "sadəcə yaxşı" şeirlər barədə isə fikir müxtəlifliyi olması mümkündür (və bu təbiidir –zövqlər müxtəlifdir, "yaxşı nədir, pis nədir?" sualına hərənin öz cavabı var).

Seçimimi tələsmədən, yüz ölçüb bir biçərək, şeirlərin bədii və estetik dəyəri, fikir yükü, orijinallığı kimi əlamətlərə dayanaraq etdim. Musiqinin sehri də, istər-istəməz, müəyyən dərəcədə rol oynadı. Şeirlərə yazılmış gözəl musiqi o şeirlərə qanad verir, ikinci həyat verir. Bəzi şeirlər məhz musiqisinə görə tanınır, daha doğrusu, şeir deyil, musiqi tanınır, sevilir, insan qəlbinə yol tapır. Bir sıra hallarda şair bəstəkarın əvvəlcədən düşündüyü ahəngə, ritmə, yəni bəstəkarın musiqi qəlibinə uyğun şeir yazmalı olur, şeir musiqinin kölgəsində doğulur; belə şeir öz-özlüyündə çox məzmunlu olmaya bilir, öz-özlüyündə ahəngi, vəzni pozğun ola bilir, lakin bəstəkarın gözəl melodiyasının məhsulu olan mahnı məşhurlaşır (bu halda haqlı olaraq deyirlər ki, şairin bəxti gətirib). Sözün düzünə qalanda, müsiqiləşmiş şeirlər işimizi bir qədər çətinləşdirdi...

Bəzi klassiklər istisna olmaqla şairlərimizi yeni bucaq altında sanki yenidən kəşf etdim, onların əsərlərini dəfələrlə oxudum. Nə gizlədim, sevinclə yanaşı təəssüf hissi keçirdiyim anlar da oldu. Məsələn, Sovet dövrü bəzi görkəmli şairlərimizin az sayda sevgi şeirləri yazdığına çox heyfsiləndim; düşündüm ki, onlar siyasətə, ideologiyaya xidməti azaldıb, keçici olmayan, bütün dövrlərə xas olan əbədi mövzulara girişsəydilər, o cümlədən insan ruhunu oxşayan məhəbbətə sığınıb daha çox eşqi tərənnüm etsəydilər nə olardı?! (Mən, əlbəttə ki, bu sözləri bu günün insanı olaraq deyirəm və zamanın yaradıcı insanlar üzərindəki təsir gücünü unutmuram. Hökmdarların və ideologiyaların bəşər tarixindəki rolunu, yaşadığımız zaman içində keçici olanla olmayanı bir-birindən ayırd etməyin incəliyini və çalarlarını da duyub anlayıram sanki... Lakin, eyni zamanda, həmişə var olan "mühitin yaradıcı şəxsə və şəxsiyyətin mühitə təsiri", "şəxsin yaradıcılığında onun dünyagörüşü, zəkası və təfəkkürünün oynadığı rol" kimi mühüm problemləri də sanki aydın görürəm).

Bir kitabla işi bitirmək fikrindən vaz keçərək birinci kitabı oxuculara daha yaxın olan son yüz ilin sevgi poeziyası əsasında tərtib etmək fikrinə düşdüm. Hüseyn Cavid və Məmməd Səid Ordubadidən üzü bu yana, bu gün yazıb-yaradan şairlərimizə qədər bir dövrün sevgi poeziyasına baş vurdum və... fikrimi daha bir dəfə dəyişməli oldum. Fikrimi

azdıran birinci səbəb bir kitab və ya bir cild anlayışının qeyri-müəyyən-liyidir. Shakespeare (Şekspir) qələminin məhsulu olan külliyyat bütövlükdə bir cildə sığa bilər (Qərbdə, doğrudan da, Şekspirin bütün əsərləri xırda hərflərlə çap olunmuş qalın bir cildə yerləşdirilir və bu, ucuz qiymətə Şekspir külliyyatına sahib olmaq imkanı verir). Sevgi şeirlərinin sevildiyini bilərək, bəlkə də əldə gəzəcəyinə ümid edərək, iri həcmli, 800-1000 səhifəlik kitab nəşr etmək fikri xoşuma gəlmədi. Oxucuların gözünü yormayan, əksinə gözünü və zövqünü oxşaya bilən yığcam kitabları məqsədəuyğun saydım. "Topluda bu günkü poeziya da layiqincə yer tutmalıdır" fikri son yüz ildə Azərbaycan türkcəsində yazılmış sevgi şeirlərinin bir kitaba toplanmasını çətinləşdirən daha bir səbəb oldu. Güneyli-quzeyli çağdaş Azərbaycan poeziyasını hər hansı bir istiqamətdə əhatə etmək, araşdırmaq, fikir söyləmək və seçim etmək sadə iş deyil.

Beləliklə "Azərbaycan sevgi poeziyası" çoxcildli alındı, hal-hazırda ilk dörd cildi tamamlamaq üzrəyəm. Hər cilddə xronoloji prinsipi əsas götürsəm də, ümumilikdə, eyni dövrdə yaşayan şairlərin müxtəlif cildlərə düşməsi də istisna olunmur. Bu halda, tərtibçi daha çevik olmaq imkanı əldə edir, nümunələrin tələm-tələsik deyil, düşünə-düşünə seçilməsi mümkün olur. Üstəlik, haqqında tam məlumatım olmayan şairlərin, yaxud unudulmuş və ya gənc, çox tanınmamış şairlərin də növbəti cildlərdə təmsil olunmasına imkan yaranır.

Bir müddət davam edəcək bu nəşrin daha dolğun və əhatəli olması üçün həmkarlarımın, bu günkü şairlərin, şeirsevərlərin və tədqiqatçıların, dost-tanışlarımın və tanış olmadığım (!) insanların rəy və təkliflərinə ehtiyac duyuram. Bu məqsədlə mənə müraciət edəcək şəxslərə, həmçinin müəyyən sevgi şeirlərinin namizədliyini irəli sürənlərə əvvəlcədən təşəkkürümü bildirirəm. Elektron ünvanımda (**hamlet@khazar.org**) sizin məktublarınızı gözləyirəm; Xəzər Universitəsi Nəşriyyatına da yaza bilərsiniz.

Kitaba sevgi və poeziya haqqında yazmaq istədiyim kiçik giriş sözü həm sevgi duyğularından, həm poeziyadan ilham ala-ala böyüdü. Və nəticədə tərtibçinin bu sətirləri də içinə alan giriş sözü ilə "Sevgi və Poeziya" adlı aşağıdakı yazını bir-birindən ayırmalı oldum.

Bu layihənin həyata keçməsində mənə kömək edənlərə minnətdaram. Orijinal mətnlərin elektron versiyalarının hazırlanması, tutuşdurulması, düzəlişlər edilməsi və şəkilləndirilməsi Nailə xanım İsaxanlı, Fəxrəndə Söhbətova, Elnarə Bayramova, Zakir N. Yusifoğlu, Günel Mustafayeva və digər insanların iştirakı, qayğı və köməyi sayəsində mümkün oldu.

"Azərbaycan sevgi poeziyası" adlı bu kitablarla ünsiyyətdə olacaq hər kəsə sevgi və poeziya dolu həyat arzulayıram.

***Tərtibçidən***

# İkinci və üçüncü kitaba aid bir neçə söz

"Azərbacan Sevgi Poeziyası"nın ikinci və üçüncü kitablarına 20-ci yüzillikdə yaşayıb yaratmış bir sıra şairlərin əsərləri daxil edilmişdir. Birinci kitabdakı kimi burada da şairlər doğum tarixlərinə görə sıraya düzülmüşlər. İkinci kitabda şimallı-cənublu keçmiş şairlərimizdən A.Səhhət, S.Məsur, A.Şaiq və M.Şəhriyarın birinci kitabdakı nəslin davamı olaraq Əhməd Cəmillə (1913-1977) ilə başlanan şeirlərdən yaradıcılığını yaxşı bildiyimiz və ya kitaba daxil etmək məqsədi ilə öyrənib seçə bildiyimiz şairlər yer alır. Famil Mehdi (1934-2002) ilə başlanan üçüncü kitabda isə ikinci kitabdakı nəsli davam etdiririk.

"Azərbacan Sevgi Poeziyası"nın ikinci və üçüncü kitabında öz sevimli şairlərini görməyənlər təəssüf hissi keçirməsinlər və ya tərtibçidən küsüb-inciməsinlər. Eyni dövrdə yaşamış digər şairlər növbəti kitablarda yer alacaqlar. Bu işdə bizə məsləhət vermək istəyən, öz tövsiyələrini əsirgəməyən, şeirlər və kitablar göndərən hər kəsə öncədən təşəkkür edirəm.

"Sevgi miniatürləri" adı altında şairin həcmcə kiçik şeirləri və (daha çox) onun şeirlərindən xüsusi seçilmiş parçalar verilmişdir. Bəzi şeirlər, ümumiyyətlə, sevgiyə həsr olunmayıb, amma içində sevgiyə aid dəyərli parçaları ehtiva edir. Digər tərəfdən, əsas mövzusu sevgi olsa da, bəzi "uzun" şeirlərin müxtəlif hissələri bədii cəhətdən eyni səviyyədə olmur; belə olan halda, zənnimcə, şeirin seçilmiş bir parçası daha yaxşı təsir bağışlayır.

Mahnı üçün yazılan, bəstəkarın əvvəlcədən hazırlamış olduğu melodiyaya, yəni musiqi qəlibinə girməyə məcbur olan şeir bəzən, bütövlükdə götürüldükdə, poetik güc və gözəllik baxımından zəif görünür. Bu halda melodiya gözəl olsa da, mahnı çox oxunub sevilsə də, həmin şeir musiqisiz oxunduqda "məhv olur". Belə şeir "yaxşı" ola

bilmir, şeir kimi görünmür, az-az hallarda isə yalnız bir parçası yaxşı şeirə bənzəyir; bu hal da "Sevgi miniatürləri" ndə öz əksini tapır.

İkinci və üçüncü kitablar çapa hazırlanarkən professor Bəhlul Abdulla müəyyən dəqiqləşmələrdə və Yəmən Haşımova korrekturada mənə kömək etdilər. Onlara təşəkkür edirəm.

***Tərtibatçıdan***

# Abbas Səhhət

(1874-1918)

**Getdinsə də, getməz ürəyimdən qəmi-eşqin,**
Məncə iki dünyaya dəyər aləmi-eşqin.
Yoxdur həvəsim sərvü gülü laləyə sənsiz,
Bülbül kimi daim gəlirəm naləyə sənsiz.

***"Yadındamıdır?"dan***

* * *

**Ruhim, mələkim, sevdiciyim, nazlı süruşum[1],**
Zikr[2] oldu adın, uçdu başımdan yenə huşum.
Dəryaya baxıb, sevgili yarım, səni görrəm.
Səhraya baxıb, nazlı nigarım, səni görrəm.
Qəmzən oxuna oldum o gündən ki, nişangah,
Fikrim hamı insafi-ruxundur[3], şahid allah.
Məqsud cəmalındır, nə tərz olsa ibarət,
Yox səndən əlahiddə kəlamımda işarət.
Ta ruhuma tabəndə[4] olub nuri-cəmalın,
Səhhət kimi düşmüş başıma şuri-cəmalın.

***"Dərya kənarı"ndan***

---

1. mələklərdən Cəbrayılın adlarından biri (farsca-f.)
2. söyləmə, ifadə etmə; yada salma (ərəbcə-ə.)
3. üz, çöhrə (f.)
4. işıq saçan, parlayan (f.)

# Səməd Mənsur
(1879-1927)

## Bir rəngli-boyalı qadına

Derlərsə ki, sən tiğ[1] mücə[2], qaşı kamansan,
Ərvahına[3] aşiqlərin rəxnə[4] salansan,
Bir sahiri[5]-aləm, hamıya afəti-cansan,
Bir qəmzə ilə aləmi-imanı yıxansan
Sən cism deyilsən, nə bilim ruhi-rəvansan,
Aldanma, yalandır.

Sən bir bəşər övladı bəşərsən, sənə qurban!
Şairlərə baxma ki, hüsnün edər ünvan,
Ünvan edərək hüsnün ol mərdi-süxəndan[6]
Mənalar açar, dürr saçar ortaya hər an,
Hər kəs desə ki, əhli-qələmlər sənə heyran,
Aldanma, yalandır.

Bihudə[7] edər hüsnü vəcahət[8] səni məğrur,
Məğrurluğun qıldı məni yazmağa məcbur.
Ayinə edər bir neçə il də səni məsrur[9],
Sonra olacaqsan, gözəlim, ayinədən dur...
Hər kəs desə sevmişdi səninçün səni Mənsur,
Aldanma, yalandır.

---

1. qılınc, xəncər; ülgüc (f.)
2. kirpik kəlməsinin bir deyiliş şəkli (moje, mücə – f.)
3. ruhlar (ə.)
4. məc: zərər, ziyan, xələl; sökük, yırtıq (f.)
5. sehr edən, sehrbaz; məc: cəzb edən (ə.)
6. danışığını bilən; gözəl danışan, söz ustası (f.)
7. boş, faydasız (f.)
8. gözəllik; şan (ə.)
9. şən, şad (ə.)

## Naz et!*

Ey rəhmli canan, eləmə ülfətə adət,
Nazınla vüqarın verər ətvarına[1] zinət,
Bihudə gülümsünmə, vüsalında nə ləzzət,
Sıx qəlbimi, yansın ciyərim, qanımı qəynət[2],
Cövrünlə dəri-sirri-nihanı[3] mənə baz[4] et!
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

Gər olmaya dövründə gülün xari[5]-dilənduz[6],
Gər mümkün ola bülbül üçün vəsl şəbü ruz[7],
Nə bülbül olur dəhrdə[8], nə nəğmeyi-cansuz[9],
Qoyma ki, cəmalın ola üşşaqına[10] dilduz[11],
Hicrində məxatib[12] səbəbi-talei-biruz[13],
Təlimimi, təhsilimi, ey şux, diraz[14] et!
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

---

*Səməd Mənsurun bu şeirinə Ə. Vahidin eyniadlı təxmisi məşhurdur. *(bax: Azərbaycan sevgi poeziyası. Birinci kitab, Xəzər Universitəsi Nəşriyyatı, 2008; səh. 69-71).*
1. tövrlər, hallar, vəziyyətlər (ə.)
2. qaynat (Bakı ləhçəsi ilə)
3. dər=qapı(f.), nihan=gizli (f.)
4. açıq (f.)
5. tikanlı; zəlillik (f.)
6. ürəyi tam bürüyən mənasında (f.)
7. gecə-gündüz (ə., f.)
8. zaman; məc: dünya, təbiət; tale (ə.)
9. qəlbi yandıran, qəlbi atəşə salan, təsirli (f.)
10. aşiqlər (ə.)
11. ürək deşən, qəm gətirən (f.)
12. nida olunan, çağırılan (ə.)
13. qaranlıq, günsüz (f.)
14. uzun (f.)

Mahiyyətin əsrin nə bilir mərdümi-məsud.
Məsud olanın hər diləyi kəndinə mövcud,
Şeiri, qəzəli, musiqisi, qəlbi qəmalud[15],
Onlar da sanır hər üçünü kəndinə məbud[16].
Qoyma, gözəlim, mən olayım heykəli-bisud[17],
Mən əhli-qınayəm[18], məni yıx, əhli-niyaz et!
Naz et mənə, ey sevgili yarım, mənə naz et.

Hicranı sevən görməsin ömründə vüsali,
Firqətlə yanan yalnız olur mətləbə hali,
Təzyiqdədir fəzl, hünər, rəncü[19] məlali,
Məsud mənə, dilbər, o rəbbani cəmali,
Dindirmə məni, qeyriləri məhrəmi-raz[20] et!
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

---

15. qəmli (ə. + f.)
16. ibadət olunan, ibadətinə gəlinən (ə.)
17. qazancsız, faydasız, boş (f.)
18. ğina, qina, = sərvət, zənginlik (ə.)
19. zəhmət, əziyyət (f.)
20. sirdaş (ə. + f.)

İnsanlar hamı görmədiyi aləmi istər,
Sağlam ürəyin xəstə sanıb, mərhəmin istər,
Nəfsi, həvəsiyçün səni yox, həmdəmin istər,
Hər kəs özün istər, deyərəm xoş dəmin istər,
Mən istəmirəm vəslini, könlüm qəmin istər,
Mən söyləmərəm cövrü cəfanı mənə az et!
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

Eşqidir əzəldən yaradan kövnü məkani[21],
Dünya denilən əsgi binayə odu bani,
Kibrində, qürurunda rümuzati-məani[22],
Şairlərə cövrün veriyor təbi-rəvani,
Mənsurun əya, Tanrısı, ey sevgili cani,
Yax qəlbimi hicranın ilə, təbimi saz et!
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

21. aləm, kainat (ə.)
22. mənaların rəmzləri (ə.)

## Sən mənim olsan

Ey xilqəti-ruhaniyü, ey Kəbeyi-fikrət!
Hər kəs səni görsə doğulur onda məhəbbət.
Hər kəs edə bir an o dərin gözlərə diqqət,
Olmuş görəcək eşq rumuzati[1] kitabət.
Qurban sənə, ey sevgili, bu ömri-müvəqqət,
Rüxsarını[2] tədqiq eləyən əhli-bəsirət[3]
Əzbər qılacaq dildə bu bir beyti əlbət:
"Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi-rəna, üzü susən, mənim olsan!"

Derdim ki, daha eşq ola bilməz mənə rəhbər,
Məxmur[4] edəməz bu səri-piranəmi[5] sağər[6].
Gəncineyi[7] - eşq, ancaq olur gəncə müqəddər[8],
Sönmüş, soyumuş qəlb olamaz eşq ilə ənvər[9].
Qurmuş mənə eşqin bu gün ey məh, belə məhşər,
Kim qaynatıyor beynimi bir şöleyi-azər,
Dünyanı unutdum, mənə yalnız budur əzbər:
"Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi - rəna, üzü susən, mənim olsan!"

1. rəmzlər (ə.)
2. üz, çöhrə (f.)
3. gözüaçıq, diqqətli, dərrakəli (ə.)
4. məst, xumar (ə.)
5. qoca (f.)
6. qədəh (ə.)
7. xəzinə (f.)
8. təyin olunmuş; alın yazısı; deyilməmiş aydın olan (ə.)
9. çox parlaq, işıqlı (ə.)

Bir vəqt sanırdım özümü dəhrdə kamil,
Eşqin eləmiş indi məni hər şeyə cahil,
Bir seyl[10] kimi eşq sürüklər məni qafil,
Girdabi-məhəbbətdə görünməz mənə sahil.
Nə ərz[11], nə qərin[12] görürəm kəndimə hail[13],
Olmuş yenə eşqin eləmiş fikrimi zail.
Endirsə qəza zərbədə gər acilü acil –
"Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi-rəna, üzü susən, mənim olsan!"

Olmazmı müyəssər sənə bu naləvü əfğan?
Ey zülfü pərişan, səni etməzmi pərişan?
Bir gün olacaqmı səni görmək mənə asan?
Ya bir baxışın sineyi-məcruhimə[14] dərman?
Asari[15]-tərəhhüm[16] o cəbinində[17] nümayan[18] –
Olsun, mənə gəl könlüm evin eyləmə viran!
Basmış, bürümüş olsa bütün aləmi tufan,
"Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi-rəna, üzü süsən, mənim olsan!"

---

10. sel (ə.)
11. genişlik, vüsət; anlatma, xahiş (ə.)
12. yaxın, qohum, tay, yoldaş, dost, həyat yoldaşı (ə.)
13. maneə, əngəl; dəyişmiş (ə.)
14. yaralı (ə.)
15. əsərlər (ə.)
16. rəhm, acıma, yazığı gəlmə (ə.)
17. alın (ə.)
18. görünən; görkəmli

Bilməm nə şikayət eləyim nurdən, ey nur!
Ənvardə[19] nöqsan nərədən olmalı məqdur?[20]
Sanmam ki, gözəllikdi edən kəndini məğrur,
Vəziyyəti-hal etdi səni zalimü-məcbur.
Saldın nəzəri-mərhəmətindən məni sən dur,
Bir xoş baxışın etmədi bu qəlbimi məsrur.
Ey canlı çiçək, həqli deyilmi desə Mənsur:
"Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi-rəna, üzü süsən, mənim olsan!"

---

19.nurlar, işıqlar (ə.)
20.mümkün (ə.)

# Abdulla Şaiq
(1981-1959)

## Şikayətlərim

Yenə hər yanda hökm edir zülmət,
Yenə söndü o nazənin ülkər
Gecə-gündüz tapındığım dilbər,
Yenə qaldıq vüsalına həsrət.

Yenə dilsiz sükut içində bütün
Qaralır nur saçan düşüncələrim.
Ürəyimdə sönür o qüvvələrim,
Yenə hər şey qara, cahan küskün.

Yenicə uçmağa qanadlandım,
Onu zülm ilə qırdı bir səyyad.
Sızlaram, indi eylərəm fəryad
Nə qədər sadə idim, aldandım!

Sözümü dinlə, ey ulu qüdrət!
Bu qışı ya gözəl bahar eylə,
Ya məni gözsüz eylə, kar eylə,
Ya mənə ver yenilməyən qüvvət!

## O baxışlar

O hərarətlə sevdiyim gözünü
Yenə üç-dörd gün oldu görməyəli.
Görərəm hər çiçəkdə mən izini,
Qəlbimin ey sevimli, şah əməli!

Kim bilir, yollarında, ey rəna,
Yüzlər ilə boyun bükənlər var.
Ah, o göz tikdiyim baxışlarına
Neçə min başqa göz tikənlər var.

Kim bilir o xumar-xumar baxışın
Nə qədər ruha saplanıb qalmış.
O nəsim, o hava kimi axışın
Kim bilir, sevgilim, nələr çalmış?!

Səndə incə, sevimli, cazibədar
Bir baxış var ki, az gülər üzümə
Həm də şimşək kimi haman parlar,
Sönər artıq gəlincə mən özümə.

O baxışlarda çırpınan ürəyim
Diləyir gözlərindən hey imdad.
Qəlbimi aç, görərsən, ey diləyim,
Sızlayır hər telində min fəryad.

O baxışlarda sübhdən parlaq
Bir ziya var, büllurdan daha saf
O baxışlarda dalğadan oynaq
Bir şəfəq var ki, nurdan şəffaf!

Elə bir incə şeirsən ki, sana
Ürəyim ilk baxışda ovlandı.
Şairə can verən baxışlarına
Baxsana, sənətim də bağlandı.

## Şərq gözəlinə

Şəfəqlər sökərkən öpüşlərindən
Yaranmış ağ, incə yanağın sənin!
Çiçəklər açarkən gülüşlərindən
Doğmuşdur o qönçə dodağın sənin!

Göylərdə ulduzlar oynar, uçarkən,
Yamacda ceyranlar hürküb qaçarkən,
Qaranlıq gecələr sevda saçarkən,
Doğmuş zülfün, gözün, buxağın sənin!

O süzgün baxışlı, baygın gözlərin,
Can alıb, can verən çapğın gözlərin,
Könlümə salmış bir yangın gözlərin,
İki nur qaynağı çırağın sənin!

Hər səhər saçını nəsimlər darar,
Üzünü, gözünü şəfəqlər yuyar,
Alnını aydınlıq öpərək oxşar,
Gözəllik suyudur bulağın sənin.

Pərilərdən sordum – çiçək dedilər,
Çiçəklərdən sordum – mələk dedilər,
Ay, ulduz, ülkərdir gərək – dedilər,
Nəsən, heç verən yox sorağın sənin?!

## Gəldikcə o qəmzən quşu cövlanə, gülümsər!

Gəldikcə o qəmzən quşu cövlanə, gülümsər!
Göylərdə süzən qartala, tərlanə gülümsər.

Ürək baxışın, işvəli ceyranə verər dərs
Qönçə dodağın hər gül-xəndanə gülümsər.

Sən öylə ziya qaynağısan, ey gözəl afət,
Yandıqca o hüsnün şamı pərvanə gülümsər.

Eşqinlə könüllərdə doğan fırtına hər bir
Coşqun dənizə, dalğaya, tufanə gülümsər.

Aydan da, çiçəkdən də, xəyaldan da lətifsən
Röya görünən hüsnünə əfsanə gülümsər.

Ziynət nə gərək, hər bəzəyin ziynəti sənsən,
Öpdükcə qara tellərini şanə gülümsər.

Qəmzən yükünü çəkməyi gəl Şaiqə tapşır,
Gənc olsa da aldanma Süleymana[1], gülümsər!

---

1.Süleyman Rüstəm nəzərdə tutulur.

**Bir səhər dan yeri alarkən nəfəs**
O qumral saçına sən şana vurdun
Mən ceyran gözünə eylədim həvəs
Sən qoydun qəlbimi nişana, vurdun.
Başımdan ağlımı, huşumu aldın
Köksümdən qəlbimi, duyğumu çaldın
Canıma sönməyən bir yanğın saldın
O necə ox idi hər yana vurdun?!..

Köksümün içində tikdim bir qala,
Eşqimlə orada gəzdin qol-qola
Qəlbimin sazını sən çala-çala
Nə yaman od idi bu cana vurdun!

***"Qoçpolad" poemasından***

## Sevgi miniatürləri

**Gedişi köksümə çəkir odlu dağ**
Görüşü qəlbimdə yandırır çıraq.
Varlığım sarsılır onu görüncə,
Bu dilsiz sevgi, bu kədər, düşüncə
Qurd kimi gəmirir vurğun könlümü,
Sevgi yollarında yorğun könlümü.

***

**Qərb üfüqlərini bəzəyir Günəş,**
Yorulmaq bilməyir bu sönməz atəş.
Qürubun Günəşi oyadır sövda
Yoxsa qəlbim kimi vurğundur o da?

***

**Nazlı canana vurğunam mən də,**
Bu keçidlərdə yorğunam mən də!
Ölərəm, etmərəm xəyanət ona,
Diləyimdir mənim o nazlı sona.

***

**Günəş öz aləmində seyr edəli**
Görməmiş böylə nazənin gözəli.
Ah, bu əfsanəvi, gözəl ceyran
Mənə qismət olarsa, ey yaradan!
Çəkərəm əl bu şan, bu şövkətdən,
Dönmərəm bu sevimli afətdən.

***

**Yanağı gül, üzü cənnət bağıdır,**
Can alan gözləri ancaq yağıdır!
Canlı bir lövhəyə bənzər duruşu
Sərvdir, qonmuş ona sevgi quşu.

***

**Onun eşqilə ürəkdən yanıram,**
O pərini hamıdan qısqanıram.
Olmasaydı bu dərin sevgi, maraq,
Eşqinin qəsrinə basmazdım ayaq.
Sevgilim boynuma salmış zəncir,
Dara çəksə məni, etsə təhqir,
Can onundur, mənə çox minnəti var,
Mənə qismət olacaq sevgili yar!

# Məhəmmədhüseyn Şəhriyar
(1906-1988)

## Pərvanə və şəm

Bərq olmadı, qızım gecə yandırdı laləni,
Pərvanənin o dəmdə baxırdım ədasinə.

Gördüm təvafi[1] – Kəbədə yandıqca yalvarır,
Söylür: "dözüm nə qədər bu eşqin cəfasinə".

Ya bu hicab şişəni qaldır ki, savrulum,
Ya söndürüb bu fitnəni, batma əzasinə".[2]

Baxdım ki, şəm söylədi: "Ey eşqə müddəi[3]!
Aşiq haçan olub yenə öz müddəasinə?

Bir yari - məhliqadı bizi beylə yandıran,
Səbr eylə, yandıran da çatar öz cəzasinə".

Amma bu eşq atəşi ərşidi[4], candadır
Qoy yandırıb xodunı[5] yetirsin xudasinə.

---

1. Kəbə ətrafı dolanma – həcc mərasimi (ə.)
2. yas; cəfa, əziyyət; təsəlli (ə.)
3. iddia edən, iddialı; rəqib (məc.) (ə.)
4. göy, səma; fələk; taxt-tac (ə.)
5. xod=öz (f.)

## Behcətabad[1] xatirəsi

Ulduz sayaraq gözləmişəm hər gecə yarı,
Gec gəlmədədir yar yenə, olmuş gecə yarı.

Gözlər asılı, yox nə qaraltı, nə də bir səs,
Batmış qulağım gör nə döşürməkdədi darı.

Bir quş "ayığam" söyləyərək gahdan inildər,
Gahdan onu da, yel deyə laylay, huş aparı.

Yatmış hamı, bir Allah oyaqdı, daha bir mən,
Məndən aşağı kimsə yox, ondan da yuxarı.

Qorxum budu, yar gəlməyə birdən yarıla sübh,
Bağrım yarılar, sübhüm, açılma, səni tarı!

Dan ulduzu istər çıxa, göz yalvarı, çıxma!..
O çıxmasa da ulduzumun yoxdu çıxarı.

Gəlməz, tanıram baxtımı, indi ağarar sübh,
Qaş beylə ağardıqca, daha baş da ağarı.

1.Tehranda park və göl adı

Eşqin ki, qərarında vəfa olmayacaqmış,
Bilməm ki, təbiət niyə qoymuş bu qərarı?

Sanki xoruzun son banı xəncərdi soxuldu,
Sinəmdə ürək varsa, kəsib qırdı damarı.

Rişxəndilə qırcandı səhər, söylədi: – Durma,
Can qorxusu var eşqin, uduzdun bu qumarı.

Oldum qaragün ayrılalı o sarı teldən,
Bunca qara günlərdir edən rəngimi sarı.

Göz yaşları hər yerdən axarsa, məni tuşlar,
Dəryaya baxar, bəllidi, çayların axarı.

Əzbəs[1] məni yapraq kimi hicranla saraldıb,
Baxsan üzünə, sanki qızılgüldi, qızarı.

Mehrabi-şəfəqdə özümü səcdədə gördüm,
Qan içrə qəmim yox, üzüm olsun sənə sarı.

Eşqi var idi Şəhriyarın güllü, çiçəkli,
Əfsus, qara yel əsdi, xəzan oldu baharı.

---

1. o qədər ki (f.)

## Getmə, tərsa balası

İzn ver, toy gecəsi mən də sənə dayə gəlim,
Əl qatanda sənə məşşatə[1] təmaşayə gəlim".

Sən bu məhtab[2] gecəsi seyrə çıxan bir sərv ol,
İzn ver, mən də dalınca sürünüb sayə gəlim.

Mənə də baxdın o şəhla gözülə, mən qaragün
Cürətim olmadı bir kəlmə təmənnayə gəlim.

Mən cəhənnəmdə də baş yasdığa qoysam sən ilə,
Heç ayılmam ki, durub cənnəti-məvayə[3] gəlim.

Nənə qarnında da sənlə əkiz olsaydım əgər,
İstəməzdim doğulub bir də bu dünyayə gəlim.

Sən yatıb cənnəti röyada görəndə gecələr,
Mən də cənnətdə quş ollam ki, o röyayə gəlim.

---

1. gəlin və qızları bəzəndirən kəs (ə.)
2. ay işığı ilə aydınlanan gecə (f.)
3. yer, məskən, yurd (ə.)

Qıtlıq illər yağışıtək quruyub göz yaşımız,
Kuyi[4] – eşqində gərək bir də Müsəllayə[5] gəlim.

Sən də səhrayə marallar kimi bir çıx, nolu ki,
Mən də bir seydə[6] çıxanlar kimi səhrayə gəlim.

Allahından sən əgər qorxmayıb olsan tərsa,
Qorxuram mən də dönüb dini-Məsihayə gəlim.

Şeyx Sənan kimi donquz otarıb illərcə,
Səni bir görmək üçün Məbədi-tərsayə gəlim.

Yox, sənəm, anlamadım, anlamadım, haşa mən
Buraxım məscidimi, sənlə kəlisayə gəlim?

Gəl çıxaq Turi-təcəllayə[7], sən ol cilveyi-Tur,
Mən də Musa kimi, ol Turi-təcəllayə gəlim.

Şiridir Şəhriyarın şeiri, əlində şəmşir,
Kim deyər mən belə bir şir ilə dəvayə gəlim?

---

4. yer, yol, küçə (f.)
5. namaz qılmaq, dua oxumaq üçün xüsusi yer; yağış yağdırmaq üçün Allaha yalvarmaq mərasimi (ə.)
6. ov (ə.)
7. təzahür etmə, görünmə, əyan olma (ə.)

## Əzizə

Nə zərif bir gəlin, Əzizə, səni
Mənə layiq tanrım yaratmışdı.

Bir zərif ruhə bir zərif cismi
İzdivac qüdrətilə qatmışdı.

Eşqimin bülbülü səni tutmuş,
Hər nə dünyadə gül var, atmışdı.

Sanki dustaq ikən mən azad idim,
Elə eşqin məni yaşatmışdı.

Sevgilim sanki həmnəfəs olalı,
Qəfəsimdən məni çıxartmışdı.

Cənnət etmiş mənim cəhənnəmimi,
Yanmasın-yaxmasın azatmışdı.

Qara gün qarqası qonanda mənim
Ağ günüm varsa da, qaratmışdı.

Adıbatmış əcəl gələndə bizə,
Mən ayım çıxdı, Gün də batmışdı.

Saralıb gün şəfəqdə qan çanağın
Qorxudan tirəyib[1] calatmışdı.

Qara bayquş çalanda ağ quşumu,
Zəfərantək məni saratmışdı.

Kor qəza öz yolun gedən vaxtda
Çarənin yolların daratmışdı.

Nə qədər ovdum, açmadın gözüvü,
Göz sükuti-əbədlə yatmışdı.

O ala göz oyanmadı ki, mənim
Bəxtimi min kərə oyatmışdı.

Daha kirpiklərin olub neştər,
Yaramın közməsin qanatmışdı.

---

1. xarab, pis; qara, qaranlıq, tutqun (f.)

Səni verdim Behişti-Zəhrayə,
Mənə Mövla əlin uzatmışdı.

Sən nə yaxşı eşitmədin, balalar
"Ana vay" naləsin ucatmışdı.

Ürəgi doğranan anan məlidi,
Dünya zəhrin ona yalatmışdı.

Sən bahar etdiyin çəməndə xəzan
Hər nə gül-qönçə var sozatmışdı.

Nə yaman yerdə köçdü karvanımız,
Nə yeyin yük-yapın da çatmışdı?!

Qırxa sən yetmədin, cavan getdin,
Mən gedəydim ki, yeddim altmışdı.

Qoca vəqtimdə bu qara bəxtim
Məni qultək bəlayə satmışdı.

## Yar qasidi

Sən yarımın qasidisən,
Əyləş, sənə çay demişəm.
Xəyalını göndəribdir,
Bəs ki, mən "ax-vay" demişəm.
Ax! Gecələr yatmamışam
Mən sənə lay-lay demişəm.
Sən yatalı, mən gözümə
"Ulduzları say" demişəm.
Hər kəs sənə "ulduz" deyə
Özüm sənə "Ay" demişəm.
Səndən sonra həyata mən
Şirindisə, zay demişəm.
Hər gözəldən bir gül alıb,
Sən gözələ pay demişəm.
Sənin Güntək batmağıvı
Ay batana tay demişəm.
İndi yaya qış deyirəm,
Sabiq qışa yay demişəm.
Gah toyuvu yadə salıb
Mən dəli "nay-nay" demişəm.
Sonra yenə yasə batıb,
Ağları hay-hay demişəm!
Ətək dolu dərya kimi
Göz yaşıma çay demişəm.
Ömrə sürən mən qərəgün
Ax demişəm, vay demişəm!

## Bəlalı baş

Yar günümü göy əskiyə tutdu ki, dur, məni boşa,
Cütçü görübsən öküzə öküz qoyub buzov qoşa?

Sən əllini keçib yaşın, mən bir otuz yaşında qız,
Söylə görüm, otuz yaşın nə nisbəti əlli yaşa?

Sən yerə qoydun başıvı, mən başıma nə daş salım?
Bəlkə mən artıq yaşadım, neyləməli? Dedim: yaşa!

Bir də bəlalı baş neçin yanına süpürgə bağlasın?
Börkü başa qoyan gərək börkünə də bir yaraşa.

Bir də kəbin kəsilməmiş sən mənə bir söz demədin,
Yoxsa cəhazımda gərək gəleydi bir hoqqa-maşa.

Dedim: qəza gəlib tapıb, bir iş idi, olub keçib,
Qurbanam ol ala gözə, heyranam ol qələm qaşa.

Mən ki özümdə bir günah görməyirəm, çarə nədir?
Pis bəşərin qaydasıdır, yaxşını tapsa dolaşa.

Dostla mürüvvət etməli, düşmən ilə keçinməli,
Qayda budur, heyif deyil bəşər yolun azıb çaşa?

Mən də sənin dayoğluvam, sən də mənim bibimqızı,
Könül baxırsa Günəşə, göz də gərəkdir qamaşa.

İndi bizim maral kimi üç balamız vardı, gərək,
Ata-ana savaşsa da, bunlara xatir barışa.

Hər kişiyə əyalı da öz canıtək hörüklənib,
Hədyə də olmaz eləsin arvadı qardaş-qardaşa.

Bu dünya bir yol kimidir, biz axirət müsafiri,
Gəcavədə hamaş[1] gərək öz hamaşilən yanaşa.

Axirəti olanların dünyası qəmsiz olmayıb,
Seldi, gələr, axar, keçər, amma gərək aşıb-daşa.

Məsəldi: "Yer ki, bərk olur, öküz öküzdən inciyir".
Hey dartılır ipin qıra, yoldaşıyla bərk savaşa.

Bizim də ruzigarımız yamandı, bizdə eyb yox,
Bəlkə vəzifədir, bəşər qonşular ilən qonuşa.

Həqqi-həyat yox daha bizlərə, çox böyük başı
Zindanımızda həqqimiz, bir baca tapsaq, tamaşa.

Amma onun şəmatəti[2], Allaha xoş gəlmiyibən
Getdi, mənim həyatımı vurdu daşa, çıxdı başa!

---

1. yoldaş, həmkar, yanaşı olan (f.)
2. bədxahlıq, başqasının bədbəxtliyinə sevinmək (ə.)

## Bayatılar

Xəzan gəldi gül apardı
Bir şeyda bülbül apardı
Yanmışdım mən, kül olmuşdum
Yel də gəldi kül apardı.

Üzdüm əl bir nazlı yardan
Gözəl üzlü gülüzardan
Sevgilimtək bir cəvahir
Bir də dönməz ruzigardan.

Yar hər yerə mənnən getdi
Əcəl gəlcək onnan getdi
Dayan, gəlim yola salım
Xoş günüm də sənnən getdi.

Əlim getdi, ölüm qaldı
Alovlandım, külüm qaldı
Uçurdu bülbülüm bağdan
Deyəydi bir gülüm qaldı.

Yarı kaş görmiyeydim
Vəsli xoş görmiyeydim
Öləydim yardan qabaq
Yerin boş görmiyeydim.

# Əhməd Cəmil
(1913-1977)

## Gecə dəniz qərq olar

Gecə dəniz qərq olar
Ayın pul-pul zərində...
Sevgililər oturar
qayalar üzərində.

Bir axan ulduz yazar
eşqinin son sətrini...
İlk sevənlər ilk duyar
ilk baharın ətrini.

Bulud keçər, ay batar,
ulduzlar sönər qoşa...
Bir cığır tutub gedər
iki kölgə baş-başa.

Elə ki, yağış yağar,
üşüyər, islanar gül,
Bir budağın altına
sığınar iki könül.

## Məni yada salırmı?

Ocaq sönür, yel əsir, yağış döyür səngəri...
Yenə düşür yadıma ömrün ötən günləri.
Hanı, hanı deyirəm, o dilimin əzbəri?
İlk görüş, son ayrılıq xatırında qalırmı?
Görəsən, o gözəl qız məni yada salırmı?

Ötən bulud, uçan quş! Mən burda, yar vətəndə...
Bəlkə düşdü yolunuz bir gün bizim də kəndə.
Görün, bağa-eyvana sərin kölgə düşəndə
O qız yenə oxuyub şən mahnılar çalırmı?
Görün, hər nəğməsində məni yada salırmı?

Nə mən ürək edirəm yazım ona bir kağız,
Nə də mənə yazmayır o şən, o mehriban qız.
Bir biləydim, görəydim neyləyir indi yalqız?
O da məni düşünüb heç xəyala dalırmı?
Görəsən, o gözəl qız məni yada salırmı?

Doğrudur, bilmək olmaz könülləri uzaqdan,
Hər gün vurub salır yel bir yarpağı budaqdan...
Mənsiz su dolduranda hər dan üzü bulaqdan,
Bəzən heç doluxsunur, heç qanı qaralırmı?
Görəsən, o gözəl qız məni yada salırmı?

Yan, tonqalım, tüstülən... Yan könlümtək, ey ocaq!
İki kəlmə yazmağa mən üzsüz, yar utancaq...
Heç olmasa, yazaydı o qız bircə söz ancaq,
Görəydim, soraq edib məni xəbər alırmı?
Biləydim, o gözəl qız məni yada salırmı?!

# Sevgi miniatürləri

**Bax, könlüm bir sazdır... İstəyirsən al,**
Ya onu mehriban ruhunla dindir;
Ya da istəyirsən –
daşdan-daşa çal...
Nə deyim? Özün bil,
könlüm sənindir!

***

**Bütün ulduzların parıltısında**
Əlçatmaz bir eşqin şikayəti var.
Bütün bulaqların şırıltısında
Ötən bir sevdanın hekayəti var.

***

**Ağlama... Sızlayar qəlbimin simi,**
Ağlama, qar yağar ilk baharıma.
Bax, bir yol ağladın... ağlayan kimi
Axdı göz yaşların misralarıma.

Ağlama... həmişə başını dik tut,
Hələ qabaqdadır səadətimiz.
Küsməyi, möhnəti, dərd-qəmi unut,
Sevinclə gül açsın məhəbbətimiz!

***

**Mən ki boy - buxunlu, qəşəng deyiləm,**
Göyçəklər içində göyçək deyiləm,
Dağlarda boy atmış çiçək deyiləm,
Niyə məni tutub gözü - bilmirəm?!

Yox, ürək bənzəməz çiçəyə, gülə;
O istər sabahı bu gündən bilə...
Məni axıradək sevəcək belə,
Yoxsa ki, dönəcək üzü - bilmirəm?!

***

**Ruhumu, qəlbimi çəksən də zilə,**
Bircə o mahnını gətirmə dilə.
Əsdirmə son bahar küləklərini,
Soldurma arzumun çiçəklərini,
Sındırma könlümün budaqlarını,
Tökdürmə eşqimin yarpaqlarını.

***

**Qəlbimi heç kəsə aça bilmədim,**
Tək ona isnişdi, qızındı könlüm.
Qızların dalınca qaça bilmədim,
Duydum o mehriban qızındı könlüm.

Ona ürəyimi möhkəm bağladım,
Odur həyatımın sevinci, qəmi.
Onu göz üstündə əziz saxladım,
Başlandı ömrümün yeni aləmi.

# Həmid Nutqi*

(1920-1999)

## Sənsiz

Gözümü açanda sən olmayınca
Qolların boynuma sarılmayınca
Gözündən könlümə nur dolmayınca
Neylirəm üfüqdə çıxan səhəri,
Boş yerə camlardan baxan səhəri?!

Baharın ətrisən, yayın yemişi
Arının pətəyi, gülün gülüşü
Xəzəlin qızılı, qarın gümüşü
Qaranlıqda axan ulduzlar seli
Könlü qımıldadan arzular yeli.

Həyatın sənsiz yox heç duzu, dadı
Varlığın dəyərli qalmaz bir zadı
Qırılar nəşənin qolu, qanadı
Dünyanı versələr səni verməərəm
Boş qalan bir ömrü dəxi neylərəm.

* Nitqi, Nutku

## Fal

Öpüşlərində saxlanan sirri
Dodaqlarından öyrənəcəyəm.
Kiçik və yumşaq
Quş balasıtək qorxaq əlini
Ovuclarımda oxşayacağam.

Sənin ətrinlə sərxoş,
Göylərdə qanad çalaraq
Dan ulduzuna yol açacağam.

Eşq lay-layının şirin yuxusun
Bir gün səninlə bölüşəcəyəm.

Sən bir çiçəksən
Səni iyləyib öpüb
Nəhayət sevgi falında
“Sevirmi, sevməyirmi?”
Deyərək birər-birər
Gül yarpaqlarını qopardacağam
Və səni görkəmli çılpaqlığında
Sonsuza qədər seyr edəcəyəm.

## Divan şeiri bağçalarında

Şerin sehirli zövqünə daldım bütün gecə
Seyr eylədim o sirli dünyanı gizlicə.

Gördüm ki bağçalarda qurulmuş büsatlar
Aşiq bir əldə badə və bir əldə zülfi-yar.

Məsti-vüsal ikən ğəmi-hicranla ağlayır
Saz səsləriylə çalxalanır çöl, çəmən, çayır.

Hər gözdə sevgi, dildə gözəl söz, ürəkdə suz[1]
Eşq atəşiylə lalə alışmış yanır hənüz.

Təkrar olur şirin-şirin ol sevgi qissəsi[2]
Dağlarda əksdir hələ Fərhadların səsi.

Məcnun şərabi eşqdə röyasın axtarır
Çöl-çöl gəzir, itirdiyi Leylasın axtarır

Şair də bir kənarda düşünməktədir həzin
"Sad" gözlü, "mim" ağızlı, "əlif" boylu[3] dilbərin.

---

1. atəş, hərarət; məc: kədər, qəm, qüssə (f.)
2. hekayə, əhvalat (ə.)
3. (ərəb əlifbası hərflərinin yazılışına görə poetik bənzətmələr)

## Əllərində ulduzlar

Hanı hərdən gələrdin
Başım üstdə durardın
Əllərində ulduzlar
Qucağında mahnılar
Gözlərində ilkbahar?!
Sərin mavi səhərdə
Günaydın! Şairim, qalx,
Ətrafa bax, deyərdin
Halımı soruşardın.

Sən gələndə könlümdə
Qalaq-qalaq qalanmış
Buzlar da əriyərdi
Pəltək dilim açılar
Qaranlıqlar gedərdi.
Dərya-dərya dərdimi
O anda unudardım,
İçimdə dalğalanan
Diləklərə dalardım.
Səni görüncə köksüm
İlhamlarla dolardı.

Ruhumu saran duman
Günəşində yox olar
Üfüqlərim açılar
Dəli könlüm coşaraq
Ayrılığı, ölümü
Yadımdan çıxarırdı...

Yalvarıram, nə olar
Məni artıq unutma,
Tək başıma buraxma.
Nura möhtacam, möhtac!
Məni üz-üstü qoyma
Qaranlıqlarda tutma.
Qısırlıq çox yamandır
Gəl, sevgili, amandır.

## Sevda

Sevda deyil, bəs bu nədir
Daş qəlbinə Kəbə deməm?
Yalın ayaq yana-yana
Yanğın yerində yeriməm?

Üzüb əli əldən-gündən
Üzülüb qəhrin üzündən
Üzünə həsrət qaldığım?

Bir kor ulduzun izində
Üfüqlərinə daldığım?
Uçub arzu qanadıyla
Göylərdə havalandığım?

Xəyalımda gül sinəndən
Əmizdirilib də qandığım?
Şirin-şirin yuxulardan
Ağlayaraq oyandığım?

Gözlərinin dənizində
Yelkənlər açıb getdiyim?
Çıxmaz yollarda avarə
Getdikcə azıb itdiyim?

Saçlarının gecəsində
Röyalar qurub yatdığım?
Qəhrini lütf, zəhrini qənd adlandırıb
Öz özümü aldatdığım?

Hilal qaşın çatılanda
Göylərimdə Günəş solur
Kəhkəşanlarım yıxılır
Başıma saman sovrulur.

Yalanına ən müqəddəs
Gerçək kimi inanıram
Sevda deyil bəs bu nədir?
Allarını[1] bilə-bilə
Yenə sənə aldanıram.

---

1. hiylələrini

## Sevgi miniatürləri

**Məğribdə sönən Günəş saraldı, gözəlim**
Artıq gecə gəldi, qaş qaraldı, gözəlim
Gəl, halımı gör, durub da gendən baxma
Fürsət daha yox, zaman daraldı, gözəlim

***

**Şəhərdə küy düşüp: nazlı yar gəlir**
Bir ömür yubanan dildar gəlir
Qorxuram yenə də xəbər boş çıxa
Eşşəyim, ölmə, qal, ilk bahar gəlir!

# Ənvər Əlibəyli
(1916-1968)

## Gəlmədin

Axar sular dayandı,
Qəlbim həsrətlə yandı,
Rəyin niyə dolandı
İlk görüşə gəlmədin?

Könlümdə xoş umuddun,
Atəşdim, sən soyutdun.
Öz vədini unutdun,
İlk görüşə gəlmədin.

Gün batdı, qaş qaraldı,
Qəlbimi qüssə aldı.
Gözüm yollarda qaldı,
İlk görüşə gəlmədin.

## Qoşa vuracaqdır ürəklərimiz

Mən səni özümə həmdəm sanıram,
Eşqinin oduyla alovlanıram,
Gecə də, gündüz də səni anıram.
Çıxmayır yadımdan ala gözlərin,
Şirin söhbətlərin, şirin sözlərin.

Sən mənim könlümdə xoş bir umudsan,
Ah, mən neyləyərəm məni unutsan!
Sinəm bir atəşdir, onu soyutsan,
Od dolu ürəyim sönər, qaralar,
Çiçəkli ömrümü boran, qar alar.

Neçindir, bilmirəm, bu qorxu, təlaş,
Atarmı yoldaşı, vəfalı yoldaş?
Ömür yollarında ağartsaq da baş,
Yenə də birlikdə olacağıq biz.
Qoşa vuracaqdır ürəklərimiz!

## Yar incidi

Boynundakı incidi,
Örpəyi narıncıdı.
Vədə verdi gəlmədi,
Bəlkə də yar incidi.

Yar məndən incidi,
Bəs niyə incidi?
Görüşü könlümün
İlk sevincidi.

Sözümü gözlə deyim
Bir qədər gözlə deyim,
Getdi gözüm qarası,
Gəlmədi gözlədiyim.

Ürəyimi biləydi,
Danışaydı, güləydi.
Vədə verdi gəlmədi,
Barı yola gələydi.

## Demişdin yaz gəlsin...

Demişdin yaz gəlsin, yaz gəldi, ay qız,
Söyüdlər sulara kölgələr saldı.
Çiçəklər açıldı, göyərdi yarpız,
Verdiyin vədələr bəs harda qaldı?

Yaz qurtarır artıq, dinmirsən nədən?
Axı, söz vermişdin, ilqarımız var.
Dözə bilməyirəm, tələsirəm mən,
Sevindir qəlbimi, sən ey gözəl yar.

Verdiyin vədəyə əməl et barı,
Birləşsin arzumuz, ürəklərimiz.
Hiss et qəlbimdəki bu duyğuları,
Payızda eyləyək toyumuzu biz.

## Söz olmasaydı

Dağlarda duman gözəldir,
Qaşları kaman gözəldir.
Hüsnünə heç bir söz olmaz,
Gözlərin yaman gözəldir.

Ağlımı alıbdı başdan
Keçmək olmaz bu göz-qaşdan,
Səni mən yaman sevirəm,
Ürəkdən, candan sevirəm.
Mənə gəl eylə vəfa, yar,
Aşiqə etmə cəfa, yar.

Söyüdlər başın əyəndə,
Sənə mən yarım deyəndə
Sanıram dünya mənimdir
Gözünə gözüm dəyəndə.

Bu qara göz olmasaydı,
Əhdimiz düz olmasaydı
Sənə heç könül verərdim
Sözümüz söz olmasaydı?

## Qızlar mahnısı

Çıxdı gün, gül oyandı,
Hər tərəf al boyandı,
Dərdimdən neçə oğlan
Yanar oda qalandı.

Mən güləm, gül üzüm
Belə heç zaman solmaz,
Mənim kimi gözəli
Belə sevməmək olmaz.

Dağlarda qar sevərlər,
Ağacda bar sevərlər.
Özünə çox güvənmə,
Üstünə yar sevərlər.

Dağ döşündən aşıram,
Küsmüşəm barışmıram.
Hamıdan göyçək mənəm,
Lakin heç danışmıram.

## Bahar olsun

O qara gözünə heyranam mən,
O şirin sözünə qurbanam mən.
Gəl mənə könlünü bir yol aç,
Gün kimi üstümə şəfəq saç.

Mən gülüm, gülsün çəmənlər,
Ay ceyran sevgilim!
Qoy açsın güllər-gülşənlər,
Mehriban sevgilim!
Sevinsin qəlbdən sevənlər,
Hər zaman sevgilim!
Ömrümüz xəzan bilməz bahar olsun.

Mən səni hər zaman anaram, yar,
Eşqində od tutub yanaram, yar,
Dünyada səadət var olsun,
Yaşasın məhəbbət, var olsun!

## Niyə sevdim mən səni?

Niyə sevdim mən səni,
Niyə vuruldum sənə?
Özüm də bilmirəm heç,
Nəyin xoş gəldi mənə?
Deyim - qara qaşların,
Qara gözlərin oldu
Qırmızı yanaqların,
Şirin sözlərin oldu –
Düz olmaz, axı səndən
Qara gözlülər də var
Qırmızı yanaqlılar,
Şirin sözlülər də var.

Bəs qəlbini qəlbimə
Bağlayan nə oldu, qız?!
Bu suala bir cavab
Verə bilərəm yalnız:
Səni mənə bağlayan
Düz söz, düz ilqar oldu.
Təmiz məhəbbətimiz,
Bir də etibar oldu.

Niyə sevdim mən səni,
Niyə vuruldum sənə?
İndi bildinmi, ay qız,
Nəyin xoş gəldi mənə?!

## Sevgi miniatürləri

**Alagöz, Zibeydə, sən qəşəngsən, qəşəng**
Həsrətin qəlbimi yandırır, ay mələk.
Sənin mən hicrinə dözmərəm,
Səndən mən əlimi üzmərəm.

Alagöz, şirin söz Zibeydə,
Mən sənə yalvarıram
Dərdindən heyvatək saraldım
Gəl mənə, yalvarıram.

Yaz gəlib, hər yana gül açmışdır çəmən,
Bənövşətək boynum əyilmişdir qəmdən.
Sənin mən hicrinə dözmərəm,
Səndən mən əlimi üzmərəm.

***

**Sən mənə bir qəşəng gül verdin bu gün**
Qalmadı nə qüssəm, nə də ki, dərdim
O gülün yerinə mən sənə, ay qız,
Məhəbbətlə dolu qəlbimi verdim.

Sevgilim, sevgilim,
Könlümün səsinə cavab ver mənim.

Gəl çıxaq sahilə bu axşam yenə
Saçını darasın qoy sərin külək.
Mən gülü neylərəm, könül ver mənə
Sevinsin sinəmdə çırpınan ürək.

***

**Sözlərimdə Günəş kimi yüksəlməsəydin**
Eşqimizin ilk baharı vaxtsız solardı
Əgər bu gün bu görüşə sən gəlməsəydin
Yer üzündə bir səadət əksik olardı...

***

**İlk dəfə görmüşəm səni mən**
Sahildə, sevgilim.
O vaxtdan getməyir gözümdən
Xəyalın, ey gülüm.

Yadımda qaldı gül camalın,
Canımı aldı şux calalın,
Odlara saldı, yar, xəyalın məni.

Biz gəzən bağçada o səhər
Əsirdi küləklər,
Heç olmaz hüsnünə bərabər
Ətirli çiçəklər.

# Zeynal Cabbarzadə

(1920-1977)

## Alagöz

Düşər üzdə xala göz,
Şirin canım, alagöz.
Qara gözə can qurban.
Yaman olur alagöz.

Bülbül gələr yaz ilə,
Yarım oynar saz ilə.
Hər baxanda naz ilə,
Ürəyimi çala göz.

Yar bağını gəzərəm,
Güllərini üzərəm.
Hər dərdinə dözərəm,
Mənim ola alagöz.

## Axşam mahnısı

Qaş qaralır, kölgə tutur
Yavaş-yavaş meşəni.
Könlüm səsdə, gözüm yolda
Gözləyirəm mən səni.

Səbrim getdi, harda qaldı
Qaş qaraldı gəlməyir,
Bəlkə mənim könlümdəki
Döyüntünü bilməyir?!

Suya düşür budur yaşıl
Yarpaqların kölgəsi.
Ürəyimdən xəbər verir
Ötən quşların səsi.

Aydın göylər, uca dağlar,
Göy meşələr, lal sular
Sizi gördüm ürəyimdə
Aşdı-daşdı arzular.

# İntizar

Su atıb döndüm evə
Sən yola düşdün
"Tez qayıdıb gələrəm,
Gözlə" demişdin.

Söhbətim, sazım
Baharım, yazım
Tez qayıt ürəyimdə
Qalmasın arzum.

Gecələr min xəyala
Dalıram sənsiz
Sazımı sevə-sevə
Çalıram sənsiz.

Evimiz, eyvanımız
Olmasın sənsiz
Tez qayıt, güllərimiz
Solmasın sənsiz.

## Göz görüb

Ay qara gözün badamı,*
Ay tora salır adamı.
Çağırıram, yar, səni,
Ay eşitmirsən sədamı.

Gəl mənə baxma naz ilə,
Dindirmə acı söz ilə,
Özgəsinə baxmaram,
Ay dünya dolsa qız ilə.

Göz görüb ürək vurulub,
Ay dərya könlüm durulub.
Ay min il çəkər nazını
Zeynal heç deməz yorulub.

---

* Bu şeirdəki "Ay" ifadəsi, təbii ki, mahni əlamətidir. Şeir bu ifadəsiz də oxuna bilər.

## Əziz surət

Mən qəlbimi hər gözələ vermərəm, inan.
Mən hər gülü, hər çiçəyi dərmərəm, inan.

Səni, təkcə səni sevdim
Ömrüm baharında mən.
İnan eşqimə, gözəl yar,
Düzəm ilqarımda mən.

Hər yanda bax gül açılıb, gəl, gözəl pəri.
Olmuş adın el içində dillər əzbəri.

Gözəl,* olma məndən ayrı
Ürəyimdə var yerin.
Çıxmır xatirimdən bir an
Sənin qara gözlərin.

Mən qəlbimi hər gözələ vermərəm, inan.
Mən hər gülü, hər çiçəyi dərmərəm, inan.

Gözlərim görüb, gözəl yar,
Ürəyim sevib səni
Sevmirəm mən öz gülümdən,
Gözəlimdən özgəni.

---

* Bu sözün əvəzinə "Aman" kəlməsi işlədilən variant da mövcuddur.

## İlk bahar

Yenə gəldi ilk bahar, yaz gülə-gülə
Bu qədər gəl etmə, yar, naz gülə-gülə
Səni sevdim qəlbimlə, ey gözəl pəri
Mənə söylə bir şirin söz gülə-gülə.

Mən aşiq bəndəm gülə,
Bülbüləm bəndəm gülə
Xəstəyəm qalıb ələcım
Bir şirin dilə.

Sevən aşiq, a gülüm, görməz dünyanı
Qara qaşın, ağ üzün olum qurbanı.
Niyə məndən gizlədirsən eşqini sən?

Mən aşiq bəndəm gülə,
Bülbüləm bəndəm gülə
Xəstəyəm qalıb ələcım
Bir şirin dilə.

Açılıb hər yan çiçək, bax gözəl-gözəl
Telinə əlvan çiçək tax gözəl-gözəl
Yanıram hicrinlə mən, dön sərin suya
Ürəyimə sel kimi ax gözəl-gözəl.

Cavan ömrüm şad olar, səslər hər yanı
Qara qaşın, ağ üzün olum qurbanı.
Niyə məndən gizlədirsən eşqini sən?

Mən aşiq gələr yarım,
Dərdimi bilər yarım
İnanıram dərmanımı
Eyləyər yarım.

## Lirik mahnı

Süzə-süzə gəzdim bu elləri
Telə-telə düzdüm mən gülləri.
Baxa-baxa yollara
Axtarıram yarı mən.
Şirin sözüm gəlmədi,
İki gözüm gəlmədi.
Könül verib sevdiyim,
Harda qaldın gəlmədin?
İlk bahar gəldi,
Durnalar gəldi,
Bircə sən gəlib çıxmadın,
Harda qalmısan?

Dağa-daşa düşdü gün işığı
Mən olmuşam, ay aman, yar aşiqi.
Dərə-dərə gülləri
Dolaşıram elləri.
Qızıl gülüm solmasın
Sənsiz günüm olmasın.
Gözəlisən ellərin,
Əzbərisən dillərin.
Gəlməsən, ay aman,
Bilməsən, ay aman
Könlümün közü alışar
Yandırar məni.

# Nə olar?[1]

Sən ey könlümün dostu, sirdaşı,
Niyə[2] küsürsən hər qədəm başı?
Gəl, ətəyindən, gözəl, tök daşı[3].
Mənim öz gülümsən,
Şeyda bülbülümsən,
Nə olar bir yol üzümə gülsən?

Azərbaycanın[4] çoxdur gözəli,
Maral baxışlı[5], sözü məzəli,
Sən mənim yarım, ilkim, əzəlim[6].
Mənim öz gülümsən,
Şeyda bülbülümsən,
Nə olar bir yol üzümə gülsən?

Hər görən deyir[7] Ceyrandır sənə,
Bütün bu aləm heyrandır sənə,
Zeynalın canı qurbandır sənə.[8]
Mənim öz gülümsən,
Şeyda bülbülümsən,
Nə olar bir yol üzümə gülsən?

---

1.Mahnı variantı "Şeyda bülbülümsən" kimi tanınır.
2. "nə üçün"
3. "süzülür gözlərin, çatılır qaşın"
4. "Azərbaycanımın"
5. "ey maral baxışlı"
6. "sən mənim ilk eşqim, sevgim, əzəlim"
7. "söyləyir"
8. "qorxuram göz dəyər, amandır, sənə"

## Sən mənim, mən sənin!

Qara gözün aldı canım, aldı canım,*
Qəlbimdədir arzu, kamım, arzu, kamım.
Gözəllərə naz yaraşır, naz yaraşır,
Vüsalına var gümanım, var gümanım.
Gül, gözəl,
Bil, gözəl
Sən mənim,
Mən sənin.

Gəzdim Azərbaycanı
Tapdım sənin kimi ceyranı.
Gəl mənə naz eyləmə
Olum gözlərinin qurbanı.
Gül, gözəl,
Bil, gözəl
Sən mənim,
Mən sənin.

---

* Təkrarlar mahnı əlamətidir

Ətirli güllər üzərəm, üzərəm mən.
Tellərini mən bəzərəm, bəzərəm mən.
Sən elimin göyçəyisən, göyçəyisən.
Hər dərdinə mən dözərəm, dözərəm mən.
Gül, gözəl,
Bil, gözəl,
Sən mənim,
Mən sənin.

Gəzdim Azərbaycanı
Tapdım sənin kimi ceyranı.
Gəl mənə naz eyləmə
Olum gözlərinin qurbanı.
Gül, gözəlim,
Bil, gözəlim,
Sən mənim,
Mən sənin.

## Dedim, dedi

Söylədim: ay qız,
Sən göydə saysız
Yanan ulduzun
Birisən.
Söylədi: oğlan,
Dillisən yaman,
Nə olar bir an
Kirisən?

Yalvardım yara,
İstədim çara,
Süzüldü qara
Gözləri.
Güldü dodağı,
Məcnun sayağı –
Dedi – gəzirsən
düzləri.

Dedim: nə olar,
Ey gözü xumar,
Könlünü mənə
Açasan?
Güldü gözündən,
Dedi: - sözündən
Qorxuram birdən
Qaçasan.

Ömrümün yazı,
Gəl burax nazı,
Qaldım tamarzı,
Üzünə.
Sözümü kəsdi,
Söylədi: - Bəsdi!
İnandım indi
Sözünə.

## Neyləsin?

Qış qurtarar, yay olar,
Oğlan qıza tay olar,
Yar-yarı gözləyəndə
Bir günü bir ay olar –
Gözləməsin neyləsin?

Oğlan qıza söz deyər
Hər nə desə düz deyər
Qız oğlana "döz" deyər –
Gözləməsin neyləsin?

Qaş qaralar, şam yanar,
Dərsdədir gül üzlü yar,
Oğlan dözər, dayanar –
Gözləməsin, neyləsin?

Elçi göndərər qıza,
Ürəyi dönər buza,
Toyu qalar payıza –
Gözləməsin neyləsin?

## Ay qız

Dünən qapınızdan sözlü, fikirli
Boylana-boylana keçmişəm, ay qız.
Gözəllər içində bir səni görmüş,
Sevib bəyənmişəm, seçmişəm, ay qız.

A saçı burma –
Uzaqda durma,
Min yara vurma
Gəl ürəyimə!
Sən ki, qanansan,
Dərdə yanansan,
Nolar inansan
Xoş diləyimə?!

Sevişmək elimdə deyil qadağa,
Canımı eylərəm eşqə sadağa,
Bu gözəl dövrana, bu gözəl çağa,
Şirin növrağa and içmişəm, ay qız.

Yurdumuz, elimiz olub tamaşa,
Hər arzu, hər dilək tez yetir başa,
Gəl sevib, sevilək biz qoşa-qoşa,
Bu gözəl xəyala düşmüşəm, ay qız.

## Tez gəl

Yenə göy üzünü bulud aldı, yar,
Ah, niyə gəlmədin, harda qaldın?
Gözümü yolda qoyub bir yubanan yar, nə edim?
Gözümü yolda qoyub bir yubanan yar.

Ah! Baxmıram yağışa,
Gedirəm o başa,
Gəlirəm bu başa.
Ah! Baxırsan yağışa,
Bəlkə də başını
Atırsan balışa.
Gülüm, harda qaldın?
Qaş qaraldı.
Gözümü yolda qoyub bir yubanan yar.

Yar gəlir görüşə, gözüm aydın, yar.
Sürüşə-sürüşə, gözüm aydın.
İslanıb üstü-başı yaz yağışından yarımın,
Tökülür bir can alan naz baxışından.

Ah! Qurbanam nazına,
Yurdumun qızına,
Qışına, yazına.
Ah! Bal kimi sözünə,
Qap-qara gözünə,
Ay kimi üzünə.
Gülüm, xoş gəlmisən,
Mənimkisən.
Gün batıb, qaş qaralıb,
Gəl, görüşə tez, gözəlim.
Gün batıb, qaş qaralıb,
Gəl, gözəlim, gəl.

## Gözəllər

Gözəllər dəstə-dəstə,
Gözəllər qatar-qatar...
Gözəllər o qədər ki,
Onları nə yer tutar,
Onları nə göy tutar!

Bakımın sinəsində
Açan yaşıl, qırmızı
Çiçəyə bax, gülə bax!
Nə yamandır, a dostlar
İlin bu vədəsində,
Günün bu vədəsində
Yaşa dolub qocalmaq!

Səslər axır könlümə
Səp-sərin sular kimi,
Səslər uçurdur məni
Şirin arzular kimi.
Səslər tutur qolumdan
Sanki mənə "qalx!" deyir,
Gözəllər dəstə-dəstə,
Gözəllər qatar-qatar
– "Olmaz qocalmaq!" – deyir.

Olmaz deyir, olmasın!
Qoşulum bu gəncliyə,
Mən də cavanam deyə:
Qaçsalar, qaçım gərək,
Uçsalar, uçum gərək,
Göydə ayı, ulduzu,
Qucsalar, qucum gərək!
Bu işin, bu surətin,
Bilirəm ki, çox çətin
Dərəsi var, dağı var,
Yolda yorulmağı var,
Dözərəm!
Dəryalara cumsalar,
Üzərəm!
Bacarmasam, nə dərdim?
Yurdumun gözəlləri,
Yurdumun cavanları
Yenə də dəstə-dəstə,
Yenə də qatar-qatar
Gəlib qolumdan tutar,
Məni qaldırar göyə
"Sən də cavansan" – deyə!

## Sevgi miniatürləri

**Deyirlər hər kəsin öz sevgisi var,**
Qoşa yaranmışdır əzəldən onlar.
Ömrüm, günüm keçir, hardadır o yar?
Onu bircə dəfə görə biləydim,
Ona ürəyimi verə biləydim.

Yanına göylərdən süzüb gedərdim
Dərin dəryaları üzüb gedərdim
Hər bir zəhmətinə dözüb gedərdim.
Onu bircə dəfə görə biləydim,
Ona ürəyimi verə biləydim.

***

**Eşq əlindən gəldim dada**
Axır məni saldı oda
Ölüm, yoxsa bu dünyada
Qalım yalvara-yalvara?

***

**Hər yanda al-əlvan çiçək açılır,**
Baxdıqca üz gülür, ürək açılır.
Bəs neçin yerində tutmayır qərar
Arzular, arzular, şirin arzular?!

Həyatım, gəncliyim bəxtəvər, azad.
Məhəbbət insana verir qol-qanad.
Çataram mən sizə bir gün vaxt olar,
Arzular, arzular, şirin arzular.

***

**Bir xoş gün görmədim bu şən dünyada,**
Ah, nə dərdə düşdüm cavanlıqda mən.
Hər gülün rəngini salıram yada,
Ağlaya-ağlaya qaranlıqda mən.

Bax, gəlib ilk bahar, qaynayır sular,
Gör, nələr söyləyir quşların səsi.
Ürəyimdə şirin, ən xoş arzular
Dilimdən düşməyir sevgi nəğməsi.

***

**Ulduzların gözləriylə**
Gördüm səni gecə yarı,
Dalğaların sözləriylə,
Dindi könül arzuları.

***

**Qamətim heç zaman bükülməyəydi,**
Saçlarım ağarıb tökülməyəydi,
Qəlb evim dağılıb sökülməyəydi,
Yara göstərməli üzüm olaydı.

Gözəllər axışıb gəlsə uzaqdan,
Yanağı lalədən, gülü dodaqdan,
Gündüzü gecədən, qaranı ağdan
Seçməyə işıqlı gözüm olaydı.

# İslam Səfərli

(1923-1974)

## Dalğalar

Siz qaynar həyatsınız,
Nəğməyə qanadsınız.
Sahili şən dalğalar,
Ay öpüşən dalğalar.

Sevgilim dənizdədir,
Ağ yelkəni üzdədir.
Yatın barı, dalğalar,
Ay mirvari dalğalar.

Qoy bilsin o aybəniz,
Sinəmdədir göy dəniz.
Könlümə yar dalğalar,
Ay nəğməkar dalğalar.

## Üzmə yar

Yaş ötdü, gözəl qız, həyat şirindir,
Məhəbbət ondan da qat-qat şirindir.
Uzat şümşad əllərini,
Mənsiz keçən günlərini
Sapa düzmə, yar.

Duman tül saldıqca kolların üstə,
Hər səhər keçdiyim yolların üstə
Bulaq olub süzülmüşəm,
Çiçək kimi düzülmüşəm,
Məni üzmə, yar.

Sərt xəzri kükrəsə, hava qaralsa,
Göyü də, yeri də yağış, qar alsa
Təmiz eşqim güzgün olar,
Xumar baxış süzgün olar,
Elə süzmə, yar.

Çıxanda seyrinə yaşıl düzlərin
Gülən də sənin o ülkər gözlərin
Təmiz eşqin düzgün olar
Sənsiz bir gün yüz gün olar
Ayrı gəzmə, yar.

## Bir könül sındırmışam[1]

Mən onu dan ulduzu,
Zərrin şəfəq sanırdım.
Kimə inanmasam da
Bir ona inanırdım.

O bir qaranquş kimi
Qəlbimdə yuva qurdu.
Acı dilim qurusun,
Dilim onu uçurdu.

Saçlarının gül ətri
Titrəyər ovucumda.
Bu intizar gözlərim
Ağlar yol ayrıcında.

Qəbahətim böyükdür,
Ay ellər, dünən axşam
Bir ürək sındırmışam,
Bir könül sındırmışam[2].

---

1. Müəllif variantı ilə mahnı variantı arasında bəzi fərqlər var.
2. Mahnı variantında son iki misra belədir:
   Büllur kimi bir ürək
   Bir könül sındırmışam.

## Nə vaxta qaldı?

Gilənar qızardı, ağ tut sovuşdu,
Payını dərmədim, budaqda qaldı.
Hamı könül verib yara qovuşdu,
Bəs bizim toyumuz nə vaxta qaldı?
Ay gözəl, nə vaxta qaldı?

Qonçalar açılıb, gülür çəmən, düz
Hər axşam tarladan qayıdanda biz.
Yoxsa o "sevirəm" – söylədiyin söz
Düşərək mərcantək bulaqda qaldı?
Ay gözəl, bulaqda qaldı?

Göyləri ay gəzir, hava bürkülü;
Eyvanda durmuşam boynu bükülü.
Bəlkə eşqimizin sona bülbülü
Uçub yol üstəki qovaqda qaldı?
Ay gözəl, qovaqda qaldı?

Əzəldən gözəldir boyun, qamətin.
Olsa da qəlbini ovlamaq çətin,
Gözəl qız, bil ki, bu saf məhəbbətin
Ürəkdə yurd salıb, dodaqda qaldı,
Ay gözəl, dodaqda qaldı.

## Arzu

Qara gözlü, şirin sözlü,
Al yanaqlı, gözəl qız.
Hər gün sizin güllü bağda
Şeyda bülbül olaydım.

Ay gözəl qız, ay qəşəng qız,
Bağçamıza gəlibsən.
Gül əlinlə gül dərəndə
Mən də bir gül olaydım.

Çoxdur sözüm, necə dözüm
Həsrətinə, gözəl yar?
Harda olsan, təmiz qəlbim
Səni deyib arzular.

Bir diləyim, bir arzum var,
Dinlə məni, ey nigar:
Kaş ki, sənin saf sinəndə
Odlu könül olaydım.

## Yadıma düşdün

Dəydi saçlarıma bahar küləyi,
Nazəndə sevgilim, yadıma düşdün.
Hərənin baxtına bir gözəl düşər,
Sən də təkcə mənim adıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Sənsiz dağ döşünə çıxdım bu səhər,
Ötdü qumru kimi gur şəlalələr.
De, niyə yalqızsan, sordu lalələr,
Qövr etdi nisgilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Bir müddət dost kimi gəzdik yanaşı,
İncitdim qəlbini, mən oldum naşı.
Sənsiz, ey gözəlim, bağrımın başı
Oldu dilim-dilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Gözlərim yoldadır, qulağım səsdə,
Səni unutmaram mən son nəfəsdə.
Ey ceyran baxışlım, ey boyubəstə –
Ey təzə-tər gülüm, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

## Pıçıldaşın ləpələr

Pıçıldaşın, pıçıldaşın, ləpələr!
Bəlkə mənə bir sözünüz var sizin?
Üç gecədir mənim ömür yoldaşım
Buruq qazır qucağında dənizin.

Körpəmizi yatırmışam indicə,
Beşiyinə ay nurunu səpələr.
Sevgilimdən xəbər verib gizlicə
Pıçıldaşın, pıçıldaşın, ləpələr!

Gecə keçir... Ay dolanır üfüqdə,
Göy Xəzərin sinəsində meh əsir.
Ah... tez olun, darıxıram, ey sular,
Müjdə verin, sevən qəlbim tələsir.

Mavi sular, sevgilimə yol verin,
Qoy qayıtsın alnı açıq, üzü ağ!
Çünki qızıl Abşeronun oğluna
Bir adətdir zəfərlərlə qayıtmaq.

Pıçıldaşın, pıçıldaşın, ləpələr!
Bəlkə təzə bir sözünüz var sizin?
Üç gecədir mənim ömür yoldaşım
Buruq qazır qucağında dənizin.

## Zərif gülüşlüm

Söylə, ey sevgilim,
Səntək yar hanı?
Zülfündən tel düzüb
Çaldım kamanı.

Ülkər baxışına,
Xoş yerişinə,
Zərif gülüşünə
Verrəm dünyanı.

Nəğmədir ilhamın,
Yoxdur bir kamın.
Ey şair İslamın
Gözəl cananı.

Mahnıdır yelkənim
Əzəldən mənim.
Gəl sevək vətənim
Azərbaycanı.

## Həkim qız

Gülər üzlü həkim qız,
Ey gözləri bənövşə!
Qapınızdan keçəndə
Sarsılıram həmişə.

Başım da ağrımır ki,
Bir yanına gələm* mən.
Geyinib ağ xalatı
Qəlbimi dinləyəsən.

Günəş kimi təmizdir,
Safdır sənin niyyətin.
Ellərə ömür verir,
Həyat verir sənətin.

Qoy toxunsun sinəmə
O şəfqətli əllərin,
Ürəyinlə dinlə bir,
Ürəyimin tellərin.

Söylə, intizarını
Nə vaxtadək çəkim, qız?
Oxuyuram səninçin
Bu nəğməni, həkim qız!..

---

* "Gəlim" variantı da mövcuddur.

## Bilmədin

Bağçamıza gəldi bahar,
Yaşıl xalı sərdi bahar.
Gəl dedim, gəlmədin, yar,
Gəlmədin, yar.

Məni yada salsan, a yar,
Ürəyimi alsan, a yar.
A ceyran sevgilim,
Mehriban sevgilim,
Sirrimi bilmədin, bilmədin, yar.

Nəğmə deyib güldükcə mən
Güldü çiçək, güldü çəmən.
Gül dedim, gülmədin, yar,
Gülmədin, yar.

Dindir şirin sözlə məni,
Özün dedin: gözlə məni,
Gözlədim, gəlmədin, yar,
Gəlmədin, yar.

## Gül bağçalar

Gül bağçalar kənarında
Qoşa gəzir gözəllər.
Onlar tutmuş əllərində
Ətirli qızıl güllər.

Gülür onlar, gülür bahar,
Sevinir ürəkləri.
Onların xoş mahnıları
Oxşayır çiçəkləri.

Onlar susmuş olsalar da,
Ürəkləri danışır.
Eşqin mavi göylərində
Ulduzları barışır.

## Sevgi valsı

Ay dolanır, gecə lal,
Dayanmışıq üz-üzə.
Göz qırparaq ulduzlar
Uzaqdan baxır bizə.

Yanaqların sayrışır
Çiçək-çiçək, sevgilim.
Gənclik gözəl, ömür şən,
Oxu, göyçək sevgilim.

Oxu, gözəl sevgilim,
İlk məhəbbət nəğməsi.
Buludlara toxunsun
Eşqimizin nəfəsi.

Səyyarələr tökülsün
Üstümüzə gül kimi.
Saçlarını oxşasın
Küləklər sünbül kimi.

Oxuyaq, ey sevgilim,
Nəğməmiz həyat olsun.
Daim ucalmaq üçün
Eşqimiz qanad olsun.

## Səhər mahnısı

Ah, səhər-səhər
gülür meşələr,
Ətrini yayır
tər bənövşələr.
Gəl gəzək qoşa,
verək baş-başa
Eşqin Günəşdir,
hüsnün tamaşa.

Nərgizlər gülür
gözlərin kimi,
Gör nələr çalır
qəlbimin simi.
Həyatımız şən,
sevdim səni mən,
Könlüm açılır
Gülüşlərindən*.

Gəl, ey sevgilim,
bir çıxaq bağa,
Mahnılar deyək
bu şən növrağa.
Gəl gəzək qoşa,
verək baş-başa,
Eşqin Günəşdir,
hüsnün tamaşa.

---

* xoş gülüşündən

## Şəhla gözlüm

Həsrətinlə gecə-gündüz
Şölə çəkib yanıram mən.
Sənin şəhla gözlərini
Bəxt ulduzu sanıram mən...

Səsimi dinlə,
Gəl, şirin sözlüm,
Ey şəhla gözlüm!

Bir adətdir əzəl gündən:
Könül sevən gözəl olar.
Sənin şəhla gözlərində
Eşqimizin atəşi var.

Saf eşqimiz bir bahardır,
Mən bülbüləm, sən də çiçək.
Qızarır al yanaqların
Dan yerinin şəfəqitək.

## Aylı gecələr

Gecə sakit, çay axır,
Lal sularda Ay axır.
Ey könül, gəl cövlana,
Eyvandan mehriban nazlı yar baxır.
Mən necə dözüm
Yaxın gəl, quzum,
Gecələr, uzun gecələr...

Nə dadlısan, duzlusan,
Sən bir qəmər üzlüsən,
Ay baxır, çay axır, yar.
Ey gülüm, ala göz, ala gözlüsən.

Ulduz göydən sovuşur,
Kirpiklərin qovuşur.
Gəl, gülüm, sevən qəlbim
Gecələr tək səni, səni soruşur.

## Qonaq gəl bizə

Qəlbimi dindir,
sənə sözüm var.
Naz, naz eyləmə,
gəl görüşək, yar.

Çıx yaşıl düzə,
qonaq gəl bizə.
Gözüm yoldadır,
xoş xəyaldadır.

Tez gəl, ey gülüm,
gözəl sevgilim.
Həyatımda var
sevgili bir yar.

Çıx yaşıl düzə,
qonaq gəl bizə.
Yanağı çiçək,
gözləri göyçək,
Üzəngidən tut
sən məni görcək.

Bircə sözüm var,
nazlı-duzlu yar,
Qəmli dayanma,
sən gülüzlü yar.

Çıx yaşıl düzə,
qonaq gəl bizə.
Gözüm yoldadır,
xoş xəyaldadır.

# Hüseyn Arif

(Hüseyn Hüseynzadə)

(1924-1992)

## Sən mənimlə get

Ətirli bağçaya, şehli çəmənə,
Lilparlı bulağa sən mənimlə get,
Arabir dənizin dalıb seyrinə,
Yaxına, uzağa sən mənimlə get.

Gəzək obaları, gəzək elləri,
Hər kəndə, şəhərə sən mənimlə get.
Gəl bölək sevinci, bölək kədəri,
Həm xeyrə, həm şərə sən mənimlə get.

Haranı bəyənib seçəsi olsam,
Oraya, ey sənəm, sən mənimlə get.
Bir gün bu dünyadan köçəsi olsam,
Tək onda demərəm sən mənimlə get.

## Nə vecinə

Əli çiçək, ayağı gül,
Teli ipək, darağı gül.
Üzü qönçə, yanağı gül,
Boya onun nə vecinə?!

Günəş əridə dağları,
Ərimәz sinənin qarı.
Başı buluddan yuxarı
Dərya onun nə vecinə?!

Nə fələyə fələk deyir,
Nə illərə boyun əyir.
Yerişindən yer titrəyir,
Qaya onun nə vecinə?!

Hər sözü duzlu-məzəli,
Yüz işvəli, yüz qəmzəli,
Sərxoşdur dünya gözəli,
Dünya onun nə vecinə?!

## Sən dərsə gəlməyəndə

Düşür yadıma hərdən
Məktəb həyatində mən
Yoluna göz dikərdim,
Qəlbim sızlardı birdən
Sən dərsə gəlməyəndə.

Durub-durub anardım,
Gizli-gizli yanardım.
Neçə dostun içində
Özümü tək sanardım
Sən dərsə gəlməyəndə.

Zəng səsi ucalardı,
Uşaqlar söz alardı…
Gözlərim boş masanda,
Fikrim çöldə qalardı
Sən dərsə gəlməyəndə.

Dözməyib buna bəzən
Düşüb gah da həvəsdən,
Nə danım həqiqəti,
Qaçardım mən də dərsdən
Sən dərsə gəlməyəndə.

## Mən inanmadım

Dedilər: – Əhdini danır o ceyran;
Dedim: – Yalan olar! – Mən inanmadım.
Dedilər: – Qış gəlir, qayıt bu yoldan,
Əsdi yel, yağdı qar, mən inanmadım!

Dedilər: – Gözləmə o gülyanağı,
Dedim: – Ürəyimə çəkməyin dağı.
Dedilər: – Toyudur, – bir axşam çağı
Dindi saz, ötdü tar, mən inanmadım!

O vaxtdan ruhumu təklik sıxsa da,
Başqa bir gözəli salmadım yada.
Müqəssir sən oldun, çünki dünyada
Heç kəsə sonralar mən inanmadım!

## Nə deyim?

Qayıdıbdır fikir, xəyal içində
O fikirli dayanana nə deyim?..
Ayrılıqmı saçlarına salıb dən,
Peşimandır, peşimana nə deyim?

Uzun olur məhəbbətdə imtahan,
Nələr gəlib, nələr keçir xəyaldan,
Can söyləyib, can eşitdik bir zaman,
Heç bilmirəm mən o ana nə deyim?

Necə duyum hikmətini aləmin,
Tarixi var hər sevincin, hər qəmin.
Barış! – deyir dodaqları körpəmin,
Siz söyləyin, indi ona nə deyim?

## Söylə, yadındamı?

Söylə, yadındamı o axşam çağı?..
Dinməyən mən oldum, dinən sən oldun.
İlk eşqin ocağı alovlanmamış
Sönməyən mən oldum, sönən sən oldun.

Doymamış sabahın tər nəfəsindən,
Sevdalı quşların təranəsindən,
Sözündən, əhdindən, iradəsindən
Dönməyən mən oldum, dönən sən oldun.

Pozuldu ilqarın, dəyişdi andın.
Torpaqda alışıb, havada yandın.
Axır gözlərinlə görüb inandın
Enməyən mən oldum, enən sən oldun.

## Ay qız

Oyanıb səhər-səhər,
Bağçaya girdin, ay qız;
Bir dəstə çiçək dərib,
Mənə göndərdin, ay qız.

Yanaqların qızardı,
Gözlərin gülümsədi.
Elə bil, baxışların:
"Mənə şeir yaz" dedi.

Söhbətini, sözünü,
Gülüşünü xoşlaram;
Mən sənə şeir dolu
Bir ürək bağışlaram.

## Dedim, dedi

Dedim: - Telin nə gözəldir!
– Yox-yox, ona dəymə! - dedi.
Dedim: - Nə vaxt gəlim sizə?
– Qapımızı döymə! - dedi.

Dedim: - Nədir bu işvə-naz?
Dedi: - Yeri, şeirini yaz!
Dedim: - Ay qız, belə olmaz.
– Get oğlan, baş əymə! - dedi.

Dedim: - Qövr eləyir yaram.
Dedi: - Sənlə yoxdur aram.
Dedim: - Axı, sənətkaram,
– Çox özünü öymə! - dedi!

## Xatırla məni

Sevirəm çəməndə gülü-çiçəyi,
Gələndə ilk bahar xatırla məni!
Öpsün alınları dağlar küləyi,
Güləndə ruzigar xatırla məni!

Torpağı bəzəsin bənövşə, nərgiz,
Ruhuma doğmadır hər cığır, hər iz,
Geniş sinəsini açsın göy dəniz,
Dinəndə dalğalar xatırla məni!

Fəsillər dolanıb, ötdükcə zaman,
Vaxt olur həyatda dəyişir insan.
Mən səni unudan deyiləm inan,
Sən də, ey gözəl yar, xatırla məni!

## Qonşu qız

Uşaqkən oynardıq biz bir bağçada,
Əsla yorğunluğu salmazdıq yada.
Dolaşıb yanaşı çəmənlikləri
Həvəslə toplardıq tər çiçəkləri.

Doğanda səhər çıxardıq evdən
Həm sən, həm də mən, qonşu qız.
Açanda güllər qaçardıq çölə
Verib əl-ələ, qonşu qız.

Qəlbimin həmdəmi sən idin.
Niyə məndən küsüb incidin?
Yanıma gələrdin hər məni görəndə,
Əlvan çiçəklərdən dəstələr hörəndə
Onu əlimdən alıb qaçardın,
Quştək uçardın, qonşu qız.
Bu əhvalatlar soruşma nədir,
Xoş xatirədir, qonşu qız.

Biz də yaşa dolduq keçdikcə illər.
Nə tez varaqlanıb ötdü fəsillər?!
Uşaqlıq anları qaldı arxada,
Arabir düşünüb salıram yada.
Gəl əzəlkitək biz gülə-gülə,
Verək əl-ələ, qonşu qız.
Açmaq istərəm bu gün qəlbimdən
Keçən sözü mən, qonşu qız.

## Dinə bilmədim

İlk dəfə sahildə gördüm onu mən,
Gizli bir üşütmə keçdi qəlbimdən.
Tutmuşdu üzünü mavi Xəzərə –
O dənizə baxdı, mən o gözlərə.
Dinmək istədim, dinə bilmədim,
Nə edim, bilmədim!

Dolandı bahar, yay, dolandı payız,
Fikrimdən silinib getmədi o qız.
Aradım mən onu bağda, bağçada,
Hüsnünü hər zaman salaraq yada
Görmək istədim, görə bilmədim,
Nə edim, bilmədim!

Mən toya çağrıldım bir axşam çağı,
Bəzənib gülürdü qonaq otağı.
Görüncə tanıdım mən o gözləri –
Ağ libas geyinib o gözəl pəri.
Hamı dinsə də, dinə bilmədim,
Nə edim, bilmədim!

## Nə bəxtiyardıq!

Göy bağçalar arasında qoşa gəzdik
Axşamacan yorulmazdıq, inciməzdik
Bulud ötər, ulduz axar, biz baxardıq –
Nə bəxtiyardıq!

Ay dolandı, il dolandı, ötdü zaman
Son baharda aramızı kəsdi duman
Dönə-dönə o günləri xatırlarıq –
Nə bəxtiyardıq!

Ey alovlu günlərim,
Qəlbimdə yurd salan sevincim, kədərim.
Ah nələri, nələri
Tapdıq, itirdik.

Hərdən-hərdən o günlərim düşər yada
Şəvə tellər zaman-zaman ağarsa da,
O günləri xatırlaram, xatırlarıq –
Nə bəxtiyardıq!

## Sevəydin barı

İllərlə mən sənin oduna yandım,
Başqa birisinə meyil salmadım.
Hər yerdə, hər zaman adını andım,
Eşqin sualına cavab almadım.
Gözlədim-gözlədim,
Səndən mən cavab almadım.

Kimdir yanındakı tanı sən, gözəl,
Onun nə əhdi var, nə etibarı.
Ay məni bəyənib sevməyən gözəl,
Məndən yaxşısını sevəydin barı.
Sevəydin-sevəydin,
Yaxşısın sevəydin barı.

Gözdən uzaq olub düşmədim yada,
Yalançı məhəbbət aldatdı səni.
Dözülməz ağrıdır düzü dünyada –
Sən yarı sevəsən, yar özgəsini.
Nədəndir-nədəndir,
De, sevdin sən özgəsini?

## Malakan qızı

Boy ucadır, bel incə,
Göz aladır, tel sarı.
Qızılgüldən rəng alıb
Bu qızın yanaqları.

Nə məxmərdən biçilib,
Nə də ipəkdir donu,
Bədən bədən olanda
Çit də bəzəyir onu.

Axşam çağı ətrafa
Sərin kölgə düşəntək,
Bağarası cığırla
Geniş yola çıxır tək.

Şaxlı qoz ağacının
Yanından gəlib keçir,
Qədim, novlu bulaqdan
Əyilib su da içir.

Qızlar alır dövrəyə
Bağçaya girən kimi,
Cavanlar pıçıldaşır
Uzaqdan görən kimi.

Oxuyur gitaranı
Biri basıb bağrına,
Biri də dilləndirir,
Qarmonu yana-yana.

Neçəsinin bu kənddə
Odur sözü, söhbəti,
Lakin bilən yox hələ
Kimdədir məhəbbəti?..

Hər kəslə şirin-şirin
Deyib gülür payız, yaz,
Məsəldir: – Açıq qızın
Qəlbini bilmək olmaz!

Keçəndə qabağımdan
Göz qoyuram arabir.
Gözələ yüz yaşda da
Baxmaq günah deyildir!

## Xətrinə dəymərəm

Bilirəm, qəlbinə toxunmuşam mən
Gəl keçən sözləri salmayaq yada
Adın düşməyibdir əsla dilimdən.
İnan, indən belə heç vaxt dünyada
Xətrinə dəymərəm, dəymərəm sənin.

Güləndə o başdan Günəşin üzü
Biz yenə dolaşaq alma bağında
Şirindir gəncliyin söhbəti, sözü.
Baharı seyr edim gül yanağında,
Qəlbinə dəymərəm, dəymərəm sənin.

O gündən nə qədər peşimanam, bil,
Özüm də bilirəm, məndədir günah
Məhəbbət ürəkdən silinən deyil.
Şəklinin önündə hər axşam, sabah
durub deyirəm,
qəlbinə dəymərəm, dəymərəm sənin.

## Sevgi miniatürləri

**Gözəllik – hərarət, gözəllik atəş**
Gözəllik ilhamdır, ruhdur, diləkdir.
Gözəl qız səmada parlayan Günəş
Torpaqda boylanan təzə çiçəkdir.

Səadət hər ömrə gülməz cahanda
Bilmirəm nahaqsan, bilmirəm haqsan?
Yüz qəlbi küsdürüb yaralasan da
Bir qəlbi dindirib oxşayacaqsan.

Zamanın köhləni yeyindən yeyin
Başımın üstündən illər ötüşdü.
Heyif, ləzgi qızı, sənin gəncliyin
Hüseynin qocalan vaxtına düşdü.

***

**Sən Əslini sevərdin, mənsə yazıq Kərəmi**
Sən Tellini anardın, mən yaralı Dilqəmi
Ey ilk, son məhəbbətim, elə buna görəmi
Nə sən mənə qovuşdun, nə mən sənə tay oldum?!

***

**Deyirlər şairlər sevgidən məstdir**
Sağına boylanar, solunu gözlər.
Deyirlər şairlər xəyalpərəstdir
Tez yanıb, tez sönən ocağa bənzər.

Fikrimdə meh kimi əsdi bir gözəl
Açıllam açılsa, solaram solsa.
Həqiqi şairə bəsdi bir gözəl
Həqiqi şairə yaraşan olsa.

# Nəbi Xəzri
(1924-2007)

## Nə dedim?

Axı mən nə dedim, toxundu sənə?
Məndən ayrı gəzdin, ayrı dolandın.
Könlümdə çağladı arzular yenə,
Sən də çaylar kimi coşdun, bulandın.

Heç kimə açmadım mən öz dərdimi,
Sən də, mən də keçən günləri saydıq.
Bilmirəm, ürəyim heç dözərdimi,
Bu gün gülə-gülə barışmasaydıq?

Sevinsin qəlbimiz, möhnət olmasın,
Gülsün ömrümüzə yenidən bahar!
Ayrılıq heç kimə qismət olmasın,
Küsüb-barışmağın öz ləzzəti var!

## Ayrı sahillərin eyni dalğası

Ömrün hər ilinə birümman dedim.
Niyə uzaq saldı bu illər bizi?!
Bir az sən tələssən, mən geciksəydim,
Bəlkə ayırmazdı sahillər bizi.
Yaxın bir sevginin uzaq nidası
Ürəyi şimşəktək odlayıb keçir.
Ayrı sahillərin eyni dalğası
Doğma qəlbimizdən adlayıb keçir.

Gecə şirin-şirin mürgüləyəndə
Seyr edər ay səni, kəhkəşan səni.
Mən səhər küləyə "əsmə" deyəndə
Kim isə oyadar yuxudan səni.

Qoşa keçirsiniz... yaxın gəlmərəm.
Mən yoxam... Yanında nə zaman o var.
Gözümü qaldırıb baxa bilmərəm,
O isə istəsə əl də qaldırar.

Keçirsən... quş olub qanadlanıram,
Amma, ucalmağa üfüq çatmayır.
Səni mələklərə mələk sanıram,
O isə qanuni bir arvad sayır.

Baxar qibtəyləmi sizi hər görən,
Ya dinər yer ilə səma da birgə?
Birgə döyünməyən ürəklər, görən,
Necə addımlayır dünyada birgə?

Gecikmiş arzular aşıb-daşanda
Baxaram, könlümdən al qanlar axar...
Qanunsuz bir nikah qanunlaşanda
Qanuni məhəbbət kənardan baxar...

## Dəniz, göy, məhəbbət

-Dənizi hədiyyə verirəm sənə…
Mən dedim, sən baxdın, sən gülümsədin.
Göylərin şəfəqi düşdü üzünə
- Mən isə… göyləri verirəm, dedin…

Ayrıldıq qəribə hədiyyələrlə,
Göylər eşqim kimi mənə əzizdir.
Ayrıldıq dənizlə, ağ ləpələrlə,
Necə aparasan?… Dəniz dənizdir.

Dənizi verdim ki, sənə hədiyyə,
Gəldiyin sahilə gələsən bir də.
Məni görməyəndə – o mənəm – deyə.
Mənimlə danışıb güləsən bir də.

Əgər görüşməsək bizə dağ olar,
Dedim, neçə dəfə belə dedim mən.
Dəniz sahilinə qayıtmaq olar,
Göylərin sahili varmı, gedim mən?!

Düşündüm, ayrılıq gələndən bəri
Sən mənim eşqimə çıraq olasan.
Onunçün verdinmi mənə göyləri,
Məndən göylər qədər uzaq olasan?!

## Axtar sən məni

Əzəldən heç belə bilməzdim səni,
Qəlbimdə ilk arzu, ilk həvəs oldun.
Qışda bahar kimi
Çox gəzdim səni,
Yaz gəldi, qar kimi
Görünməz oldun.

İllər ötüb keçdi arzulartəki,
İndi axşam-səhər axtar sən məni.
Qışda bahartəki,
Yazda qartəki
Axtar sən məni;
Tapmazsan nə qədər axtarsan məni.

# İkilikdə

Gəl, bölək dünyanı ikilikdə biz,
Dərə mənə düşsün,
Dağı sən götür.
Qalsın Yer üzündə qoşa izimiz,
Qara mənə düşsün,
Ağı sən götür.

İlin övladıyıq yazla qış kimi,
Fəsillər yaşasın yanaşı məndə.
Biz ki, bir yerdəyik gözlə qaş kimi,
Gözlər səndə qalsın,
Göz yaşı məndə.

Gündüzü, gecəni əziz saxlayaq,
Günəş sənə düşsün,
Ay mənə qalsın.
Coşğun sellər kimi birgə çağlayaq,
Dəniz sənin olsun,
Çay mənə qalsın.

Bizik bu dünyaya səninlə şərik,
Bizsiz nə qış gülər,
Nə də ki, bahar.
Həyatda hər şeyi bölə bilərik,
Amma bölünməyən
Bir sevgimiz var.

## Nar-nar

Gül-çiçəyi dərərəm, nar-nar*,
Əlvan çələng hörərəm, nar-nar.
Hər gün səni görəndə, nar-nar,
Öz bəxtimi görərəm, nar-nar.

Dağlara gün düşəydi, nar-nar,
Demə neyçin düşəydi, nar-nar.
Bizim evin yanından, nar-nar,
Yolun hər gün düşəydi, nar-nar.

Qanadlanıb uçaydım, nar-nar
Qəmdən uzaq qaçaydım, nar-nar.
Ürəyimi bir axşam, nar-nar,
Sevdiyimə açaydım, nar-nar.

Buz bulaqdan içəydik, nar-nar,
Dostu yaddan seçəydik, nar-nar,
Barı bizim küçədən, nar-nar,
Bir gün qoşa keçəydik, nar-nar.

* Şeir "nar-nar" kəlməsi olmadan da oxuna bilər.

## Mavidir...

Bu gün heç bilmirəm nə üçün, nədən,
Səma da mavidir, torpaq da mavi?
Görürəm dünyanı başqa rəngdə mən,
Ağac da mavidir, yarpaq da mavi.

Əsir haradansa sərin küləklər,
Dağdan mavi-mavi duman sürünür.
Mavi kəpənəklər, mavi çiçəklər,
Mavi çəmənlər də qəşəng görünür.

Sulara yel dəyir, sular titrəyir,
Yerin də mənimtək böyük sirri var.
Sanki əfsanəvi nəğmələr deyir
Mavi sahillərə mavi dalğalar.

Rəngi bambaşqadır çölün, düzün də,
Mavi şəfəqlərdir çilənən yerə.
Uçur Göy üzündə bu mavi gündə,
Mavi təyyarələr maviliklərə.

Mən bəlkə bilirəm nə üçün, nədən,
Dünyanın gündüzü maviləşibdir?
Bəlkə də sən mavi geyindiyindən
Yer üzü, Göy üzü maviləşibdir?!

Elə bil sənintək bəzənib aləm,
Səma da, torpaq da sanki mavidir!
Bəlkə xoşbəxtlərin xoşbəxti mənəm,
Bəlkə səadətin rəngi mavidir?!

## Külək

Yenə payız gəldi qonaqlar kimi,
Soldu məhəbbətim yarpaqlar kimi,
Ürək pıçıldayır dodaqlar kimi,
Külək, niyə belə əsirsən, külək?
Niyə ümidimi kəsirsən, külək?

Sevgilim görüşə çağırmış məni,
Mən necə unudum olub-keçəni?
O deyir astaca: "Sevmirəm səni..."
Sən niyə sözünü kəsirsən, külək?
Külək, niyə belə əsirsən, külək?

O ürək ağrıtdı, ürək incitdi,
Bir eşqin sevimli nəğməsi bitdi.
Sanki məhəbbətim xəyaldı, getdi...
Külək, niyə belə əsirsən, külək?
Səndəmi sevgimi kəsirsən, külək?

## Qəlbimdə qaldın

Səni yaz qatarı apardı tezdən,
Elə bil dünyanı qarlı qış aldı.
Heç yana getmədin sən Yer üzündən,
Bəs niyə Yer üzü birdən boşaldı?

Gecələr üfüqdən axan ulduzlar
Göylər çəmənimdə naxışlarımdır,
Hardasa gözünə baxan ulduzlar
Ulduz yox, həsrətli baxışlarımdır.

Hicran elə gəldi ayırdı bizi,
Sanki üfüqlərə uçan xəyaldın.
Hicran elə bildi ayırdı bizi,
Bir idin, min olub qəlbimdə qaldın.

## Ərəb qızı

Coşdu könül ilhamı,
Qonaq qaldın bu yerdə.
Dilində el salamı,
Söhbət saldın bu yerdə.

Sənin gülər gözlərin
Gecə kimi qaradır.
Hörüklərin Nil çayı,
Qaşların ayparadır.

Gəzdin doğma elimi,
Heç doymadın sən yenə.
Xəzər də nəğmə kimi
Axdı sənin qəlbinə.

Bizim baharı duydun
Özün də bir bahardın.
Qəlbini burda qoydun,
Ürəyimi apardın.

Sənin gülər gözlərin
Gecə kimi qaradır.
Hörüklərin Nil çayı,
Qaşların ayparadır.

## Yadigar

Aylı gecə, göy dərədə səslənir bulaq,
Əfsanəli zümzüməsi şeiriyyət deyir.*
Əsir külək, dinir meşə, danışır qovaq,
Mənim ürək sözlərimi təbiət deyir.

Bağlanmışdır könül sənə, etibar sənə,
Yollarıma işıq saçan məhəbbətindir.
Mən vermişəm ürəyimi yadigar sənə,**
Sənin mənə yadigarın sədaqətindir.

Aylı gecə, çay kənarı, suların səsi,
Ürəyimin məhəbbəti tər çiçəyimdir.
Dinlə, yaşıl bağçadakı bülbül nəğməsi,
Öz ümidim, öz sevincim, öz diləyimdir.

---

* Bəzi nəşrlərdə "Sanki sənə pıçıldayır, məhəbbət deyir" kimi getmişdir.
** Bəzi nəşrlərdə "Ürəyimi vermişəm mən yadigar sənə" kimi getmişdir.

## Yuxu

Səhərin nurutək qəlbimə axdın,
Gedər ürəyimdən kədər, qəm dedim.
Gözündən gülərək üzümə baxdın,
Yəqin ki, yuxudur görürəm dedim.

İtirdim özümü bircə anda mən,
Gördüm gözlərində birümman, ay qız,
Səninlə bir axşam ayrılanda mən
Ayıldım elə bil yuxudan, ay qız!

Niyə hər insanın gülmür arzusu,
Bəzən həyat demir könül deyəni?
Sən, ey bu ömrümün şirin yuxusu!
İndi yuxularda görürəm səni.

## Sənin üçün

Qarlı bir zirvə olsan
Ağ buludun olaram.
Dərin xəyala dalsan
Mən sükutun olaram.

Çəmən olsan əgər sən
Sərin yağış çilərəm.
Əgər dənizə dönsən
Sahilə çevrilərəm.

Qovmuşam dərdi, qəmi
Xoşbəxtin ilki mənəm.
Səslənsən nəğmə kimi
Sözlərin, bil ki, mənəm!

Məni susdursa zaman
Səni özüm sanaram.
Səhər kimi oyansan
Günəş kimi yanaram.

## Qonşuda qız sevənin

Bir küçədə hər səhər
Qarşılaşır qız-oğlan.
Qonşular da bu zaman
Baxarlar oğrun-oğrun*.

Heç sinədə bu qədər
Düyün olmaz, dağ olmaz.
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz!

Qovuşubdur bağ-bağa,
Eyvanlarsa üzbəüz.
Oğlan sözü, fikri düz,
Düşünər gecə-gündüz.
Amma ki, danışmağa
Dil olmaz, dodaq olmaz,
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz!

* "Pıçıldaşır astadan" variantı da var.

Səhər bağdan çıxar qız,
Tellərinə gül düzər,
Qonşusundan gen gəzər,
Ürək yaxar, can üzər.
Baxar oğlan qərarsız,
Heç damağı çağ olmaz.
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz!

O sarmaşıq, o eyvan,
Tez-tez dəyər gözünə.
Baxar qızın üzünə,
Deyər özü özünə:
Bu qədər yaxın olan
Bu qədər uzaq olmaz!
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz!

## Ulduzlar və sən

Uzaq kainatdan gələn nurmusan,
Gözündə ilahi işıqlarmıdır?
De, hansı ulduzda sən doğulmusan,
Yerdə sənin kimi gözəl varmıdır?

Bəlkə bir arzunun qanadıyıq biz,
Ürəklər qoşadır, ürəklər yalqız,
Ayın, ulduzların övladıyıq biz,
Bəs niyə barışmır ulduzlarımız?

Bəlkə doğmalarıq, bəlkə yadlarıq,
Bəlkə başqa-başqa kainatlarıq?!

Yox, sən taleyimdə, ömrümdə varsan,
Ayrı bir ulduzda axtarma məni!
Vallah, sən o qədər cazibədarsan,
Cazibə qüvvəndən çıxarma məni!

Nagahan görüşlər keçir an kimi,
Son vermir ürəyin ixtişaşına!
Ay Günəş başına dolanan kimi,
Qoy mən də dolanım sənin başına!

Ulduzlar ən nurlu, uzaq nəğmədir,
Həyatın nəğməsi sənin səsində.
Sənsiz Yer kürəsi bir əfsanədir,
Yaxşı ki, sən varsan Yer kürəsində!

## Səni sevən varsa...

Sən yeri, sən göyü qəlbinlə dinlə,
Səni sevən varsa dünya sənindir.
Sevən yoxsa, barış öz taleyinlə,
Ağrılı-acılı röya sənindir.

Unutma sevgidən qaça bilməzsən,
Səni sevən varsa, həyat sənindir.
Sevən yoxsa, quştək uça bilməzsən,
O sınmış, yaralı qanad sənindir.

Çöksə də yoluna qap-qara bulud,
Səni sevən varsa, cahan sənindir.
Səni sevən yoxsa dənizə üz tut
Orda coşub daşan tufan sənindir.

Əgər sevən varsa, sev ürəyinlə,
Yazdığın hər dərdli misra sənindir,
Sevən yoxsa, barış öz taleyinlə
Məcnuntək atəşli səhra sənindir.

## Sevgi miniatürləri

**Keçir xəyallarım sənin izində**
Sən Ayla, Günəşlə tən görünürsən.
Dünyaya baxıram sənin gözünlə
Yenə gözlərimə sən görünürsən.

***

**Pəncərənə qondu çiçək,**
O çiçək məndim
Dilləndi ağ ləpələr,
Əsən külək, dinən külək,
Coşan külək məndim.

Ulduzların gözlərilə
Gördüm səni gecə yarı.
Dalğaların sözlərilə
Dindi könül arzuları.

Aylar keçər, il dolanar,
Yenə qəlbim səni anar.

Yollarıma doğdu Günəş,
O Günəş səndin
Səpildi al şəfəqlər
Ürəyimdə yandı atəş,
Yanan atəş səndin.

***

**Öz məğrur eşqimdə təmənnasızam,**
Bir damla istəsəm, bir ümman istə...

Mən ki, bir dünyalıq baharam, yazam,
Bircə gül istəsəm, gülüstan istə.
Mənə ulduz boyda işıq ver desəm,
Sən məndən günəşli asiman istə.

Haçan bir saatlıq görüş istəsəm,
Sən bütün ömrümü ərməğan istə.

***

**Onlar görüşdülər... Aylı gecəydi...**
Oğlan pıçıldayır: "Sevirəm" – dedi,
– Əhdindən dönənin gözü oyulsun!
Ay da sevgimizə qoy şahid olsun.

Onlar ayrıldılar... Aylı gecəydi...
Oğlan başqasına "Sevirəm" - dedi.
Ay girdi buluda üzündə kədər,
Qorxdu, bir də onu şahid çəkərlər.

# Bəxtiyar Vahabzadə
(1925-2009)

## Heyif

Heyif o gözlərə, o baxışlara,
Özgə birisinə baxacaq həmən.
Heyif o ilahi, qövsi qaşlara,
Sınacaq kədərli düşüncələrdən.

Heyif o alovlu ötən çağlara,
Uçan yad budağa tez qonacaqdır.
Heyif gülə bənzər o dodaqlara,
Özgə bir dodağa toxunacaqdır.

Gülüm, heyif sənə, heyiflər mənə.
Qoruya bilmədim məhəbbətimi.
Özüm bilə-bilə verirəm yenə
Özgə birisinə səadətimi.

# Gəlir

Tarıma çəkilmiş simə bənzə sən,
Titrə bir yarpağın titrəməsindən.
Bil, dənizdə coşan suyun səsindən
Xəzri gəlir, yoxsa gilavar gəlir.

Bir az sıxnaşanda göydə buludlar
Yavaşca titrəşir yerdə göy otlar.
Onlar da bilir ki, havada çən var,
Sabah yağış gəlir, sabah qar gəlir.

Hər kəsə müyəssər deyildir ancaq
Ürəkdən keçəni gözdən oxumaq.
Qaranquşdan qabaq, torpaqdan qabaq
Gərək biləsən ki, ilk bahar gəlir.

Qəlbim götürməyir bəri-bəzəyi,
Çətindir yamamaq sınıq ürəyi,
Özün dərk edəsən gərək hər şeyi,
Səni başa salmaq mənə ar gəlir.

Baxışdan söz götür, söz anla sözdən,
Həssas ol, sevgilim, ömrün boyu sən.
Əgər sevirsənsə, ayaq səsimdən
Gərək biləsən ki, Bəxtiyar gəlir!

## Kölgəm qədər yaxınsan

Ayrılığın eylədi
Könlümü dağ-dağ, gülüm.
Qış kimi düşüncəli,
Yaz kimi oynaq gülüm:

Kölgəm qədər yaxınsan,
Ancaq tuta bilmirəm.
"Unut" demək asandır,
Mən unuda bilmirəm.

Soyuqluğun könlümə
Saldı qara xal, gülüm.
Dəniz kimi dalğalı,
Heykəl kimi lal gülüm.

Bəs nəyədir gümanın,
Ay gümanlı gümansız?
Könül kimi vəfalı,
Ağıl kimi amansız.

Gecə kimi fikirli,
Gündüz kimi şən gülüm.
İki hissin əlində
Gəl oynama sən, gülüm.

## Qüruru neyləyirsən?

Ömrün bahar çağında
Qəlbə yağan qar nədir?
Sevirsənsə, sevgilim,
Səndə bu vüqar nədir?

Bütün arzularına
Zirvə mənəm, son mənəm,
Qüruru neyləyirsən?
Sənin qürurun mənəm...

Vüqar hara, eşq hara?
Sevənlər "mən", "mən" deməz.
Sevənlər eşq odunda
Əriyib itməzmi bəs?

Vüqarınla döyüşdə
Məhəbbətin uduzmuş,
Mənim isti göz yaşım
Boş qürurdan ucuzmuş?..

## Bir payız axşamı

Bir payız axşamı, yağırdı gur yağış
Saplandı könlümə alovlu bir baxış
Qamaşdı gözlərim baxdıqca mən ona
Gözlərdə nə əfsun, gözlərdə nə məna!

Dayan, dayan, dayan, zaman, dayan,
Zaman, dayan, zaman, dayan, dayan!
Hicrana olmasın aman!

Döyündü ürəklər, mən baxdım, o baxdı
Mən ona yaxındım, o məndən uzaqdı
O susdu, dinmədi, danışdı baxışlar
Baxışı könlümdə bağladı naxışlar.

Bir payız axşamı iki qəlb bir oldu
Buludlar dağıldı, dəryalar duruldu
Nəğmələr pıçıldar göy mənə, yer mənə
Sevirəm, ey həyat, sirrini ver mənə.

## Odum, közüm, gəl...

Amandır, ləngisin, geciksin axşam,
Ömrümün gündüzü bitməsin gərək.
Mən indi bilirəm, nədir arzu, kam,
Mən indi bilirəm nə imiş sevmək.
Çıraq işıqlanar sönməzdən əvvəl,
Getmə, ey baharım, ey gündüzüm, gəl.
Soyuq bir ürəyə necə dözüm? Gəl...

Payız yarpaqları – qışın əvvəli,
Axşam şəfəqləri – gündüzün sonu.
Gəlməsin, yetməsin ürəyimdəki
Bu odun, atəşin, bu közün sonu.
Çıraq işıqlanar sönməzdən öncə,
Baharı duyuruq bahar gedincə.
Getmə, ey baharım, ey gündüzüm, gəl,
Soyuq bir ürəyə necə dözüm? Gəl...

Uzansın baharım, gündüzüm mənim
Qalıb ürəyimdə çox sözüm mənim.
Bu yaşda ömür də şirin olurmuş
Bu yaşın sevgisi dərin olurmuş.
Çıraq işıqlanar sönməzdən əvvəl,
Getmə, ey baharım, ey gündüzüm, gəl,
Alovum, atəşim, odum, közüm, gəl!

**Ömrün payızında sevdim, sevildim,**
Elə bilirəm ki, ilk baharam mən.
Arxanca sürünən kölgənəm sənin,
Harda qərar tutsan, orda varam mən.

Mey olsan, yanında bir qədəh ollam,
Gül olsan, çətrini öpən şeh ollam.
Ot olsan, bir anda dönüb meh ollam,
Dağ olsan, zirvənə yağan qaram mən.

Başımı qoyaram gündə yüz kərə
Bir yol ayağını qoyduğun yerə.
Eşqindir ucaldan məni göylərə,
Bu eşqin gücünə minnətdaram mən.

Sevgiyə hədd qoymaq düzü günahdır,
Cahilin hər işi, sözü günahdır.
Eşqi günah saymaq özü günahdır,
Kim deyir eşqimdə günahkaram mən?

Özün bir aləmsən, eşqin bir aləm,
Sən olan könüldə nə kədər, nə qəm.
Sənsiz bu dünyanın ən bədbəxtiyəm,
Səninlə dünyada bəxtiyaram mən.

## Olurmuş

Nə yaman, nə çətin günlərə qaldım.
Sevginin düşməni min-min olurmuş.
Gümansız gümanlar, qansız şübhələr
Sevənin qəlbində çin-çin olurmuş.

Qırıldı arzular, öldü inamlar,
Qaldı aramızda quru salamlar,
Məni başa salın, siz ey adamlar,
Bəs nə vaxt sevənlər mətin olurmuş?!

Mən haqqı itirdim güman içində,
Azdım öz yolumu duman içində.
Sevəndə sevirik bir an içində,
Unutmaq nə qədər çətin olurmuş!

## Gecələr uzanaydı...

Bir-birinə göz vurub,
Yanır göydə ulduzlar.
Ürəyimdə, sevgilim,
Ulduz sanı sözüm var.

Əlin mənim əlimdə,
Gözüm gözünə baxır.
Hər sözüm ulduz kimi
Üzündə iz buraxır.

Gecə qısa, sözüm çox,
Əsir dodağım, dilim.
Bir görüşə sığarmı
İki ürək, sevgilim?!

Ulduzlar eşqimizdən
Atəş alıb yanaydı.
Biz görüşə çıxanda
Gecələr uzanaydı...

## Unudam gərək

Ayrıldıq... güc gəldi bizə hücumlar,
Ayrıldıq, usanıb tənədən, sözdən;
Bizdən razı qaldı yadlar, qohumlar,
Biz razı qalmadıq öz-özümüzdən.

Ayrıldıq... nəğməmiz qaldı yarımçıq,
Fikirlər pərişan, könüllər qırıq.
Ayrıldıq... de harda ləngidi zaman?
İndi nə sən sənsən, nə də mən mənəm.
Başımda tufanlar hayqırdığından
Meyvəsi dəyməmiş tökülən mənəm.

Dağlara dırmanıb ardımca qoşdun,
O axar sulara qarışan mənəm.
Taleyin hökmüylə sən çox vuruşdun,
Bu ağır hökm ilə barışan mənəm.
Yandıran da mənəm, yaxılan da mən,
Döyən də, vuran da, yıxılan da mən!

Ayrıldıq... bilmədik, neçin, nədən biz?
Ayrıldıq... Ayrılmaq istəmədən biz.
Yoxdur ürəyimdə sənə qəzəb, kin,
Yadıma düşməyir bəd əməllərin.
Nifrətsiz ayrılıq ayrılıq deyil,
Nifrətsiz ayrılıq vüsaldan şirin...
Gülüm, sevə-sevə ayrılırıq biz,
Ürək kökdən düşən tək simə bənzər,
Bizim gözü yaşlı, bədbəxt eşqimiz
Atalı-analı yetimə bənzər.
Deyirəm, unudam səni mən, gərək.
Mümkünmü?
Arzuya əməl tən gərək!
Unuda bilməkçün səni, sevgilim,
Təzədən doğulam, təzədən gərək!

## Sən hardan biləsən?

Sən hardan biləsən nə çəkirəm mən?!
Payızam...
ey ömrün ilk baharlısı.
Sən hardan biləsən, nədən biləsən
Yoxdur bu dünyada səndən varlısı?!

Dumantək dağlara çəkilən mənəm,
Budaqlar üstündə quştək dinən sən.
Payızda yarpağı tökülən mənəm,
Ömrün yaz çağında çiçəklənən sən.

İllərim xərclənmiş, ömür gödəlmiş,
Sənin yol gedəsi çox illərin var.
Mənim ürəyimdə baş-başa gəlmiş,
Kövrək duyğulardan nə xəbərin var?!

Deyirsən, ocağın közü mənəm, mən,
Sənsə tüstülənən xatirələrsən.
Ancaq xatirəmi?
Səhvin var sənin,
Dağdan xəbərsizdir arandakılar.
Bir də... unutma ki, tüstülənənin
Təzədən tutuşub alışması var.

Sən hardan biləsən, sevda anları
Qənimət payıdır tükənən ömrün?!
Sısqa bir bulağın son damcıları
Daha şirin olur təşnələr üçün.

Sən hardan biləsən, axşam şöləsi
Niyə aynaları alovlandırır?!
Sən hardan biləsən bülbülün səsi
Niyə son baharda ürək yandırır?!

Artır zaman-zaman vaxtın qiyməti,
Arzu min həvəsdə, ürək təlaşda.
Sən hardan biləsən, gözün ləzzəti
Qəlbin ağrısına dönür bu yaşda?!

Sevgi yaş tanımır...Qəlbini yandır!
Yanaraq yaşasan, yaş düşməz yada.
Sevən doxsanında hələ cavandır,
Sevməyən qocadır otuzunda da...

Ürək alışırsa, günahkarmı yaş?
Sevəni qınama, sevəcək sevən!
Yaş ilə ürəyi deyil, a qardaş,
Boş ilə dolunu çəkiyə qoy sən!

Bir ömrü illərlə ölçmək düz deyil,
Ömürlə illəri ölçəsən gərək.
Hissinlə, qəlbinlə, dinlə, nə deyir
Bu duyan, bu yanan, alışan ürək...
Yaşarkən həyatı sevirəm... nə qəm,
Öləndə ölümlə sevişəcəyəm...

## Biri sənsən, biri mən

Bir bulağın iki gözü –
Biri sənsən, biri mən,
Bir almanın iki üzü –
Biri sənsən, biri mən.

Qoşa simin titrəməsi –
Biri sənsən, biri mən.
Bir pərdənin iki səsi –
Biri sənsən, biri mən.

Açıq səma, göy qurşağı –
Biri sənsən, biri mən.
Dan ulduzu, səhər çağı –
Biri sənsən, biri mən.

Bu həyat da iki rəngdir –
Biri sevinc, biri qəm.
Sevinc kimdir, kədər kimdir?
O həm sənsən, həm də mən.

Bu dünyaya biz gələli
Həm qəmik, həm də sevinc.
Sən məndəsən, mən səndəyəm,
Gözəldir qəmdə sevinc.

## Xatirələr

Ömür keçir bir su kimi,
Könlümdəsən arzu kimi.
Həsrətindən quzu kimi,
Dilə gəlib mələr-mələr,
Qəlbimdəki xatirələr.

Özün getdin, sözün qaldı,
Sinəm üstə gözün qaldı.
Bağçalarda izin qaldı,
Gah ağlayıb, gah da gülər,
Qəlbimdəki xatirələr.

Qəlbimizi yaman açdıq
Sarmaşıqtək çox sarışdıq,
Gah küsüşdük, gah barışdıq...
İndi mənə şirin gələr
Ötən, acı xatirələr.

## İstəyirəm görəm səni

Bahar gəlir göy çəmənə,
İstəyirəm görəm səni.
Ətir saçır yasəmənlər,
İstəyirəm görəm səni.

İnan, uymaz könlüm yada,
Eşqin məni salıb oda,
Gecə yatıb yuxumda da
İstəyirəm görəm səni.

Eşqin verib qanad mənə,
Sənsiz yoxdur həyat mənə.
Gündə min yol görsəm yenə
İstəyirəm görəm səni.

Saf eşqinlə coşuram, yar,
İstəyirəm görəm səni.
Xəyalınla uçuram, yar,
İstəyirəm görəm səni.

## Yağma, yağış

Göylər çənə büründükcə
Ürəyimi bürüyür qəm.
Yağma, yağış, yağma, yağış,
Mən görüşə tələsirəm.

Mənim şirin sevincimə
Acı zəhər sən qatma gəl.
Göy çəməndə yar gözləyən
Sevgilimi islatma gəl.

Pəncərəmə hicran yağır,
Damcıların naxış-naxış.
Mən görüşə tələsirəm
Yağma, yağış, yağma, yağış.

Ürəyini boşaltmasın,
Bu gün göylər insan kimi,
Mən ki açmaq istəyirəm
Sevgilimə ürəyimi.

Yağsan da mən gedəcəyəm.
Görüşəndə yağışda biz
Üstümüzdə açılacaq
Çətir kimi öz eşqimiz.

## Gül

Döşünə gül taxmısan,
Ekizsənmi güllə sən?!
Baxdım sənə, gah gülə,
Seçmədim gülü güldən.

Özü gül olan gözəl
Dərilmiş gülü neylər?!
Sən gülü iyləyirsən,
Yoxsa gül səni iylər?!

Qoy o səni iyləsin,
Sən ondan da qəşəngsən.
O dərilib, sən isə
Dərilməmiş çiçəksən.

## Bir salama dəymədi

Bu gün mən səni gördüm
Salam vermək istədim
Üzünü yana tutdun.
Söylə, illərdən bəri
Qəlbimizin bir duyub
bir vurduğu illəri
Axı, nə tez unutdun?
Beş ildə gözümüzdən axan o qanlı sellər
Bir salama dəymədi?
Həyacanla, fərəhlə, qəmlə dolu o illər
Bir salama dəymədi?
Heç üzümə baxmadan yanımdan necə keçdin?
Sən eşqin salamını qorxuyamı dəyişdin?
Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?
O qədər yaxın ikən, bu qədər uzaq oldun.
Şirin gülüşlərimiz, acı fəğanlarımız
bir salama dəymədi?
Qayğılı anlarımız, qayğısız anlarımız
bir salama dəymədi?
Sən neylədin, bir düşün!
Yalnız indi anladım, ah, sən daha mənimçün
əlçatmaz bir çiçəksən,
Yaşanmış günlərimtək geri dönməyəcəksən!..

Qop, ey tufan, əs, ey yel! Xəzəl olum, tökülüm;
Düz beş il ürəyimdə
Bəslədiyim məhəbbət bir salama dəymədi.
Bir günlük həsrətimə dözə bilməyən gülüm,
Bəs nə oldu? Bu həsrət bir salama dəymədi?
Getdin, dalınca baxdım, can ayrıldı canımdan,
Sən necə etinasız ötə bildin yanımdan?
Ah çəkdim, başım üstə yarpaqlar əsdi, gülüm,
Sənin qəlbin əsmədi.
Arxana da baxmadın!
Niyə sənin yolunu məhəbbətin kəsmədi?..
Qazancımız, de, bumu?
Deyilməmiş o salam əlvidamız oldumu?
Sən mənə zülm eylədin, mənə zülüm yaraşır.
Bir salama dəyməyən eşqə ölüm yaraşır!

**Nə məni anladın, nə məni duydun,**
Sən mənim könlümü xaraba qoydun.
Kimi qınamalı?
Yox-yox! Heç kəsi,
Öz könlüm özümdən indi uzaqdır.
Məhəbbət!
Məhəbbət – barıt zərrəsi,
Ürəyə düşdümü – partladacaqdır!
Mənim bu ağsaçlı, qədim eşqimin
Başında qapqara bir duman ağlar.
Tutub matəmini yetim eşqimin
Xaraba könlümdə bir kaman ağlar.

Susdurdum könlümün istək səsini
O, önü kəsilən bir çaya bənzər.
Könlüm öz əlilə öz körpəsini
Boğub matəm tutan anaya bənzər.

Çaşmışam,
mənimçün saat yox, gün yox.
Bəs ömrüm nə ilə öyünür indi?
Elə bil ürəyim duymaq üçün yox,
Hissini boğmaqçün döyünür indi.

Günlərim uzandı, səbrim gödəldi.
Görəsən ömrümün qışımı gəldi?
Kəsdi yay yağışı, dayandı tufan.
Niyə şimşək çaxmır, göy guruldamır?
Qışın üryan qalan budaqlarından
Qəlbimə hərdənbir damcılar damır.
Məni diksindirir bu damcılar da,
Ötən təlatümüm, hardasan, harda?

Düşdü ayaqlara, süründü naçar,
Mənim min sevdalı, min sirli könlüm.
Gör necə qısılıb sinəmə lal-kar,
Bir zaman haraylı-həşirli könlüm!

## Səni gördüm

Yel toxundu yarpaqlara
Nəğmə qondu dodaqlara
Dönüb baxdım uzaqlara
Səni gördüm, ay sevgilim.

Bir mehriban üz görəndə
Bir cüt ala göz görəndə
Qara xallı qız görəndə
Səni gördüm, ay sevgilim.

Ya özümdən küsəndə mən
Ya fikirli gəzəndə mən
Gözəllərin gözündə mən
Səni gördüm, ay sevgilim.

**Bu qədər saldı məni həsrət amandan-amana,**
Könlüm axırda mənim düşdü gümandan-gümana.

Neçə alim yazıb öz dərdini izhar elədi,
Aşiqin dərdi fəqət keçdi zamandan-zamana.

Dərdü-qəmdən qurtarıb, düşdü könül hicr oduna,
Eləyək indi şikayətmi yamandan-yamana?!

Səni gördükdə mən ancaq belə dil-dil ötürəm,
Boşalır göydə buludlar da dolandan-dolana...

Deməyəm görməmişəm mən səni çoxdandı, gülüm;
Görürəm surətini yalqız olandan-olana...

Könlümün üstə düşən kölgələr ələn silinir,
Başımın üstünə sən kölgə salandan-salana.

Neçə yol vədə verib əhdə vəfa qılmadı yar,
Bəxtiyar, qəlbin axır düşdü talandan-talana.

**Yenə bağlar o bağlardır, fəqət bağda gülüm yoxdur,**
Gülüm yoxdur, bu dünyada ayım yoxdur, ilim yoxdur.

Zaman dönməz öz hökmündən... Biz ayrıldıq, tez ayrıldıq,
Dilim bar verməz, ay dostlar, deyəm ki, sevgilim yoxdur.

Çiçəklərdən, küləklərdən mən allam ətrini yarın,
Dilək ölməz, ürək ölməz, sevənlərçin ölüm yoxdur.

Gülüm, əğyar qılıncıyla sevərkən ayrı düşdük biz,
Bu həsrətdən, bu möhnətdən daha müdhiş zülüm yoxdur.

Sevib yandım, külək qalxdı, külüm sovruldu əflakə[1],
Məni gəzmə bu dünyada, odum söndü, külüm yoxdur.

Ağac yansa fəğan eylər, deyər öz dərdini aşkar,
Deməkçün dərdimi yarə, bəmim varsa, zilim yoxdur.

Səninlə Bəxtiyaram mən, ayım sənsən, ilim sənsən,
Bu dünyada mənim sənsiz ayım yoxdur, ilim yoxdur.

---

1. fələklər; göylər (ərəbcə - "fələk" sözünün cəmi)

**Ən ülvi, təmiz duyğudur insanda məhəbbət,**
Ömrün yoluna nur səpir hər anda məhəbbət.

Dünya da məhəbbətlə dönür, fırlanır ancaq
Məhvər də məhəbbətdi, bu dövran da məhəbbət.

Ad-san da, şərəf-şan da bir övladıdır eşqin,
Şövkət də məhəbbətdi, gülüm, şan da məhəbbət.

Min yol de ki, sev! Sevgidir insanı ucaldan,
Yox faidəsi, yoxsa əgər canda məhəbbət.

Həm zövqüdür, həm cövrüdür ömrün, o, həyatın;
İnsanı ucaldan da, qocaldan da məhəbbət.

Dünyanı gözəlləşdirir öz cilvələriylə
Xoşdur duyan insana xəyaldan da məhəbbət.

Mən Bəxtiyar oldum o zamandan ki, sevildim,
Min can yaşadır əzmlə bir canda məhəbbət!

**Sənsiz qəhr edərdi bu cahan məni,**
Sənsən bu cahana bağlayan məni!
O gün ki, qəlbimi mən sənə verdim
Hər şey gözlərimə göründü aydın.
Varlığı heçliyə mən dəyişərdim,
Əgər bu dünyada sən olmasaydın.

Doğrandım, kəsildim mən dilim-dilim
Dünya əzab evi, ömür vəfasız.
Gördüyüm hər şeyə, inan, sevgilim,
Sənin gözlərinlə baxıram yalnız.

Hara baxıramsa görürəm səni,
Quş səsi, çay səsi sənin səsindir.
Çəkəndə köksümə gülün ətrini
Sanıram bu sənin öz nəfəsindir.

Qara gözlərində batıram sənin
Bu gözlər dəryadan, göydən dərindir.
Buluda deyirəm saçındır yəqin,
Güllər mənə baxan nəzərlərindir.

Yarpaqlar – əllərin, çeşmələr – gözün,
Yağış damcıları – göz yaşlarındır.
Dünya yaranmısan mənimçün özün,
Baxışım da sənin baxışlarındır.

Kitabam, gəl məni aç varaq-varaq,
Gör nələr çəkmişəm bu zəmanədən.
Vəfasız bildiyim dünyaya ancaq
Sənin saçlarınla bağlanmışam mən.

Dərk edə bilməzdim dəhri[1], varlığı;
Heyran olmasaydım gözəlliyinə.
Hüsnünün əsrarı, füsunkarlığı
Ana təbiəti andırar mənə.

***(“Şəbi-hicran” poemasından)***

1. dünya; zaman, dövr (ər.)

## Sevgi miniatürləri

**De məndən varlısı dünyada varmı?**
Sevən də özünü yoxsul sanarmı?

Mənim öz eşqimin öz ulduzları
Dağıdır könlümə nur qucaq-qucaq...
Axı, bu sərvəti, dövləti, varı
Məhəbbət bəxş edər insana ancaq.

***

**Verir arzularım göydə səs-səsə,**
Deməyin yerdə gəz, yer bəs deyilmi?
Yanan bir ürəyə, sevən bir kəsə
Göylərin özü də qəfəs deyilmi?

Sevə bilirəmsə əgər ürəkdən
Dünyanın ən gözəl adamıyam mən!

***

**Dedim: – Susma, danış, din,**
Nə danışdın, nə dindin.
Məhəbbətin oduna
Mən yandım, sən isindin.

***

**Sevgilim, seyr edək gəl bu aləmi,**
Gəl, bayram eyləsin qoy vüsal dəmi,
Səninlə olduğum bir dəqiqəmi
Sənsiz keçirdiyim ilə verərdim!

***

**Evinizin kandarında**
İtib mənim izim artıq.
Quruca bir "salam" qalıb
Aramızda bizim artıq.
Mən sevgisiz daşa döndüm,
Yoxdur sənə sözüm artıq.

***

**Sevdinsə...**
Eşqində itib yox oldun,
Çaşbaş salacaqsan günü, ayları.
Sevgi yollarında nə qayda-qanun?
Özün aşmalısan bu dolayları.

Əriyib, özünü yox sayacaqsan,
Bu dərdin olmayıb özgə çarəsi.
Sən tez-tez "qəzaya" uğrayacaqsan,
Yoxdur bu yollarda yol işarəsi.

***

**Deyirsən: – Özünü yaman sevənsən,**
Deyirəm: – Bunun da səbəbi sənsən.
Özümü sevməzdim,
hələ əksinə,
Bir zaman özümdən bezib usandım.
Elə ki, ürəkdən bağlandım sənə,
Özüm öz gözümdə dəyər qazandım.

***

**Mən səni yaratdım, gülüm, sən məni,**
Ürəklər qul olur yaratdığına.
Xəyallar uydurur bütü, səcdəni,
Biz də yaratdıq ki, tapınaq ona.

***

**Ömrümə nur çilə, alış, yan, eşqim,**
Ruhum da, canım da artıq sənindi.
Mənim öz könlümdə doğulan eşqim,
Hakim kəsilibdir könlümə indi.

***

**Bil, yaman gündə də, yaxşı gündə də,**
İstərəm qovuşam, mən yetəm sənə.
Gözüm gözlərinə dikiləndə də
Həsrətəm, həsrətəm, həsrətəm sənə!..

***

**Dağa qalxsan, buludlara dönərəm mən,**
Yerə ensən, yağış olub enərəm mən.
Nəğmə olub bir dodaqda çiçək açsan,
Kaman olub səsin üstə dinərəm mən.

***

**Dəyişmisən sən artıq**
Hanı o mehribanlıq,
Nə olar ki, bir anlıq
Ötənləri anasan?!

Arxanda vurğun ürək
Dolanır bir kölgətək.
Eşqimi dansan gərək
Sən dünyanı danasan.

***

**Bir məsəldir qan hər qana qovuşmaz,**
Gülüm, təkcə gözəllikdən kar aşmaz
Gözəllərə öyünmək də yaraşmaz;
Dil ürəyə, ürək dilə yaraşsın,
Könül gərək o könülə yaraşsın.

Könül vermə təkcə yaza, bahara,
Öz yerində həm ağ xoşdur, həm qara.
Boy-buxunda yaraşmasın yar yara –
Dil ürəyə, ürək dilə yaraşsın,
Könül gərək o könülə yaraşsın.

# Əliağa Kürçaylı
(1928-1980)

**Məni sənə bağlayan**
Eşqim, məhəbbətimdir,
Yollarında saxlayan
Sənə sədaqətimdir.

Tutsun ərzi duman, çən,
Qar olsun, dözərəm mən.
Ürəyimi isidən
Sənin hərarətindir.

İstəmirəm gül-çiçək,
Ömrün yolu daş-kəsək,
Hər bəlaya dözəcək
Sənin dəyanətindir.

Nədir vəfa, etibar?
Söz desəm artıq olar.
Mənim bu eşqim ki, var
Sənin əmanətindir.

# İstərəm

Mən sənin eşqinin asimanında
Aya, ulduzlara çatmaq istərəm.
Min-min səadəti boyunbağıtək
Mən sənin boynuna asmaq istərəm.

Bir sən, bir mən olum, bir uçuq kaha –
Heç nə istəmirəm taledən daha.
Bütün kədərini alıb çox baha,
Sevinci havayı satmaq istərəm.

Yaşayım yüz il də, milyon da, min də –
Həyatım bitəcək həmin o gündə
Sənin gözlərinin dərinliyində
Boğulmaq istərəm, batmaq istərəm.

**Əynindəki donun bəyaz, örpəyin bəyaz,**
Seyr edirəm ağ çəkməni, ağ əlcəyini.
Elə bil ki, başın üstə təzə gələn yaz
Silkələyib gilənarın ağ çiçəyini.

Bu ağ libas camalına yaraşır necə!
Öz toyundur, oynayırsan ortalıqda sən.
Qol qaldırıb asta-asta rəqs elədikcə
Sanıram ki, qu quşudur qarşımda süzən.

Bu ağ libas – toy paltarı bir gecəlikdir.
Bilirəm ki, sabah onu dəyişəcəksən,
Gözlərimin qarşısından ağ rənglər keçir:
Bir körpənin ağ bələyi, ağ süfrə, yelkən
Sonra bəyaz bir qağayı, sonra kəhkəşan
Sonra şimşək, sonra isə quzeydəki qar
Sonra bütün ömrü boyu üzüağ insan
Sonra saçlar... Sonra saçlar... Gümüşü saçlar!...

İnsan qəlbi arzu dolu sonsuz bir aləm,
Qoy hər istək öz yerinə, vaxtına düşsün.
Bu gecəki paltarının rəngi istərəm
Ömrün boyu taleyinə, baxtına düşsün!

**Dənizdə Ay çimirdi**
Yanaqları gümüşü.
Toxunurdu üzünə
Ləpələrin gülüşü.

Dənizdə Ay çimirdi
Dövrəsi ulduz-ulduz.
Onu seyr eləyirdi
Yer heyran, göy yuxusuz.

Sən də gəldin sahilə,
Paltarını soyundun,
Gah nurda, gah da suda
Yuyunduqca yuyundun.

Ay xəcalət çəkdimi
Hüsnünü görən kimi?
O çəkildi dənizdən
Sən suya girən kimi.

Yığıb ulduzlarını
Ərşə qalxdı Ay yenə...
Uzaqdan xoşdu baxmaq
Gözəllərin hüsnünə!

**Sevirdim xurmayı hörüklərini,**
Deyirdim gəlməsin bir tel zavala,
Sinənə atardın bəzən birini,
Birini salardın çiynindən dala.

Sonra sən onları kəsdirdin...
Niyə?
Bəzəmək istədin yoxsa hüsnünü?
Sandım ki, qayçını sən gözəlliyə,
Lap hüsnün özünə vurdun o günü!

Bu gün təsadüfən rast gəldim sənə,
Örtmüşdü üzünü qısa saçların.
Elə bil əvvəlki gözəlliyinə
Hüsnü calanmışdı bir ilk baharın.

Nə uzun hörüklər, nə qısa saçlar
Gözəllik deyildir!
Yoxmuş xəbərim...
Ölçməkdə, biçməkdə bircə günahkar
Mənim gözlərimmiş, vurğun gözlərim.

## Yadıma sən düşürsən

Hər çiçəyin öz ətri, hər gülün öz rəngi var
Hər qəlbin öz istəyi, öz sözü, ahəngi var
Hər insan öz ömrünə dost seçir, həmdəm seçir.
Mənimsə ürəyimdən qəmli bir nisgil keçir,
Yadıma sən düşürsən.

Göydə bulud dolaşır, axşam düşür, yel əsir-
Heç bilmirəm nədəndir könlüm belə tələsir?
Yollarına baxıram, nə gələn var, nə gedən
Qəlbimdəki intizar nədir, düşünürəm mən.
Yadıma sən düşürsən.

Təklik üz verir mənə, çıxıram otağımdan
Sevgililər küçədə deyib-gülür mehriban...
Onları belə xoşbəxt, belə məsud görəndə
Duyğular dalğa kimi çırpınır bu sinəmdə,
Yadıma sən düşürsən.

## Belə ola həmişə

Pəncərəmə uzanan yaşıl-yaşıl əldimi?
Yarpaqlar ilk baharın salamına gəldimi?
Seyr elə bu lövhəni, doğrudan gözəldimi?
Dayanmışıq səninlə qoşa, üzü Günəşə
Belə ola həmişə!

Gözlərinə baxıram, necə şəndir, gülümsər,
Onlarda yox qüssədən, sıxıntıdan bir əsər.
Sən gülməsən bircə an ürək titrər, can əsər,
Yoxsa günün alovu dolubdur bu gülüşə?
Belə ola həmişə!

Saçlarına baxıram, gözün kimi qaradır,
Yarısı gözün üstə, yarısı yanlaradır,
Gülüm, yığma onları, qoy dağılsın, dara, dur,
O qara saçlarına istəmirəm dən düşə,
Belə ola həmişə!

Gör nə qədər qısaltdıq həsrətin mənzilini,
Ovcumda tutmuşam mən indi sənin əlini.
Yaman qırdıq hicranın, intizarın belini!
Kaş ki, bütün sevənlər bizim kimi görüşə.
Belə ola həmişə!

**Ovçumusan, ovmusan?**
Qovulmusan, qovmusan?
Bir parça alovmusan?
Yandırdın ay qız, ay qız!

Əsdi dağlar küləyi,
Yerə saldı örpəyi,
Bu görkəmdə mələyi
Andırdın, ay qız, ay qız!

Aymısan, ulduzmusan?
Ürəyimi üzmüsən,
Şaxtamısan, buzmusan?
Dondurdun, ay qız, ay qız!

Boğdun eşqin səsini –
Məhəbbət nəğməsini,
Könlümün şüşəsini
Sındırdın, ay qız, ay qız!

## Heç xəbərin yoxdu sənin

Aləm bilir bu həsrəti,
Sinəmdəki məhəbbəti,
Heç xəbərin yoxdu sənin.

Göylər yanır ulduz-ulduz,
Dolaşıram mən yuxusuz,
Heç xəbərin yoxdu sənin.

Nəğmələrim zilə gəlir,
Dağ da, daş da dilə gəlir,
Heç xəbərin yoxdu sənin.

Vurğun etdin özün məni,
Güldürər bir sözün məni,
Heç xəbərin yoxdu sənin.

Çoxmu çəksin bu möhnətim,
Ay dil bilməz məhəbbətim?
Heç xəbərin yoxdu sənin.

## Səslə məni

Harda olsam gələrəm
Təki sən səslə məni
Darda olsam gələrəm
Təki sən səslə məni.

Yaxın olsun, ya uzaq
Dərə olsun, ya da dağ
Məni kim saxlayacaq?
Təki sən səslə məni.

Yatmaram illər ilə
Əsərəm yellər ilə
Gələrəm sellər ilə
Təki sən səslə məni.

Eşqə yurd isə sinəm
Qocalıq gəlsə nə qəm
Dönərəm gəncləşərəm
Təki sən səslə məni.

Sənsən eşqim, əməlim
Gəlsə bir gün də ölüm
Vermərəm can, a gülüm,
Təki sən səslə məni.

## Başıma gəldi

Gör arxamca necə düşüb fəsli-baharım,
Məni yalqız buraxmadı, qışıma gəldi.
O, daradı saçlarımı yaz yelləriylə,
Çiçək taxdı torpağıma, daşıma gəldi.

Yandı üfüq, açdı çiçək, köpürdü sular,
Körpə, kövrək tumurcuğa döndü duyğular.
Cana gəldi donuq hisslər, ölən arzular,
Könlümdəki bu intibah xoşuma gəldi.

Bu nə idi? Qınamıram mən təbiəti,
Sevənlərdən əsirgəmir saf məhəbbəti.
Elə bil ki, bu dünyanın dadı, ləzzəti
Bircə anda çörəyimə, aşıma gəldi.

Bu sözləri mən hər dosta, yada demişdim,
–Verdim eşqi, məhəbbəti bada – demişdim.
Mən ki, sevgi sevdasına vida demişdim,
Ay həzərat, bu nə işdi başıma gəldi?!

**Taleyimin göylərində**
Yanan da sən, sönən də sən.
Mənə ilkin qəlb açan da,
Məndən üzü dönən də sən.

Salammazdı səni bəndə
Göydə bulud, yerdə çən də.
İndi seyrək görünən də,
Aya-günə dönən də sən.

Ürək teli sənə bağlı,
Ümid əli sənə bağlı.
Keçib getdin qaşqabaqlı –
Bu gün də sən, dünən də sən.

Bahar dedin, indi qışdı,
Axı, səbir kasam daşdı.
O ürəkdi, yoxsa daşdı
Gəzdirirsən sinəndə sən?!

## Xoşbəxtlik mahnısı

Gecə keçir yarıdan, yatmamısan hələ sən,
Ulduzlara baxırsan, gülüm, niyə belə sən?
Yoxsa ayıq gözlə sən açacaqsan səhəri?
Qızıl səhər öpəcək yoxsa qara gözləri?

Üzə gülür təzə gün, yeni səhər, təzə il,
Təzə sözlə, sovqatla indi gəlir bizə il.
Gəlir uğurlu sabah, gedir uğurlu gecə,
Ulduzlarda birləşsin gözlərimiz gizlicə.

Gələn səhər səadət, gələn səhər sədaqət,
Gələn səhər gətirir özü ilə məhəbbət.
Ayıq gözlə biz onu qarşılayaq, sevgilim!
Sübhə kimi qoy qalsın gözlər oyaq, sevgilim!

Səyyarələr yerdəki işıqları əks edir,
O ulduzlu səma da göy Xəzərin əksidir.
Küçələri, tinləri gəl dolaşaq piyada,
Üzə gələn səhəri nəğmələrlə oyadaq.

## Sevgi miniatürləri

**Yox, səni unutmaq**
Coşqun selləri
Tərsinə üzməkdən daha çətinmiş.
Göyərçin qanadı – bir cüt əllərin
Mənim pərvaz edən səadətimmiş...

***

**Qapımızı külək açdı**
Dedim ki, bəlkə sənsən.
Gözlərimdən yuxu qaçdı,
Gəlmədin sən.

Əllərimə əl toxundu
Dedim ki, bəlkə sənsən.
Dostum, gördüm xəyaldır bu,
Hardasan sən?

***

**Şirin xəyal kimi keçdin qəlbimdən**
Qara gözlü, səni düşünürəm mən.

Qulağım səsdə, gözüm yoldadır
Hər addım səsi məni aldadır.

Dodağında gülüş, əlində çiçək
Hərdən aç qapını sən ilk bahartək.

Ay qız, şirin dillə qəlbimi dindir
Özün bilirsən ki, könlüm sənindir.

***

# Əli Kərim
(1931-1969)

**Özü duyaydı ki, ürəyimdədir,**
Yanaydı verdiyi hicran içində.
Qalaydı özünün əsəri olan
Bir kədər dalğalıümman içində.
Olaydı qəlbimin ağrılarında,
Yanaydı qəlbimin intizarında
Çox deyil, bir az.
Görəydi orada yaşamaq olmaz.
Deyəydi bəsdir,
Bir rahat guşə ver orada mənə.
De, qəsdinmi var ki, yer ayırmısan
Ağrıda, acıda, yarada mənə?!

**Nə vaxt görüşmüşük?**
Harda? Nə zaman?
Doğrusu, elə bil yadımdan çıxıb.
Təbəssüm səhəri doğdu üzündən,
Dayandın ehmalca əlimi sıxıb.

Sözlərin qırıldı, töküldü bir-bir;
Çırpdı divarlara, daşlara külək.
Kəlmələr dağıldı sahil boyunca
Yonulmuş bir gülün ləçəkləritək.
Əynində sevincdən biçilmiş ağ don,
Gözündə çaşqınlıq alatoranı.
Əllərin qonmağa bir yer tapmadı,
Sındırdın az qala barmaqlarını.

Sonra da gözlərin sirli söhbəti:
– Sevirsən?
– Sevirəm.
– Hər zaman?
– Hər an!
Sonra da dillərin şirin yalanı:
– Sevmirsən?
– Sevmirəm?

İndi o vaxtdan
Saatlar, həftələr, illər ötüşür.
Amma o ilk görüş yaşayır hələ.
Qocalmır, zamana yanıqlar verib
Yaşayır hər yeni görüşümüzlə.

İlk görüş yox olsa, yox olub gedər
Dönər bir heçliyə görüşlərimiz...
Görüşlər hamısı vərdişə dönər,
Bəlkə bir saatda qocalarıq biz.

Hər yeni görüşlə ilk görüş gəlir,
Bütün görüşlərə nur səpir bir-bir.
İlk görüş həmişə arxada deyil,
İlk görüş bəzən də gələcəkdədir.

## İki sevgi

Gözəl qız, sən saf susan,
İki qəlb arzususan.
Mənsə səni sevirəm
Susuzluğun od vurub köz kimi
yandırdığı
dodaq su sevən kimi.
O isə səni sevir,
rahatca bardaş qurub,
– Kabab üstdən sərin su pis olmaz –
deyən kimi.

Gözəl qız, sən işıqsan,
Yurduma yaraşıqsan.
Mənsə səni sevirəm
iynənin ucu boyda
İşığa həsrət qalan göz işıq sevən kimi.

O isə səni sevir,
Bir şən mağarda, toyda,
İşıqlardan yaranmış yaraşıq sevən kimi.

Danış, ucalsın səsin,
Qısılmasın nəfəsin.
Mən ki səni sevirəm,
Bakıdan, Daşkəsəndən
Gələn bir səda kimi,
Səs kimi,
Qüdrət kimi.
O isə səni sevir,
Gizli deyil ki, səndən,
Bir otaq küncündəki qəmli sükunət kimi.
Bu mən, bu o, bu da sən,
De görək nə deyirsən!
Amma yaxşı fikir ver bu iki məhəbbətə.
Daha heç nə demirəm!
Nöqtə, nöqtə və nöqtə.

**Nə xoşbəxt imişəm bir zaman, Allah,**
Xəbərim olmayıb bu səadətdən.
Nə xoşbəxt imişəm,
nə xoşbəxt,
xoşbəxt!
Bu gün eşitmişəm bunu həsrətdən.
Niyə yazmamışam o zaman, Allah,
Əlimə qələm də gəlməyir indi.
De, niyə aradan küləklər əsir?
Aramız, de, niyə belə sərindir?
İçdiyim o su da səadət imiş,
İşə getməyim də, qayıtmağım da.
Ona baxmağım da xoşbəxtlik imiş,
Onu yuxusundan ayıltmağım da.
Dünya başdan-başa səadət imiş,
Mənsə bu dünyanın qoynundayammış,
Dünya fırlanırmış sevinc gücüylə,
Bəs indi nə olub belə dayanmış?

Göylər səadətin çətiri imiş,
Torpaq da səadət məhvəri imiş.
Gecələr toranlı vüsal məskəni,
Hər səhər, ruhumun səhəri imiş.
Dilin quruyaydı sənin, ay həsrət,
Sən bu gün könlümü tanımar etdin.
Ya bunu vaxtında deyəydin mənə,
Ya da ki, lal olub heç dinməyəydin.

Dünya başdan-başa səadət imiş,
Görəsən, heç bir də olarmı yenə?
Dünya başdan-başa nə imiş dedin?
Dünya başdan-başa nə imiş, de nə?!

## Qayıt

Həsrətin araya atdı dağ, dərə,
Sönən işıq oldun, batan səs oldun.
Qayıt mənim gülüm, qayıt bu yerə,
Ey mənim istəyim, nə gəlməz oldun!

Ümidlər, arzular pərən-pərəndir,
Qəlbə təsəllidir xatirələrim.
Bir halımı soruş, könlümü dindir;
Axşamlar yadıma düşür səhərim.

Qayıt, mənim gülüm, yerbəyer elə
Dərdli səhərləri, gecələri sən.
Çaşıb başqa yolla keçirəm elə,
Düz öz qaydasınca küçələri sən.

Qayıt, yerinə qoy Ayı, Günəşi, –
Yenə olduğutək görüm həyatı.
Qayıt, gözüm nuru, könlüm atəşi,
Qayıt, sahmana sal bu kainatı!

## Yar gəldi

Oduna çox yanmışam,
Başına çox dolanmışam,
Yolunda dayanmışam,
Yar gəldi, yar gəldi, yar gəldi.

Özünə özüm qurban*,
Sözünə bu sözüm qurban,
Gözünə gözüm qurban,
Yar gəldi, yar gəldi, yar gəldi.

Əlində ipək dəsmal,
Yar gəldi, qurbanın olum.
Çəkmişəm həsrətini,
Dərdini, möhnətini.
Bu odur, yoxsa xəyal?!
Yar gəldi, yar gəldi, yar gəldi.

Getmə məndən uzağa*,
Könlümü salma fərağa,
Sevdiyim, ay el-oba,
Yar gəldi, yar gəldi, yar gəldi.

Qoymaram bir də gedə,
Yarını həsrətlik edə.
Qoy deyim mən yenə də:
Yar gəldi, yar gəldi, yar gəldi.

---

* Bu dördlüklər şeirin orijinalında yoxdur, yalnız mahnı variantında var.

## Sevgi miniatürləri

**Ala gözün gülümsündü**
Alovlandım alovundan.
Sandım ki, göy Günəş doğdu
Mavi rəngə girdi cahan.

Ala gözün soyuq baxdı,
Necə deyim bu dərdi mən.
Soyuq mavi baxışından
Elə bil ki, göyərdim mən.

***

**Mən belə bilsəydim**
könlümün dəli,
Sərsəri vaxtında atardım səni.
Dəlini aldatmaq çətin ki, deyil,
Deyərdim, gəl ataq bu nazənini.
İndi yaşa dolub, bəlkə bir qədər
Ağlı dar,
aldatmaq onu çətindir.

# Nəriman Həsənzadə

(1931)

## Sən bağışladın

Mənə üfüq boyda geniş səmanı,
göydə buludları... yerdə dumanı,
dənizdə dalğanı sən bağışladın,
bu hüsnü mənanı sən bağışladın.

Uzanan yolların dümağ sətrini,
dünyanın ən gözəl çəmən ətrini
qumlu sahillərdə sən bağışladın.
o zərif əllərdə sən bağışladın.

De, nədir səadət həyatda, gülüm?
Bir könül xoşluğu, bir az təbəssüm.
Onu da, bunu da sən bağışladın,
dünyanı dünyada sən bağışladın.

# Qoru

Sevdinsə sev birini,
baxma bir özgəsinə.
Gözdə xəyanət olar,
sonra bu adət olar.

Keçirmə ürəyindən –
ürək xəyanət edər,
ürək də adət edər.

Gətirmə heç dilinə –
dil də xəyanət edər,
dil də bir adət edər.

Beləcə, həyatda sən
adətdən qoru bəzən,
özündən qoru bəzən
öz eşqini hətta, sən.

# Nağıl

Beləcə gedəydik, çıxıb gedəydik,
ikimiz hardasa gözdən itəydik.
Nə sən deyəydin ki, gecdi, get artıq,
nə mən deyəydim ki, dayan azacıq.
Nə səndən "hardasan" soruşaydılar,
nə mənim işimə qarışaydılar.
Yenə danışaydın, yenə güləydin,
mənim gözlərimdə güzgülənəydin.
Sən dərsdən qalaydın, mən işdən...
Ancaq
Dərsdə də, işdə də hamıdan qabaq,
sənin qiymətini tez yazaydılar,
mənim maaşımı düz yazaydılar.
Dünya bir azacıq nağıllanaydı,
işıqlar yerdə yox, göydə yanaydı.
Biz yerdə itəydik... ruhu, fikri şən.
Eh, göydən üç alma düşür deyəsən,
Doğrudan nağıldı...

## Yaşamaq üçün

Gəl görüm...
Gəl görüm...
Gəl, görüm səni,
necə darıxmışam bir qılıq üçün.
Sonra evinizə ötürrəm səni,
qurbanın olaram yaxşılıq üçün.

Yollar naxışlansın ayaq izindən,
Yüz günün sevinci bir gündə olsun,
Bəzi adamların qaçım gözündən
təki sənin gözün üstümdə olsun.

Xətrimə dəyiblər yenə, qadası,
xətrim,
bilirsənmi,
sığal istəyir.
Mənim ürəyimdə ilham ağrısı,
ilhamsız kəslərdən macal istəyir.

Efirdə dünyanın son xəbərləri,
diktorun səsində nə qədər eyham.
Bəs mənim dünyamın son xəbərləri?
Özüm diktoruyam... gəl sənə deyim.

Eh, sənin yanında nə söz, nə söhbət,
gördünmü, yadımda sözüm qalmayır.
Yanında bilirəm susmaq – cinayət!
Amma söz üçün də imkan olmayır.
Gəl görüm...
gəl görüm...
gəl, görüm səni.
Necə darıxmışam bir qılıq üçün
sonra evinizə ötürrəm səni,
Səni görməliyəm yaşamaq üçün.

# Yanına gəlmişəm

Yanına gəlmişəm, təzədən küsək,
təzədən barışaq, görək, olurmu?
Saat gör neçədir bir az tələsək,
gedək, yaşıl söyüd görək durürmu?

Yağışlar islatsın, qaçaq əl-ələ,
sevin, gülüşünə bal qata-qata.
Gəlmişəm qayıdaq on il əvvələ,
saçına dən düşüb, qaralsın o da.

Yenə mən danışım, mənə qulaq as,
şirin sözlərimlə cilvələn, bəzən.
Bir az kökəlibsən, arıqla bir az,
bir az dəyişibsən,
dəyiş təzədən.

Qaşların tarıma çəkilib yenə,
gir mənim qoluma, yenə çaş bir az.
Gözüm gözlərinə dikilib yenə,
bir az yadlaşıbsan,
doğmalaş bir az.

Sən mənim sözümdən incimə, küsmə,
İlləri həsrətlə yaşayıb ürək.
Yanına gəlmişəm... evə tələsmə,
gedək, yaşıl söyüd durumu görək?!

## Deyirlər tanış ol...

Elə dayanırsan, elə baxırsan
elə bil qarşında quru bir daşam.
İpək saçlarını bir vaxt oxşayan
elə bil hardasa mən olmamışam.

Səni dostlarımla, tanışlarımla
mən tanış edərdim nə vaxtsa bir-bir.
İndi özgələri yad ehtiramla
deyirlər tanış ol...
nə qəribədir?!

Yuxuda görərdin nə vaxtsa hər dəm
yolumu gözlərdin yollardan uzaq.
Mən sənin yuxundan çıxıb gəlmişəm,
bu da bir yuxudur, gəl, tanış olaq.

Qoluna girərdim... bu, yadındadır,
gedərdik... yolumuz, arzumuz şərik.
Qolum qollarının lap yanındadır,
toxunsa, biz indi üzr istəyərik.

Hayanda oldumsa səhər, ya axşam,
aradın sən məni, gördün sən məni.
İndi gözlərinin qabağındayam,
hayanda durum ki,
görəsən məni?

## Biz ki, istəyirik

Bizim görüş yeri xəstəxanaydı
yatırdı, soruşdum, yox idi kefi.
Daha mən ataydım, o da anaydı,
mənim öz ailəm, onun öz evi.

Görüşüb əyləşdik burda üz-üzə
söhbət eləməyə söz axtarırdıq.
Düzü, mat qalmışdıq bir-birimizə –
ocağı söndürüb köz axtarırdıq.

İndi öz bəxtimiz, öz taleyimiz,
bu görüş ilk eşqə son hörmət idi.
Otaqda yanaşı əyləşməyimiz
həyatda ayrılıq əlamətiydi.

Dünyada sevgi də, məhəbbət də var.
amma, əvvəlcədən söz demək olmur.
Dünyada elə bil bir qismət də var –
eh, bəlkə
qismətdən çox yemək olmur?!

Qulaq as efirdən gələn bir səsə –
"Səadət hər kəsin öz əlindədir".
Səadət hər kəsin öz əlindəsə,
Bizim çəkdiyimiz iztirab nədir?

Deyirlər, dağ çapar insan istəsə,
dünyanın əzəli qanunu budur.
Biz ki, istəyirik,
amma nə isə,
dünyada yenə də biz deyən olmur.

O baxır üzümə gözündə həsrət,
tutulub buludlu bir səhər kimi.
Yaşayır dünyada bir ilk məhəbbət
atalı-analı yetimlər kimi.

## Fikir eləmə

Sən fikir eləmə, gözəldir həyat,
nə qədər mən sağam, fikir eləmə.
Bu gün yanındayam, sabah hardasa,
demə mən uzağam, fikir eləmə.

Sən fikir eləmə, yeri qar alsa,
göyü bulud örtüb dumanlar alsa.
Mən odam-ocağam, fikir eləmə
Yenə yanacağam fikir eləmə.

Sən fikir eləmə heç vaxt dünyada,
mən getsəm, sən qalsan... ayağın altda
onda da torpağam, fikir eləmə,
Orda da dayağam, fikir eləmə.

## Tələsmə

Dedim: Mən sevirəm, dedi: Sevginən,
dedim: Qoşa gəzək, dedi: Tələsmə.
Dedim: Bağ içidi, dedi: Seyr elə,
dedim: Bir gül üzək, dedi: Tələsmə.

Dedim: Bir vədə ver, xəyala varma,
dedi: Zəhmət çəkib özünü yorma.
Dedim: Qadan alım, dedi: Yalvarma,
dedim: Onda küsək, dedi: Tələsmə.

Dedim: Mən aşiqəm al yanağına,
dedi: Bülbül qonar gül budağına.
Dedim: Üzük taxım qoy barmağına,
əhdi-peyman kəsək, dedi: Tələsmə.

## Bu da bir zarafat

Əh, bir vaxt evləndik,
qaynadıq, qarışdıq
küsüşdük-barışdıq
Sən demə, hamısı zarafat.
Dəyişdi səmtini
suların axarı
Yuxarı-aşağı,
aşağı-yuxarı.
Qarışdıq çəməndə
güllərin ətrinə.
Dəydik də arabir
sən mənim xətrimə,
mən sənin xətrinə.
İncikli yaşadıq
bir evdə
üç saat,
beş saat...
Axırı yenə də zarafat.
Bir evdə olmasa zarafat,
dağılar o həyat
uçular o həyat.

Qız oldu ilkimiz
böyütdük ikimiz,
Özümüz böyüdük bir az da.
Beləcə dəyişdik
zarafat-zarafat, –
sən ana, mən ata.
Sonra da oğlumuz –
Oğul da
başqa bir arzumuz.
Yaşadıq gah ona,
gah buna muğayat.
Qalxdılar,
uzandı boyları, maşallah, –
bu da bir zarafat.
Saçlara yavaşca dən düşdü
dağlara çən düşdü,
dağlardan
bir duman endi də.
Tanınmaz olduq biz
tanına-tanına –
beləcə dəyişdik indi də.
Gözəldir yaşamaq,
Gözəldir bu həyat.
Heyif ki,
hamısı xəbərsiz,
hamısı bir anlıq;
eh, səni hardasa
nənəlik gözləyir,
məni də babalıq.
Bu boyda zarafat?!

## Bəxtəvər oldu

Aşkara sevdim səni,
pünhan gəzdin hər dəfə
Canım oduna yandı,
can demədin bir dəfə.

Yüz yol sizə buruldum,
yüz yol getdim izinlə.
Gözüm yolunda qaldı
baxmadın bir gözünlə.

Adımız qoşa çıxdı,
hamıya xəbər oldu.
Özüm odlara yandım,
Adım bəxtəvər oldu...

## Gül bir az

Mən bilirəm xatirinə dəyiblər,
unut, mənim xatirimə gəl bir az.
İşdə sənə nə deyiblər, deyiblər,
evə gəldin, danış bir az, gül bir az.

Bu dünyanın nadanı var nə qədər!
Ürəyində nə qəm olsun, nə kədər.
Torpaqdan da az tapılır incilər,
qızıl bir az, almaz bir az, ləl bir az.

Söz var, desən köçürülər, yazılar,
söz var yaxşı, söz var yaman yozular,
ürəyimiz yaralanar, pozular
öz sözünü bilməyəndə dil bir az...

## Lirik parça

Salsa kölgəsini yollara bulud,
yanından ötsə də, sən məni yad et.

Günəşi ağ bulud, ya qara bulud
bir anlıq örtsə də, sən məni yad et.

Qulağın qəfildən bir səsə düşsə,
o, mənim səsimdi, sən məni yad et.

Səhərin mehiylə alnın öpüşsə,
mənim nəfəsimdi, sən məni yad et.

Alışıb yanacaq üfüqdə könlüm,
o yolda, o izdə sən məni yad et.

Nə qədər səhər var, Günəş var, gülüm,
dünyada mənsiz də, sən məni yad et.

## Yaşa dünyada

Yenə də gözlərim gözündə qalıb,
gördüyüm mənaya qurban olaram.
Əgər həqiqətsən, mən həqiqətə,
röyasan, röyaya qurban olaram.

Söhbətin şirindi, gülüşün təzə
Saldın ürəyimi eşqə, həvəsə.
Sən ayaq basdığın o yola, izə,
çəmənə, səhraya qurban olaram.

Çatsın hər muradın başa dünyada,
bir arzun dəyməsin daşa dünyada.
Bu dünya gözəldi, yaşa dünyada,
sən olan dünyaya qurban olaram.

## Mənə elə gəlir

Mənə elə gəlir görüşəcəyik,
uzun sürməyəcək bu həsrət, bu qəm.
Sonra təəssüflə gülüşəcəyik,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, mənim çiçəyim,
gedər küsümüz də bir dəfə görsəm,
genişdir, böyükdür sənin ürəyin
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, haraya getsən
gözündə, könlündə yalnız tək mənəm.
Sən məni unuda bilməyəcəksən,
sənə necə gəlir... onu bilmirəm.

Mənə elə gəlir, yaşamaq olmaz,
Günəşsiz, havasız – belədir aləm.
Həmdəmsiz çətindi.... söz çox, ömür az,
sənə necə gəlir... onu bilmirəm.

*Deyirdin dözərəm yarsız,*
*Döz, bağrı daş olan könlüm.*
*(A.Tufarqanlı)*

## Dözüm

Sən məni bu qədər gözlətməmişdin,
belə qoymamışdın gözümü yolda.
Bu qədər özünü gizlətməmişdin,
gizlənpaç oynayan vaxtımızda da.

Hayana getsən də, dönmüşdün yenə,
qayıdıb gəlmişdin mənsiz darıxıb.
Bu dəfə bilmirəm nə olub sənə,
gedibsən, qayıtmaq yadından çıxıb.

Qalıb evimizdə palın-paltarın,
tələsik gedəndə kimə deyibsən?!
Qapının ağzında başmaq tayların,
yolda ayağına bəs nə geyibsən?!

## Ay yaşıl söyüd

O, burdan gedəli
mən bura gəlmirəm.
Soruşma niyə bəs?
Bilmirəm, bilmirəm, ay yaşıl söyüd.

Gəlibmi, gedibmi
yanına o mənsiz?
Sən onsuz özgəsən,
yad olub o, sənsiz, ay yaşıl söyüd.

Yağışlar yağanda
yığardı ovcuna
O sənin saçını,
mən onun saçını, ay yaşıl söyüd.

Yanına qaçardıq
gülüşə-gülüşə.
Yıxıla-yıxıla
sürüşə-sürüşə, ay yaşıl söyüd.

Küsülü gülüşü
düşürmü yadına?
Saçların tökülüb
ayaqlar altına, ay yaşıl söyüd.

Küləklər necə sərt *
əsərmiş, ay aman!
Mənəmmi pərişan,
sənsənmi pərişan, ay yaşıl söyüd?..

* Bu dördlük yalnız mahnı variantında var.

# Kaş...

Kaş yenə mən deyən illər olaydı
mən oldum bir yana, illər bir yana.
Nə vaxt saçlarını daradı, yaydı
küləklər bir yana,
əllər bir yana?

Nə vaxt ürəyimi mən sənə açdım?
Əgər sən susursan, qoy illər desin.
Əvvəl vaxt tapanda yanına qaçdım,
sonra... səndən qaçdım, vaxtım itməsin.

Beləcə yellərə verdim illəri,
aylara, illərə verdim illəri.
Mən vaxtı itirdim səndən ötəri,
mən səni itirdim vaxtdan ötəri.
İtirə-itirə pozuldu nəşəm,
özüm itirmişəm...
heç bilməmişəm.

Yaşım gör illərin harasındadı,
illər mehvərimdən qoparır məni.
Ürəyim əvvəlki sevdasındadı,
dünya qayğılara aparır məni.

## Niyə getdin?

Bir qara göz görəndə
Gözünə bənzətmişəm.
Bir gülər üz görəndə
Üzünə bənzətmişəm.

Gözləməyib getdin sən
Darıxıb yandı könlüm.
Gəl, səni gözləyirəm,
De, niyə getdin, gülüm?

İndi vaxtında hər gün,
Mən keçirəm o yerdən.
Səni kimdən soruşum,
Kimdən xəbər alım mən?

## Ömrümün yazısan

Sən gözəl ömrümün baharı, yazısan,
Bu sevən könlümün söhbəti, sazısan.

Qoy dönüm, dolanım başına, yar, sənin,
Düz əhdin, düz eşqin, düz sözün var sənin.

Gül, danış fərəhlə, qoy gülək sevinək,
Hər sözün, söhbətin əzizdir canımtək.

Bir hicran, bir ağrı görməsin qəlbimiz,
Bu gözəl dövranda sevilək, sevək biz.

## "Gəzəyən qız"

Səni görübdülər dağüstü parkda
Gün bir az aşağı əyilən vaxtda
Kinodan çıxanda görüblər səni,
Kimsə ötürəndə görüblər səni.
Sonra bir avtobus duracağında
Sonra bir metronun çıxacağında
Sonra bir taksiyə mindiyin yerdə
Sonra da evə gec döndüyün yerdə
Haraya gedibsən göz qoyubdular
Adını "gəzəyən qız" qoyubdular.

Məni gözləyibsən dağüstü parkda
Gün bir az aşağı əyilən vaxtda
Səni o kinoya mən aparmışam
Özüm ötürmüşəm sonra qadası.
Od tutub yanağın, üzün yanmasın
Yenə görüşmüşük gedib bir axşam:
Əvvəl bir avtobus duracağında
Sonra bir metronun çıxacağında
Sonra bir taksiyə oturmusan sən
Mənim görüşümə gecikdiyindən.
Özüm saxlamışdım bir dəfə səni
Bir az gec ötürdüm mən evə səni.
Gör necə yerbəyer, necə adbaad
Məni görməyiblər,
Ay dadi-bidad.

## Sənsən həyatım

Ay sevgilim, çağır məni,
Gəlim sizə qonaq olum.
Əsim səhər mehi kimi,
Saçında daraq olum.

Sevgilim, küsmə gəl,
De bir, nədir günahım?
Ümidimi üzmə gəl,
Təkcə sənsən pənahım.

Durulum dağ gölü kimi *
Çağlayım yaz seli kimi
Əsim səhər yeli kimi
Saçında daraq olum.

* Bu dördlüklər yalnız mahnı variantında var.

Sevgilim, sevirəm,
Sənsən qanadım mənim.
Sevgilim, sevirəm
Sənsən həyatım mənim.

Qələm olsam, varağım ol,
Susuz olsam, bulağım ol.
Sən evim ol, otağım ol,
Mən yanan çıraq olum.

Mən qurbanam sevincinə *
Qəsd eyləmə bilə-bilə,
Ay insafsız, insaf elə,
Bir gün sizə qonaq olum.

## Sağ canımda ağrıyan yerim

Evdə bir ocağın odu-közüydük
Soyuyub əzəlki isti yerimiz
Evdə tərəzinin iki gözüydük
Daş birimiz idik, pərsəng birimiz.

Bədənin bənövşə nəfəsli çiçək
Nəfəsin ətirli yaz havasıydı
Üzün mərmər kimi, qar kimi göyçək
Qucağın yeganə eşq dünyasıydı.

Dolub-boşalıram vaxt olur hərdən
Elə bil xətrimə evdə dəyən var
Nə gecə yatanda üstümü örtən
Nə gündüz yananda "çay iç" deyən var.

Əl-ələ yüyürdük, əl-ələ qaçdıq
Əl-ələ yaşadıq baharda, yazda
Bağlı qapıları əl-ələ açdıq
Əlimiz üzüldü öz qapımızda.

Bilmədim üzünə kim yaman deyib?
Yaxşını doyunca biz heç görmədik
Yüz il yaşamağa and içdik, heyif
Əslində yüz saat sevinc görmədik.

Nisgilli bir ad var, sənin adındı
Könül bağlamışam mən də bu ada
Dünyada ən böyük itki qadındı
Gördüm anamda da, qadınımda da.

Evin yiyəsiydin, indisə torpaq
Sənsən sağ canımda ağrıyan yerim
Çöldə qalmaq olmur, evdə yaşamaq
Nə gedən yerim var, nə qalan yerim.

## Qadına məktub

Sizin qızınızla görüşürük biz,
Gedirik gah yolla, gah kənar izlə.
Bunu mən bilirəm, siz bilmirsiniz –
o gəlir sizin öz icazənizlə.

Tələbə yoldaşı, rəfiqəsi var,
İşi də çox olur, bəzən dərsi də.
Mənəm, qızınızın, necə deyərlər –
"Tələbə yoldaşı", "rəfiqəsi də".

Mən başa düşürəm, siz anasınız,
Ürəyə sığışmır adi həyəcan.
O, evə dönüncə nigaransınız
Evdə olanda da mənəm nigaran.

Bir ömrün mənzili uzun, ya qısa...
Məhəbbət, doğmalıq - hansı qədimdir?!
O, sizin adicə qızınızdısa,
O, mənim yeganə səadətimdir.

Siz də heyransınız, mən də bir qıza,
Kimin qapısından o, girməlidir.
Dünya elədir ki, biri tapırsa,
Biri... təbiidir, itirməlidir.

Duruluq rəmzidir sizin qızınız,
Gözündən oxunur qəlbi, istəyi.
Sizin bu sevdada uduzmağınız
Sizin borcunuzdur, mənim qismətim.

Sizin adınıza hörmət, ehtiram,
Qadın qarşısında baş əyib aləm.
Mən də baş əyirəm, vidalaşıram –
Qızınız gələcək, mən getməliyəm.

## Nərdivan

Bu dünya nərdivandı –
Qalxanda mehribandı,
Enəndə nə yamandı...
Görüşdük pillələrdə,
Yolun yarısında biz.
Sən qalxırdın bu dəmdə,
Mən enirdim xəbərsiz.
Səni arzularına
Qaldırırdı nərdivan.
Məni xatirələrə
Endirirdi bu zaman.
Birimiz - günçıxana,
Birimiz - günbatana.
Qalxa bilməzdim daha,
Nə o güc, nə o taqət.
Sən də enə bilməzdin –
Haqlı, haqsız vermişdi
Öz hökmünü təbiət.
Gərək ya düşməyəydi
Bu görüş heç araya,
Ya sən əvvəl gələydin,
Ya mən sonra dünyaya.

## Düşüb

Küsüb bir dünya gözəli,
Sükutu dünyaya düşüb.
Bir yol "Ayüzlüm" demişdim,
Qalxıb indi Aya düşüb.

Əlimdən bir ceyran çıxıb,
Ceyran, canımdan can çıxıb,
Mirvari dəryadan çıxıb,
Təzədən dəryaya düşüb.

Onu yerbəyer eləyin,
Məni dərbədər eləyin.
Məcnuna xəbər eləyin –
Nəriman səhraya düşüb.

## Sevgi miniatürləri

**Mən səni sevdim ki yoldaş olasan**
Həyatın ən ağır, dar yollarında
Demədim axırda bir daş olasan
Qədim qəbristanda, yol kənarında.

Mən səni sevdim ki yüyür, qaç, oyna
Yenə seçilməsin ətrin bahardan
Demədim təzədən gizlənpaç oyna
Axşam yuxuma gir, səhər qaç ordan.

***

**Budaqları başım üstə yellər əyirdi,**
Yerlər, göylər sevincimə göz qoyurdular.
Günəş sənin xatirinə gülümsəyirdi,
Quşlar sənin xatirinə oxuyurdular.

Dünya bir az nağıl idi, bir az həqiqət,
Məhəbbətə səsləyirdi bu məna məni.
Belə gözəl, belə qəşəng, belə qiyamət
Nə dünyanı mən görmüşdüm, nə dünya məni.

***

**Darıxma, sənə qurban**
Gülüm, gülüşüm mənim
Saçı - sapsarı qızıl,
Üzü - gümüşüm mənim.

***

**Üstünə qəm yerisə**
Qarşıla gülə-gülə
O gülüşü mənə də
Aşıla gülə-gülə.

Qəm-üzündə lalədi
Saçların şəlalədi
Qəm də bir piyalədi –
Nuş elə gülə-gülə.

Qoyma xətrinə dəysin
Qəddini kədər əysin
Rəqibin qara geysin –
Qəşş elə gülə-gülə.

***

**Məhəbbət qaranquş yuvası qurur**
O da ilham kimi qısqancdır, gülüm.
Məhəbbət – ürəkdən ürəyə yoldur
Ürək də ürəyə möhtacdır, gülüm.

***

**Tək çəkə bilmirəm can əzabını**
Sənsiz ürəyimi əzir ayrılıq
Mən zəngi basanda sən aç qapını
Bəxtimə çıxıbsan, qarşıma sən çıx.

Tək sənin səsinə həsrətəm evdə
Susub dinləsəm də dostu-tanışı.
Oğul-qız yanında mən təkəm evdə
Başqadır həyatda həyat yoldaşı.

***

**Mən bir xəcalətdən çıxa bilmədim**
Bu gizli dərdimi açıq desəm də.
Sənə sənə layiq baxa bilmədim
Səni sənə layiq dəfn eləsəm də.

Yerə söykədilər mərmər üzünü
Yalvardım "dayanın", əl saxladılar.
Mən özüm örtərdim evdə üstünü
Burda, qəbristanda torpaqladılar.

Gözüm yolda qalıb, qulağım səsdə,
Gedibsən, qalmışam mən qonaq kimi.
Sən yerin altında, mən yerin üstə –
Biz ayrı düşmüşük kök-budaq kimi.

***

**Mən öz dediyimdən üzdə dönmədim** –
Üzdə çəkdiyimi saldım içəri.
Səni sevdiyimi sənə demədim
Yuxuda ağladım səndən ötəri.

***

**Sən ey gözəllik Tanrısı**
Nə xoşdur ömrün mənası
Sənin qolların arası
Küsüb-barışmaq yeriymiş.

***

**Yetim bir uşaqdı kişi qadınsız**
Mən bir uşaq dedim...tək uşaq olmur –
Zaman qorxuludur, ömür vəfasız
Dünyada tək qalıb yaşamaq olmur.

***

**Oxşa saçlarımı, səpil ruhuma,**
Sənə yaxın olum, dünyadan uzaq.
Qaldır dabanını, sarıl boynuma,
Qoy sükut danışsın, ikimiz susaq
Sənə yaxın olum, dünyadan uzaq.

Döyüş meydanıdır qədimdən həyat,
Bəzən yaralayır, mən də insanam.
Təbibsiz-dərmansız sən məni sağalt
Əyləndir xoşüzlə məni bu axşam.
Sənə yaxın olum, dünyadan uzaq,
Qoy sükut danışsın, ikimiz susaq.

# Xəlil Rza Ulutürk

(1932-1994)

## Yadındamı?

Yazdığın məktubu, yadında varmı,
Təzədən köçürdün... köhnəni atdın?!
Mən yerdən götürdüm o yarpaqları,
Götürdüm, dar gündə dadıma çatdı.

Sənin əlin dəyən, nəfəsin dəyən
Cümlələr, sətirlər, sözlər, hərflər,
Hətta vergülün də, inanmırsan sən*
Əzizdir mənimçün cüt gözüm qədər.

Hardasan, ey mənim bəxtimin qızı,
Mən möhkəm durmuşam sözümün üstə,
Gərəksiz bildiyin köhnə kağızı
Öpürəm, qoyuram gözümün üstə.

---

* Bir çox nəşrlərdə bu misra yarımçıq qalıb.

## Əlini mənə ver

Kim bilir, bəlkə də tab eləməzdim
Bunca sitəmlərə, bunca qəmlərə,
Günlərin bir günü rast gəlməsəydim
Hüsnündə gül açan təbəssümlərə.

Alov kürəsindən çıxan sözlərin
Əritdi nə qədər qaya buzları.
Qırdıq tilsimini məsləksizlərin,
Vaxtında tanıdıq dələduzları.

Zövq ilə yaradıb bu dünya bizi,
Haça budaq kimi ömrümüz şərik.
İtirsək hardasa bir-birimizi
Hardasa yenidən birləşəcəyik.

Əlini mənə ver, bala tərlanım!
Ən ulu zirvəni məskən seçərik.
Dağları dağıdan min-min tufanı
Biz qanad-qanada yanıb keçərik!

Sənin qulağında qar sırğaları,
Mənim üz-gözümdə şaxtalardan iz.
Bütün çovğunları, qasırğaları
Susdurar baharı doğan qəlbimiz.

Məni qorxutmayır nə cəng, nə hədə,
Nə qoca dünyanın ölüm-itimi.
Əzrayıl canımı ala bilsə də,
Ala bilməyəcək məhəbbətimi.

Onlar yalan deyir: – Dayan ölüm, qan…
İnsan köməksizdir, insan tayqanad.
Baxıb gözlərinə qışqırdı könlüm:
"Gözəldir yaşamaq, gözəldir həyat!"

## Açmaram bu sirri

Sən bir göyərçintək sığın qoynuma,
Dinlə ürəyimdən gələn səsləri.
Qanadlan Günəşə... sarıl boynuma,
Heç kəsə açmaram, inan, bu sirri.

Heç kəsə açmaram bu sirri, gülüm,
Bircə alov tutan dodaqlar bilər.
Bircə bu xoş gecə, bu aylı dəniz,
Könül həmdəmimiz bu bağlar bilər.

Böyük qız olsan da, körpəmsən mənim,
Dənizəm, köksümdə ləpəmsən mənim.
Mən eşqin ümmanı, sən eşq əsiri,
Üz, gülüm, açmaram inan bu sirri.

Heç kəsə açmaram bu vüsalı mən,
Bircə şaqırdayan bülbüllər bilər.
Bircə bu dünyada sevib sevilən
Mehriban, işıqlı könüllər bilər.

Enək sahillərə dan söküləndə,
Tufanla, dənizlə, göylə baş-başa.
Axsın qəlbimizdə bütün ulduzlar,
Bütün çiçəklərə edək tamaşa.

Heç kəsə açmaram, inan, bu sirri,
Bircə al günəşli gündoğan bilər.
Bircə eşqimiztək əbədi, böyük
Bu kainat bilər, bu cahan bilər.

## Yağışlar yağanda...

Mən sizə yağışlar yağanda gəldim,
Gülüm, yadındamı o gün, o axşam?
- Buyur ağ suların yağışında çim,
Hər damla bəlkə də müqəddəs bir şam.

Gülüm, heç bilmirəm, yağışlarınmı,
Ya sənin nurundan ovsunlanmışam?
Məni döyəcləyən baxışlarınmı,
Yoxsa göylər boyda saf bir ehtişam?

Bir cam su istədim, getdin, gətirdin,
Ağappaq donunda ağ bir xəyaldın.
O suyu bəlkə də özün kimi saf,
Bakir buludların ovcundan aldın?!

Mən sizə yağışlar yağanda gəldim,
Başımdan tökülən büllurdu, nurdu.
Sənin özün qədər təzə, pakizə
Səma yuyunurdu, yer yuyunurdu.

Necə yuyunurdu buludlar, otlar,
Necə yuyunurdu çəmən, bağ-bağat.
Səni görmək üçün, bəlkə, ey nigar
Təzədən yaranır həyat, kainat.

Axı sən kim idin? Qabıqsız badam,
Yoxsa ürəyimdən keçən arzu, kam?
Bəlkə də dünyada ən munis adam,
Bir azca sevgilim, bir azca balam?

Mən sizə yağışlar yağanda gəldim,
İldırım axırdı Əsrik çayında.
Bəlkə ildırım yox, qəlbimdi, qəlbim
Çarpan ağ suların hay-harayında?!

Mənə bəxş elədin heç bilsən nəyi?
Soruş, ey göylərin yeddinci qatı:
O incə, o ipək ağ əllərində
Çimib günəşlənən bu kainatı.

Çimib gözəlləşən aləm yepyeni...
Xəbərin varmı heç, söylə, ey sənəm,
Sənin o alovlu sərinliyini
İçdikcə doymayan çinarlar mənəm?!

Mən sizə yağışlar yağanda gəldim,
Qıyarammı deyəm sən bağrı daşsan,
Mənim canımdakı cəhənnəmlərə
Beş, üç damla atıb ötən yağışsan?!

Mən sizə yağışlar yağanda gəldim.

## Səadət qorxusu

Hər yaxşının, hər yamanın
Bir əvvəli, bir sonu var.
Mən qorxuram səadətdən,
Mən qorxuram bir az, ey yar!

Hər yoxuşun bir enişi,
Hər enişin yoxuşu var.
Mən qorxuram dağ başından,
Mən qorxuram bir az... ey yar!

Hər sevincin, səadətin,
Hər qəhrəman məhəbbətin
Sonunu görməmək çətin,
Çətin bir az, çətin, ey yar...

Mən qorxuram ağ bəxtimin
Bu qədər ağ olmasından;
Mən qorxuram sevgimizin
Bu qədər saf olmasından.

Rayihəndən məstəm özüm,
Hənirindən yanar üzüm.
Hər yarpaqda gülümsəyən
Səadətə necə dözüm?!

Mən qorxuram, canım-gözüm...
Təkcə mənim qəlbimə yox,
Dünyalara işıq saçır
Gözündəki xoş təbəssüm!

Mən qorxuram, canım-gözüm,
Haraylaya bacıların,
Sən gedəsən, qoşulasan
Pərilərə, mələklərə –
Göylər qızı ömrü boyu
Bağlanarmı məgər yerə?

Mən qorxuram...
– Qorxma, ey dost!
Qorxsun ucuz məhəbbətlər,
Üzəvari sədaqətlər.

Biz nə üçün qorxmalıyıq,
Məgər qaya, yoxsa daşıq?
Eşq adlanan bir gövhəri
Bu dünyanın özəyindən qoparmışıq.

Biz nə üçün qorxmalıyıq?
Biz ulduzlar qarşısında
Alnıaçıq, üzüağıq!
Bir süfrədə çörək kəsən,
Şeir oxuyan qabaq-qənşər
İki dağıq!

– Mən qorxuram, canım-gözüm,
Axı hər dağ zirvəsinin
Dəniz dibi olması var,
Hər qönçənin açılması,
Gözəlliyə tac olması,
Yavaş-yavaş solması var.

– Qorxma, ey dost!
Nə qönçəyik, nə də quşuq,
Yer cilidli, göy cilidli
Bu kitabı oxumuşuq.

Biz nə üçün qorxmalıyıq?
Qorxsun eşqə xəyanətlər,
Kimsə birdən "Xox!" deyəndə
Öləziyən, soluxcayan dəyanətlər.

Qorxsun kəmlər, kəmfürsətlər,
Neçə cildə girə-girə
Çələng çalan, ünvan alan
Yüzsifətlər, minsifətlər,
Nəfsi diri, özü ölü,
Üstü bəzək, içi təzək səltənətlər!

Biz nə üçün qorxmalıyıq?
Yer adlanan bu ulduzdan
Marsa doğru çapan atıq,
Qum deyilik, kainatıq!

–Yetər daha!
Mən qorxuram, ömrüm-günüm,
Sənin qaymaq sözlərinə
Qoy bal kimi mən bükülüm.

– Mən qorxuram!
– Qorxma, gülüm!
Bizə yaxın düşə bilməz
Heç bir əcəl, heç bir ölüm!

## Eşitsəm gəlirsən

Eşitsəm gəlirsən, dönərəm yelə,
Öpərəm mübarək qədəmlərini.
İçərəm bənövşə kirpiklərindən
Asılan mirvari şəbnəmlərini.
Öpərəm mübarək qədəmlərini.

Eşitsəm gəlirsən, uçaram, inan,
Pənbə buludlarla qucaqlaşaram.
Açaram köksümü yeddi iqlimə
Dəli çaylar kimi aşıb-daşaram
Pənbə buludlarla qucaqlaşaram.

Elə bir gülsən ki, ömür bağımda
Səni nəfəsimlə bəsləmişəm mən.
Qönçə bağlamısan göz qabağımda,
Səni dan yerimdən səsləmişəm mən
Səni nəfəsimlə bəsləmişəm mən.

Eşitsəm gəlirsən, çıxaram yola,
Bütün yollar boyu güllər əkərəm.
İkimiz bir qəlbdə yaşayaq deyə
Sənə qəlbim boyda bir ev tikərəm
Bütün yollar boyu güllər əkərəm.
Mən – evəm, sən mənim od-ocağımsan,
Bağbanam, sən mənim barlı bağımsan
Mən dağ bulağıyam, sən bulaqlı dağ,
Dünyadan ən böyük umacağımsan.

Ürəyim o qədər yanğılıdır ki,
Az qala qanadlı bir quşa dönəm.
Sənin tellərinə düzülmək üçün,
Yağışa, zümrüdə, daş-qaşa dönəm,
Az qala qanadlı bir quşa dönəm.

Gurşadla, baharla, ya qatarla gəl!
Hər bir qədəmini könlüm izləyir.
Yüz-yüz, milyon-milyon dalğalarla gəl,
Səni sahildə bir qaya gözləyir,
Hər bir qədəmini könlüm izləyir!

**Tut mənim əlimdən, buraxma, gülüm,**
İtərəm, bitərəm, çəmən olaram.
Qoşulub gedərəm ağ buludlara,
Uzaq dəryalarda yelkən olaram.

Bərk tut əllərimdən, buraxma, gülüm,
Bilirsən könlümün qeylü-qalı var.
Bir dəli köhlənin yatıb belinə
Qitələr dolanmaq ehtimalı var.

Kiçik, ağ əlinlə ürəyimi tut, –
Ürəyim nəhrlər axımındadır.
Köklərim torpağın yeddi qatında,
Əllərim ulduzlar salxımındadır.

Mənə səma boyda qəlbində yer ver,
Bütün Yer üzünü gəzək əl-ələ.
Özün bilirsən ki, taparam səni
Simurq qanadında gizlənsən belə.

Xəyyam da məndədir, Hafiz də məndə,
Vaqif sevgisiyəm, Sabir səsiyəm.
Bütün Tanrıları yığ, kənara qoy,
Bütün Tanrıların birləşməsiyəm.

Nə gözəllik ölmüş, nə qəhrəmanlıq,
Sağdır Kərəm eşqi, Məcnun eşqi sağ.
Hansı Fərhad isə süd arxı üçün
Hansı bir dağısa parçalayacaq.

Sən Kürsən, mən sənə can atan Araz.
Qaynayıb qarışaq, axaq qol-boyun.
Mən gümüş kəhkəşan, sən göz-göz ulduz,
Ayla Gün qızımız, oğlumuz olsun.

Açıqdır ürəyim on bir iqlimə,
Nə istər? Aşmağa uca dağ istər.
Bütün əsrlərdə, səyyarələrdə
Səninlə qol-boyun yaşamaq istər.

## Saçları şəlalə qız

Sən gəlmisən evimə,
Sən gəlmisən bu axşam.
Mən öz səadətimə
Özüm heyran qalmışam.

Bu zərli paltarında
Sanki qızıl laləsən.
Sən mənim ürəyimdə
Coşğun bir şəlaləsən.

Balaca bir otaqda
Sonsuz göylər açılmış.
Gecənin qucağında
Sanki səhər açılmış.

Yanan dodaqlarımda
Bir sərin piyaləsən.
Gözləri bir cüt ulduz
Saçları şəlaləsən.

**Mən bilirdim bu günüm bir yeni dövran olacaq,**
Bir qaragözlü gəlib ruhuma sultan olacaq.

Dəli könlüm alışır, bəlkə Səməndər quşuyam?!
Canı canan diləsə, verməyim asan olacaq.

Aman Allah, yerişə, qaşlara bax, gözlərə bax!
Bu görüşdən cahana od düşəcək, qan olacaq.

Səni mən səsləmişəm, bəsləmişəm bağrımda
Türk qızı göydən enib yerdə mənə can olacaq.

İzn ver bir də baxım nazlı, dəcəl gözlərinə,
Gör Xəlil, gör sənə, ey gül, necə qurban olacaq!

Sevənə zülm eləmək bizdə cinayət sayılır,
Görəsən bəs nə zaman bir belə fərman olacaq?

Dəyəcək gül qədəmin daxmamızın kandarına,
Daxmamız qəsr, saray, səmti-gülüstan olacaq.

Oğlumuz, qızlarımız Ayla Günəş, ulduzlar,
Əllərin çiynimə qonsa ana tərlan olacaq.

Ulutürk yer-göyü səslər böyük eşq aləminə,
Düşəcək dillərə eşqi, yeni dastan olacaq.

## Sevgi miniatürləri

**Ey doğma, əziz məktubu imzalayan əllər,**
Ey min yaramın məlhəmi, Loğman, hayan əllər!

Çəkdim gözümə, gözlərimin şövqü qayıtdı
Hər cümlən ürəkdə cücərib qol-budaq atdı
Dar gündə mələkəm gəlib imdadıma çatdı
Yanmış çölə alqırmızı laləm kibi gəldin,
Nur dalğası, eşq Allahı, aləm kibi gəldin.

Mən – odlu cəhənnəm, sən – ətirli, təzə bir meh
Mən-göy, sən-işıq, qövsi-qüzehlərdəki min zeh
Mən şeh dilədim, yandı ciyər: birce ləçək şeh!
Bal şərbəti oldun ki...piyaləm kibi gəldin,
Nur dalğası, eşq Allahı, aləm kibi gəldin.

Hər cümləni, hər sətrini, hər cizgini öpdüm.
Yollarda qalan yorğunumu, üzgünü öpdüm.
Xəttin bir işıq güzgüsü, saf güzgünü öpdüm.
Dağdan tökülən yeddi şəlaləm kibi gəldin,
Nur dalğası, eşq Allahı, aləm kibi gəldin.

***

**Mən səni ömrüm boyu təbəssümlü görmüşəm,**
Gülümsər gözlərindən sevinc, fərəh dərmişəm.
Sənin səadətinə həyatımı vermişəm,
Bəs nədir bu hıçqırıq, göz yaşın almaz-almaz?
Canavarlar önündə, gülüm, ağlamaq olmaz!

Yanaqların islanıb... gözlərindən öpüm gəl,
Qırıq-qırıq, odnəfəs sözlərindən öpüm gəl.
Diz çökmədin nakəsə, dizlərindən öpüm gəl,
Gedər qış da, gələr yaz, bu dövran belə qalmaz,
Canavarlar önündə, gülüm ağlamaq olmaz.

***

**Sən mənim bəxtimə göylərdən enmiş**
İlahi bir gəlin, mələk bir qadın.
Neçə qüsurumun bircəsini də
Heç yerdə, heç vədə üzə vurmadın.

Mən sənə vəd ettim ağ gün, səadət.
Heç vaxt soruşmadın:- Vədin bəs hanı?
Cahanda ən böyük səadət bildin
Birgə udduğumuz təmiz havanı.

***

**Nəfəsində yaşar bahar,**
Dağ başından mənə baxar.
Kainatda ən bəxtiyar
Aşiqləriz, gülüm, indi.

Kirpiklərin şüa-şüa
Bərabərsən min qoşuna.
Döndüm səadət quşuna,
Səadətim göydən endi.

Sən bağrımda yanar atəş,
Bir əlin Ay, biri Günəş.
Möcüzəsən, bir fikirləş,
Ey dilimin duzu, qəndi.

Yaz mövsümü, gül fəslimi?
Necə qırdın min tilsimi?
Rübabımın sarı simi,
Cəngim, tarım, sazım dindi.

# Cabir Novruz
(1933-2002)

## Səni gördüm

Yel toxundu yarpaqlara
Nəğmə qondu dodaqlara
Durub baxdım uzaqlara
Səni gördüm, ay sevgilim.

Bir mehriban üz görəndə
Bir cüt qara göz görəndə
Qara xallı qız görəndə
Səni gördüm, ay sevgilim.

Tamarzılar gülüşəndə
Murazlılar görüşəndə
Evimizə gün düşəndə
Səni gördüm, ay sevgilim.

Ya özümdən küsəndə mən
Ya fikirli gəzəndə mən
Gözəllərin gözündə mən
Səni gördüm, ay sevgilim.

## Bir gül kimi

Elə qızlar peyda olub, ay aman,
Mat qalırsan üzlərinə baxanda.
Lap az qalır bir gül kimi taxasan
Hər birini gəzdirəsən yaxanda.

Bilmək olmur, mələkdilər, ya insan,
Hamısı da, dadlı, duzlu nainsaf.
Allahı da, Tanrını da danırsan
O ilahi gözlərinə baxanda.

Hərənin öz cazibəsi, sanbalı,
Məhəbbətdən yoğrulubdur qanları.
Bir də, min də baş əyirsən onlara
Başqa xalqın qızlarına baxanda.

Biz cavandıq, az idilər niyə bəs,
Ağlım uçur, ruhum çaşır deyəsən,
Az qalır ki, birisini sevəsən
Xoş günaha batasan bu çağında.

## Yetər hicran

Aylar idi, illər idi,
Yazdı bizim aramızda...
Bu nə soyuq yellər idi
Əsdi bizim aramızda...

Hanı o xoş günlər, hanı,
Bürümüşdü bu cahanı?...
Kimlər saldı bu qadanı,
Qəsdi bizim aramıza?..

Qoy çəkilsin çiskin, duman,
Gülsün sevgi, arzu, güman,
Yetər, bu ayrılıq, hicran
Gəzdi bizim aramızda...

Əbədidir eşq, məhəbbət,
Tükənməyən arzu, niyyət,
Bəsdi at çapdı bu həsrət,
Bəsdi bizim aramızda...

## Öyrənmişəm sənə gülüm...

Öyrənmişəm sənə, gülüm,
Çaylaq çayın daşına öyrəşən kimi...
Balıq suya,
Körpə ana döşünə öyrəşən kimi...

Öyrənmişəm sənə gülüm,
Hava kimi, çörək kimi.
Varlığımda sən hər günü
Döyünürdün ürək kimi...

Öyrənmişəm, gülüm, sənə,
Ömrüm kimi, peşəm kimi.
Quş səmaya, toyuq dənə,
Yer göyə öyrəşən kimi...

Öyrənmişəm, gülüm, sənə,
Şəkər olan iynəyə öyrəşən kimi...
Qədim Bakı sənə-sənə
Küləyə öyrəşən kimi...

## Məhəbbətdir bu dünyanın əzəli...

Məhəbbətdir hər bir şeyin əzəli,
Onsuz aləm əfsanədir, yalandır...
Ruhu, eşqi olmayandan, gözəlim,
Sən həmişə uzaqda gəz, kənar dur...

Gedəcəklər milyonları olanlar,
Gedəcəklər "Allah", "Tanrı" olanlar
Gedəcəklər dövlət, varı olanlar,
Tək sevənlər əbədilik qalandır...

Bir qaydadır əzəl gündən bu qayda,
Sevən kəslər sevənləri haraylar,
Məhəbbətsiz xərabədir saraylar,
Bütün ellər, məmləkətlər talandır...

Loğman kimi çox əsrdir, çox ildir
Eşq, məhəbbət ölənləri dirildir,
Məhəbbətsiz xalq bir bölük sürüdür,
Ona hava, ona çörək haramdır...

Mən nə edim, nə gəlir ki, əlimdən,
Sən dur, düşün götür-qoy et dərindən,
Aləm çıxsa məhvərindən, yerindən
Sənə bircə Cabir Novruz qalandır...

## Məhəbbət yaşa baxmır

Deyirsən ki, sevirəm,
Durmusan qarşımda sən
Mən orta yaşındayam,
Sən cavan yaşındasan.

Məhəbbət yaşa baxmır,
Müdriklər belə deyib.
Ah, bəlkə də belədir,
Bəlkə də belə deyil.

Kövrəlib dayanmışıq,
Bir körpə uşaq kimi,
Sən açan çiçək kimi,
Mən solan yarpaq kimi.

Birgə addımlayırıq,
Əzablı yollar ilə,
Mən gedən payız ilə,
Sən gələn bahar ilə.

**O qız sakit ömr edərdi bir zaman**
Varlığında od yandırıb gəlmişəm.

Dəyişibdir gözlərində dağ-orman,
Qəlbindəki buzu qırıb gəlmişəm...

O bilməzdi həsrət, küsü, həyəcan,
O yatanı oyandırıb gəlmişəm...

Sökülübmüş sevgi evi nagahan,
Mən o evi təzə qurub gəlmişəm...

Daxilində cücərtmişəm min güman,
Ürəyini nurlandırıb gəlmişəm...

Başına da göz dəyməsin, ay aman,
Hey üzərrik dolandırıb gəlmişəm...

Məhəbbətsiz ölü candır hər insan,
Onu buna inandırıb gəlmişəm...

**Görüşdük Tanrının elə var günü,**
Biz ki, uşaqlıqdan sənlə tanışıq.
Nə bir yol söylədin qəlbindəkini,
Nə bir eyham vurdun, nə söz danışdın.

Ağzından çıxmadı bircə kəlmə söz
Səni atan, anan ərə verəndə.
Səni məhəbbətsiz, eşqsiz, sevgisiz
Bir varlı-dövlətli yerə verəndə.

Tamam oğurlayıb, tamam soydular
Qızıllar, gümüşlər içində səni.
Bir un çuvalıtək alıb qoydular
Soyuq bir otağın küncündə səni.

İlk sevgi məktubun əsir əlimdə,
Ona cavab yazmaq necə çətindir.
De, indi nə gələr mənim əlimdən,
Söylə, nə eyləyə bilərəm indi?...

Necə sərt olurmuş zamanın üzü,
Ay hələ ilk eşqi cavan, əzizim.
On səkkiz yaşında deməli sözü
Mənə qırx yaşında yazan, əzizim.

Hər şeyin öz fəsli, öz ətri olur,
Təzədən cavanlıq bizə yaraşmaz.
Hər şey öz vaxtında qiymətli olur,
Yersiz qəhrəmanlıq bizə yaraşmaz.

İllər yolumuzu çəpərləyibdir,
Qocalıq atını yəhərləyibdir.
Daha qanadımız yoxdur uçmağa,
Hamımız ailə dərdi-sərində.
Sənin iki balan, mənim üç balam,
Bütün həyatımız talelərində...

Müxtəlif yolların yolçularıyıq,
Yaxınlar necə də uzaq olubdur.
Bizim ömrümüzün yolunda artıq
Atalıq adında bir dağ durubdur,
Analıq adında bir dağ durubdur...

İlk sevgi məktubun əsir əlimdə,
Ona cavab vermək necə çətindir.
Eh, indi nə gələr mənim əlimdən,
Eh, özün nə edə bilərsən indi...

## Əvvəl sevənləri qoru, a dünya

Məhəbbət dərindən-dərində olur,
Dayazda məhəbbət olmur heç zaman.
Hər könlün ən gizli yerində olur,
Axır hər bədənin qan damarında.

Məhəbbət insanı insan eləyir,
Onu dadmayana adam deməzlər.
O iki varlıqda tüğyan eləyir,
Dəyir bir-birinə isti nəfəslər.

Tutur bir-birindən sehirli əllər,
Öpür bir-birini odlu dodaqlar.
Sizi xoşbəxt olun sevən gözəllər,
Sizi xoşbəxt olun sevən qoçaqlar.

Biz də sevilmişik, sevmişik bir vaxt,
Bizi cərgənizdə daim sayın siz,
Məhəbbət yaşadır bəşəri ancaq,
Sevənlər, bu sözü unutmayın siz.

Atomdan qoruyun, amma ki, hər gün,
Sarsıdın dünyanı məhəbbət ilə...
Odlayın, yandırın, dağıdın, sökün,
Qaldırın dünyanı məhəbbət ilə.

Məhəbbət ən büllur könüldə açar,
Ləkəli ürəkdə olmaz heç zaman.
Məhəbbət ən isti iqlimdə açar,
Şaxtada, küləkdə açmaz heç zaman.

Zərifdir, kövrəkdir, verməyin bada,
Saralar, tökülər həşəm[1] kimidir.
Birini sevməyən adam dünyada,
Gözümdə hamıya düşmən kimidir.

Yaşa məhəbbətlə dolu, a dünya,
Eşqi tükənməzsən, üzü gülərsən.
Əvvəl sevənləri qoru, a dünya,
Sevməyən kəslərlə özün bilərsən.

1. döyülmək üçün xırmana tökülmüş taxıl; quru ot, ələf

**Sən elə bir vaxtda rast gəldin mənə**
Qurumuş budağam, bulanmış suyam...
Sən elə bir vaxtda rast gəldin mənə
Oxunmuş nəğməyəm, çalınmış toyam...
Nə gücüm çatdı ki, səndən yapışam,
Nə gücüm çatdı ki, səndən qaçam mən.
Nə odum oldu ki, yanam, alışam,
Nə sehrim oldu ki, cavanlaşam mən...

Sən elə bir vaxtda rast gəldin mənə
Ömrün payız vaxtı, xəzəl çağıydı...
Sən elə bir vaxtda rast gəldin mənə
Sənin gəncliyinin gözəl çağıydı...
Nə deyə bildim ki, tutar bizimki...
Nə deyə bildim ki, tutmaz sevdamız.
O uzaqda itən qatar bizimdi,
Bizimdir səmada itən o ulduz...

Sən elə bir vaxtda rast gəldin mənə
Dayanıb durmuşdum yol ayrıcında...
Sən elə bir vaxtda rast gəldin mənə
Bir üzüm cavandı, bir üzüm qoca...
Nə deyə bildim ki, sevən çağımdır,
Nə dedim sevirəm, mənə yaxın dur...
Nə deyə bildim ki, mənə dayaq ol,
Nə deyə bildim ki, məndən uzaq ol...

Sən elə bir vaxtda rast gəldin mənə
Ömrün eşq badəsi içilmiş idi...
Sən elə bir vaxtda rast gəldin mənə
Mənzilimin çoxu keçilmiş idi...
Nə deyə bildim ki, ürəksən mənə,
Nə deyə bildim ki, ürək deyilsən.
Nə deyə bildim ki, gərəksən mənə,
Nə deyə bildim ki, gərək deyilsən...

Sən elə bir vaxtda rast gəldin mənə
Bu necə fəsildi, necə vaxt idi...
Sən elə bir vaxtda rast gəldin mənə
Bu necə taleydi, necə baxt idi...
Nə deyə bildim ki, pənahsızam mən,
Nə deyə bildim ki, pənah məndədir...
Nə deyə bildim ki, günahsızam mən,
Nə deyə bildim ki, günah məndədir..

Sən elə bir vaxtda rast gəldin mənə
Özüm öz halıma gülmək istədim...
Sən elə bir vaxtda rast gəldin mənə
Təzədən dünyaya gəlmək istədim...

## Taleyim mənim

Íl ötdü, ay keçdi
Qəlbimi açmadım heç kimə
heç kimə mən, yar.
Yan bir şimşək kimi
Ömrümdən keçginən
keçginən
keçginən sən, yar.

Fəsillər adlandı,
Könüllər odlandı,
Sevənlər şadlandı,
Bəs mən neynim,
neynim, gəl,
Taleyim gəl,
Sən məni qurtar
Bu hicran əlindən.

Dağlara qar düşər
Hələ mən yanaram,
yanaram,
yanaram mən, yar.
Yadıma yar düşər
Həsrətdən donaram,
donaram
donaram mən, yar.

Fəsillər adlandı
Könüllər odlandı
Sevənlər şadlandı,
Bəs mən neynim,
neynim, gəl,
Taleyim gəl,
Sən məni qurtar
Bu hicran əlindən.

## Ayrılıq nəğməsi

Yavaş-yavaş gecə keçər
Heç bilmirəm necə keçər.
Durub səni düşündükcə
Qoşun çəkər xatirələr
Şirin günlər düşər yada.
Ürək deyər, ayrılığın
Başı batsın bu dünyada.

Qələm istər şeir yaza
Yollar uzun...səbr qısa...
Sənsiz canım oda yanar
Sənsiz canım dönər buza
Sənsiz ömrüm gedər bada.
Ürək, deyər ayrılığın
Üzü dönsün bu dünyada.

Ay çəkilər yuxu kimi,
Bir ovçunun oxu kimi.
Hamı deyər, hamı gülər
Mən gülmərəm çoxu kimi.
Düşünərəm o qıza kaş
Əlim yetə, səsim çata.
Ürək deyər ayrılığın
Gözü çıxsın bu dünyada.

Çöldə tufan haray çəkər,
Salar fəğan, haray çəkər.
Yerdə durub mən susaram
Göydə bulud alay çəkər.
Şirin günlər, şirin çağlar
Bir-bir gəlib düşər yada.
Ürək deyər ayrılığın
Başı batsın bu dünyada.

## Məhəbbət

O bu boyda bir cahanı yaradıb,
Yeri, göyü, asimanı yaradıb,
İnsan onu, o insanı yaradıb,
Bu həyatın əlifbası - məhəbbət,
Ən ilk nəğmə, ən ilk yazı - məhəbbət!

Hər ömürdə bir ulduza dönər o,
Gah şimşəktək birdən çaxar, sönər o,
Gizli gələr, fəqət aşkar dinər o,
Canda nəfəs, damarda qan - məhəbbət,
Hər var olan, hər yox olan - məhəbbət!

O dəryadır kükrəyəndə, daşanda,
O almazdır üzüklərin qaşında,
O sevdadır hey dolanır başımda,
Həm həqiqət, həm əfsanə - məhəbbət,
Gah ağıllı, gah divanə - məhəbbət.

## Həyat, sən nə qəribəsən?!

Nə yaxın qonşu olduq bu dünyada!
Ayrı-ayrı doğulduq bu dünyada,
Axır gəlib bir olduq bu dünyada –
Ey həyat, sən nə qəribəsən?!

Sən Ay kimi baxdın mənə,
Sən Gün kimi baxdın mənə,
Gözlərinin qarasıyla
Güldü ömrün baxtı mənə.

Aylar keçir, illər keçir, axın olur
Yadlar gəlir doğma olur, yaxın olur
Məhəbbətlə keçən ömür nağıl olur –
Ey həyat, sən nə qəribəsən?!

Bu ilqarı yaşatdıq canımızda
Gənclik eşqi qaynadı qanımızda
Qohum oldu atamız, anamız da –
Ey həyat, sən nə qəribəsən?!

## Sevgi miniatürləri

**Sevinirdim uşaq kimi,**
Bar verirdim torpaq kimi,
Çağlayırdım bulaq kimi,
Sən o bulağı qurutdun,
Unutdun, məni unutdun...

Gözümdə ikidir aləm,
Biri ümiddir, biri qəm,
Mən nə itirdim, bilirəm,
Sən nə qazandın, nə uddun,
Unutdun məni, unutdun...

***

**Bir qara bayraq kimiyəm,**
Bir sarı yarpaq kimiyəm,
Bir susuz torpaq kimiyəm,
Sənsiz olanda...

Bir atılmış daş kimiyəm,
Bir bədənsiz baş kimiyəm,
Bacısız qardaş kimiyəm
Sənsiz olanda...

**İndeks** (əlifba sırasına görə şeirlər)


Açmaram bu sirri - *Xəlil Rza Ulutürk* ........ 242
Axşam mahnısı - *Zeynal Cabbarzadə* ........ 62
Axtar sən məni - *Nəbi Xəzri* ........ 123
Alagöz - *Zeynal Cabbarzadə* ........ 61
Arzu - *İslam Səfərli* ........ 87
Ay qız - *Zeynal Cabbarzadə* ........ 75
Ay qız - *Hüseyn Arif* ........ 107
Ay yaşıl söyüd - *Nəriman Həsənzadə* ........ 220
Aylı gecələr - *İslam Səfərli* ........ 97
Ayrı sahillərin eyni dalğası - *Nəbi Xəzri* ........ 120
Ayrılıq nəğməsi - *Cabir Novruz* ........ 274
Bahar olsun - *Ənvər Əlibəyl* ........ 55
Başıma gəldi - *Əliağa Kürçaylı* ........ 185
Bayatılar - *Məhəmməd Hüseyn Şəhriyar* ........ 36
Behcətabad xatirəsi - *Məhəmməd Hüseyn Şəhriyar* ........ 26
Belə ola həmişə - *Əliağa Kürçaylı* ........ 181
Bəxtəvər oldu - *Nəriman Həsənzadə* ........ 214
Bəlalı baş - *Məhəmməd Hüseyn Şəhriyar* ........ 34
Bilmədin - *İslam Səfərli* ........ 92
Bir gül kimi - *Cabir Novruz* ........ 260
Bir könül sındırmışam - *İslam Səfərli* ........ 85
Bir payız axşamı - *Bəxtiyar Vahabzadə* ........ 145
Bir rəngli-boyalı qadına - *Səməd Mənsur* ........ 9
Bir salama dəymədi - *Bəxtiyar Vahabzadə* ........ 160
Bir səhər dan yeri alarkən nəfəs - *Abdulla Şaiq* ........ 22
Biri sənsən, biri mən - *Bəxtiyar Vahabzadə* ........ 155
Biz ki, istəyirik - *Nəriman Həsənzadə* ........ 208
Bu da bir zarafat - *Nəriman Həsənzadə* ........ 212
Bu qədər saldı məni həsrət amandan-amana -
*Bəxtiyar Vahabzadə* ........ 165
Dalğalar - *İslam Səfərli* ........ 83
Dedim, dedi - *Zeynal Cabbarzadə* ........ 72
Dedim, dedi - *Hüseyn Arif* ........ 108
Demişdin yaz gəlsin... - *Ənvər Əlibəyli* ........ 52
Deyirlər tanış ol... - *Nəriman Həsənzadə* ........ 207
Dəniz, göy, məhəbbət - *Nəbi Xəzri* ........ 122
Dənizdə Ay çimirdi - *Əliağa Kürçaylı* ........ 178
Dinə bilmədim - *Hüseyn Arif* ........ 111
Divan şeiri bağçalarında - *Həmid Nutqi* ........ 43
Dözüm - *Nəriman Həsənzadə* ........ 219

Düşüb - *Nəriman Həsənzadə* .................... 233
Eşitsəm gəlirsən - *Xəlil Rza Ulutürk* .................... 50
Əlini mənə ver - *Xəlil Rza Ulutürk* .................... 240
Əllərində ulduzlar - *Həmid Nutqi* .................... 44
Ən ülvi, təmiz duyğudur insanda məhəbbət -
*Bəxtiyar Vahabzadə* .................... 167
Ərəb qızı - *Nəbi Xəzri* .................... 130
Əvvəl sevənləri qoru a dünya - *Cabir Novruz* .................... 268
Əynindəki donun bəyaz, örpəyin bəyaz - *Əliağa Kürçaylı* .................... 177
Əziz surət - *Zeynal Cabbarzadə* .................... 65
Əzizə - *Məhəmməd Hüseyn Şəhriyar* .................... 30
Fal - *Həmid Nutqi* .................... 42
Fikir eləmə - *Nəriman Həsənzadə* .................... 210
Gecə dəniz qərq olar - *Əhməd Cəmil* .................... 37
Gecələr uzanaydı... - *Bəxtiyar Vahabzadə* .................... 149
Getdinsə də, getməz ürəyimdən qəmi-eşqin - *Abbas Səhhət* .................... 7
Getmə, tərsa balası - *Məhəmməd Hüseyn Şəhriyar* .................... 28
Gəldikcə o qəmzən quşu cövalnə, gülümsər! - *Abdulla Şaiq* .................... 21
Gəlir - *Bəxtiyar Vahabzadə* .................... 142
Gəlmədin - *Ənvər Əlibəyli* .................... 49
Gəzəyən qız - *Nəriman Həsənzadə* .................... 225
Görüşdük Tanrının elə var günü - *Cabir Novruz* .................... 266
Göz görüb - *Zeynal Cabbarzadə* .................... 64
Gözəllər - *Zeynal Cabbarzadə* .................... 78
Gül - *Bəxtiyar Vahabzadə* .................... 159
Gül bağçalar - *İslam Səfərli* .................... 93
Gül bir az - *Nəriman Həsənzadə* .................... 215
Heç xəbərin yoxdur sənin - *Əliağa Kürçaylı* .................... 183
Heyif - *Bəxtiyar Vahabzadə* .................... 141
Həkim qız - *İslam Səfərli* .................... 91
Həyat sən nə qəribəsən?! - *Cabir Novruz* .................... 277
Xatirələr - *Bəxtiyar Vahabzadə* .................... 156
Xatırla məni - *Hüseyn Arif* .................... 109
Xətrinə dəymərəm - *Hüseyn Arif* .................... 116
Xoşbəxtlik mahnısı - *Əliağa Kürçaylı* .................... 187
İki sevgi - *Əli Kərim* .................... 194
İkilikdə - *Nəbi Xəzri* .................... 124
İlk bahar - *Zeynal Cabbarzadə* .................... 66
İntizar - *Zeynal Cabbarzadə* .................... 63
İstərəm - *Əliağa Kürçaylı* .................... 176
İstəyirəm görəm səni - *Bəxtiyar Vahabzadə* .................... 157
Kaş... - *Nəriman Həsənzadə* .................... 222

Kölgəm qədər yaxınsan - *Bəxtiyar Vahabzadə* ..................... 143
Külək - *Nəbi Xəzri* ..................... 128
Qadına məktub - *Nəriman Həsənzadə* ..................... 230
Qayıt - *Əli Kərim* ..................... 198
Qəlbimdə qaldın - *Nəbi Xəzri* ..................... 129
Qızlar mahnısı - *Ənvər Əlibəyli* ..................... 54
Qonaq gəl bizə - *İslam Səfərli* ..................... 98
Qonşu qız - *Hüseyn Arif* ..................... 110
Qonşuda qız sevənin - *Nəbi Xəzri* ..................... 134
Qoru - *Nəriman Həsənzadə* ..................... 202
Qoşa vuracaqdır ürəklərimiz - *Ənvər Əlibəyli* ..................... 50
Qüruru neyləyirsən? - *Bəxtiyar Vahabzadə* ..................... 144
Lirik mahnı - *Zeynal Cabbarzadə* ..................... 68
Lirik parça - *Nəriman Həsənzadə* ..................... 216
Malakan qızı - *Hüseyn Arif* ..................... 114
Mavidir... - *Nəbi Xəzri* ..................... 126
Məhəbbət - *Cabir Novruz* ..................... 276
Məhəbbət bu dünyanın əzəli... - *Cabir Novruz* ..................... 263
Məhəbbət yaşa baxmır - *Cabir Novruz* ..................... 264
Mən bilirdim bu günüm bir yeni dövran olacaq -
*Xəlil Rza Ulutürk* ..................... 255
Mən inanmadım - *Hüseyn Arif* ..................... 104
Mənə elə gəlir - *Nəriman Həsənzadə* ..................... 218
Məni sənə bağlayan - *Əliağa Kürçaylı* ..................... 175
Məni yada salırmı? - *Əhməd Cəmil* ..................... 38
Nağıl - *Nəriman Həsənzadə* ..................... 203
Nar-nar - *Nəbi Xəzri* ..................... 125
Naz et! - *Səməd Mənsur* ..................... 10
Neyləsin? - *Zeynal Cabbarzadə* ..................... 74
Nə bəxtiyardıq! - *Hüseyn Arif* ..................... 112
Nə dedim? - *Nəbi Xəzri* ..................... 119
Nə deyim? - *Hüseyn Arif* ..................... 105
Nə xoşbəxt imişəm bir zaman, Allah - *Əli Kərim* ..................... 196
Nə məni anladın, nə məni duydun - *Bəxtiyar Vahabzadə* ..................... 162
Nə olar? - *Zeynal Cabbarzadə* ..................... 69
Nə vaxt görüşmüşük? - *Əli Kərim* ..................... 192
Nə vaxta qaldı? - *İslam Səfərli* ..................... 86
Nə vecinə - *Hüseyn Arif* ..................... 102
Nərdivan - *Nəriman Həsənzadə* ..................... 232
Niyə getdin? - *Nəriman Həsənzadə* ..................... 223
Niyə sevdim mən səni? - *Ənvər Əlibəyli* ..................... 56
O baxışlar - *Abdulla Şaiq* ..................... 18

O qız sakit ömr edərdi bir zaman - *Cabir Novruz* ...................... 265
Odum, közüm, gəl - *Bəxtiyar Vahabzadə* .................................. 146
Olurmuş - *Bəxtiyar Vahabzadə* .................................................. 148
Ovçumusan, ovmusan? - *Əliağa Kürçaylı* ................................ 182
Ömrümün yazısan - *Nəriman Həsənzadə* .................................. 224
Ömrün payızında sevdim, sevildim - *Bəxtiyar Vahabzadə* ........ 147
Öyrənmişəm sənə, gülüm... - *Cabir Novruz* ............................ 262
Özü duyaydı ki, ürəyimdədir - *Əli Kərim* .................................. 191
Pərvanə və şəm - *Məhəmməd Hüseyn Şəhriyar* ......................... 25
Pıçıldaşın ləpələr - *İslam Səfərli* .............................................. 89
Ruhim, mələkim, sevdiciyim, nazlı sürüşum - *Abbas Səhhət* .... 7
Saçları şəlalə qız - *Xəlil Rza Ulutürk* ........................................ 254
Sağ canımda ağrıyan yerim - *Nəriman Həsənzadə* .................. 228
Sevda - *Həmid Nutqi* .................................................................... 46
Sevəydin barı - *Hüseyn Arif* ......................................................... 113
Sevgi miniatatürləri - *Abdulla Şaiq* ............................................. 23
Sevgi miniatürləri - *Zeynal Cabbarzadə* ....................................... 80
Sevgi miniatürləri - *Nəbi Xəzri* ..................................................... 139
Sevgi miniatürləri - *Bəxtiyar Vahabzadə* ..................................... 170
Sevgi miniatürləri - *Cabir Novruz* ................................................ 278
Sevgi miniatürləri - *Əli Kərim* ...................................................... 200
Sevgi miniatürləri - *Ənvər Əlibəyli* ............................................... 57
Sevgi miniatürləri - *Həmid Nutqi* .................................................. 48
Sevgi miniatürləri - *Hüseyn Arif* .................................................... 117
Sevgi miniatürləri - *Nəriman Həsənzadə* ....................................... 234
Sevgi miniatürləri - *Əhməd Cəmil* .................................................. 39
Sevgi miniatürləri - *Əliağa Kürçaylı* .............................................. 188
Sevgi miniatürləri - *Xəlil Rza Ulutürk* ........................................... 256
Sevgi valsı - *İslam Səfərli* ................................................................ 94
Sevirdim xurmayı hörüklərini - *Əliağa Kürçaylı* ............................ 179
Səadət qorxusu - *Xəlil Rza Ulutürk* ................................................ 246
Səhər mahnısı - *İslam Səfərli* ........................................................... 95
Sən bağışladın - *Nəriman Həsənzadə* ............................................... 201
Sən dərsə gəlməyəndə - *Hüseyn Arif* ............................................... 103
Sən elə bir vaxtda rast gəldin mənə - *Cabir Novruz* ........................ 270
Sən hardan biləsən? - *Bəxtiyar Vahabzadə* ...................................... 152
Sən mənim olsan - *Səməd Mənsur* ...................................................... 13
Sən mənim, mən sənin! - *Zeynal Cabbarzadə* .................................... 70
Sən mənimlə get - *Hüseyn Arif* ......................................................... 101
Səni gördüm - *Bəxtiyar Vahabzadə* ................................................... 164
Səni gördüm - *Cabir Novruz* .............................................................. 259
Səni sevən varsa... - *Nəbi Xəzri* ........................................................ 138

Sənin üçün - *Nəbi Xəzri* ........ 133
Sənsən həyatım - *Nəriman Həsənzadə* ........ 226
Sənsiz - *Həmid Nutqi* ........ 41
Sənsiz qəhr edərdi bu cahan məni - *Bəxtiyar Vahabzadə* ........ 168
Səslə məni - *Əliağa Kürçaylı* ........ 184
Söylə, yadındamı? - *Hüseyn Arif* ........ 106
Söz olmasaydı - *Ənvər Əlibəyli* ........ 53
Şəhla gözlüm - *İslam Səfərli* ........ 96
Şərq gözəlinə - *Abdulla Şaiq* ........ 20
Şikayətlərim - *Abdulla Şaiq* ........ 17
Taleyim mənim - *Cabir Novruz* ........ 272
Taleyimin göylərində - *Əliağa Kürçaylı* ........ 186
Tez gəl - *Zeynal Cabbarzadə* ........ 76
Tələsmə - *Nəriman Həsənzadə* ........ 211
Tut mənim əlimdən, buraxma, gülüm - *Xəlil Rza Ulutürk* ........ 252
Ulduzlar və sən - *Nəbi Xəzri* ........ 136
Unudam gərək - *Bəxtiyar Vahabzadə* ........ 150
Üzmə yar - *İslam Səfərli* ........ 84
Yadigar - *Nəbi Xəzri* ........ 131
Yadıma düşdün - *İslam Səfərli* ........ 88
Yadıma sən düşürsən - *Əliağa Kürçaylı* ........ 180
Yadındamı? - *Xəlil Rza Ulutürk* ........ 239
Yağışlar yağanda - *Xəlil Rza Ulutürk* ........ 244
Yağma, yağış - *Bəxtiyar Vahabzadə* ........ 158
Yanına gəlmişəm - *Nəriman Həsənzadə* ........ 206
Yar gəldi - *Əli Kərim* ........ 199
Yar incidi - *Ənvər Əlibəyli* ........ 51
Yar qasidi - *Məhəmməd Hüseyn Şəhriyar* ........ 33
Yaşa dünyada - *Nəriman Həsənzadə* ........ 217
Yaşamaq üçün - *Nəriman Həsənzadə* ........ 204
Yenə bağlar o bağlardır, fəqət bağda gülüm yoxdur - *Bəxtiyar Vahabzadə* ........ 166
Yetər hicran - *Cabir Novruz* ........ 261
Yuxu - *Nəbi Xəzri* ........ 132
Zərif gülüşlüm - *İslam Səfərl* ........ 90

# The Azerbaijani Love Poetry. Book Two

***Compiled and designed by Hamlet Isaxanli***

Researchers, philosophers and other thinkers write about love, make analyses, create hypotheses and theories. However, it is only poets who live through the very love itself in their poems, let this love speak itself. Poetic description of human love and passion stand at the peak of word art. And in its turn, it is love - creating poetry; and poesy is music of a tenderly loving and affectinate soul. Feelings of sensate love turn into poetry, and the poem dedicated to love begets a sensation of love.

The more mankind exists, the more love and poetry will exist...

Since its inception, a centruies-old prosperous Azerbaijani poetry has always been the top leading theme and even now there is no doubt that the firmly grasped, cherished and memorized, and esteemed samples of poetry should be dedicated to love. The poets, having lived through the reigning periods of the great and tiny rulers with different religious and political ideologies, able and unable to find common language with ruling houses, could serve and devote themselves to love, leaving a tremendous heritage to ensure the continuity of our literary treasure. Together with classics, our contemporary poets have also written love poems becoming popularly celebrated through person to person transmission, shaking human hearts and turning them into music. It was my long wish to select and collect these poems, introduce them to readers as a whole. I made a careful choice according to originality, their inherent poetical-artistic, and aesthetic values, meanings and ideas they convey.

I wish everyone a prosperous life full of love and poetry who will have the chance to "communicate" with this multi voluminous "Azerbaijani love poetry".

*From Compiler*

© Khazar University Press, 2009
All rights reserved.

# The Azerbaijani Love Poetry

## Book Two

Compiled and designed
by Hamlet Isaxanli

11 Mehseti str., Baku, AZ1096.
Azerbaijan

# Azərbaycan Sevgi Poeziyası

ISBN 978-9952-20-045-4



Tədqiqatçılar, filosof və digər mütəfəkkirlər sevgi haqqında yazır, təhlilər aparır, fərziyyə və nəzəriyyələr qururlar. Şairlər isə şeirlərində sevginin özünü yaşayır, sevginin özünü danışdırırlar. Söz sənətinin zirvəsində insan sevgisinin, insan ehtirasının poetik təsviri dayanır. Öz növbəsində sevgidir poeziyanın yaradıcısı, sevən qəlbin musiqisidir poeziya. Sevgi duyğuları şeirə dönür, eşqə həsr olunmuş şeir sevgi duyğusu yaradır.

Bəşəriyyət var olduqca, sevgi də, poeziya da var olacaq...

Coxəsrli zəngin Azərbaycan poeziyasının aparıcı mövzularından biri sevgidir və şübhəsiz ki, poeziyamızın ən çox oxunan, sevilən və əzbərlənən nümunələri sevgiyə həsr olunanlardır. Böyük-kiçik hökmdarların, müxtəlif dini, siyasi ideologiyaların hakim olduğu zamanlarda yazıb-yaradan, sarayla dil tapan, ona xidmət edən və ya saraylarla əlaqəsi olmayan şairlərimiz könlünü eşq aləminə vermiş, ədəbiyyatımızı yaşadan şah əsərlər qoyub getmişlər. Klassiklərimizlə yanaşı çağdaş dövr şairlərimiz də ağızda gəzən, ürəkləri oynadan, musiqiyə dönən gözəl sevgi şeirləri yazmışlar. Bu şeirləri seçib, bir yerə toplayıb bütöv şəkildə oxuculara təqdim etmək çoxdankı arzum idi. Seçimimi tələsmədən, yüz ölçüb bir biçərək, şeirlərin bədii və estetik dəyəri, fikir yükü, orijinallığı kimi əlamətlərə dayanaraq etdim.

Çoxcildli “Azərbaycan sevgi poeziyası” ilə ünsiyyətdə olacaq hər kəsə sevgi və poeziya dolu həyat arzulayıram.

Hamlet İsaxanlı

ISBN 978-9952-20-045-4

9 789952 200454